QƏRBİ KASPİ
UNİVERSİTETİ

# QƏRBİ KASPİ UNİVERSİTETİNİN İNSTİTUSİONAL AKKREDİTASİYASI ÜZRƏ ÖZÜNÜTƏHLİLİN NƏTİCƏLƏRİ HAQQINDA

# HESABAT

***Hesabat Qərbi Kaspi Universitetinin Elmi Şurasının --.--.2023-cü il tarixli iclasının (protokol №__) qərarı ilə təsdiq edilmişdir***

***Tarix: __/__/2023***

***İmza: ___________***
*(müəssisənin rəhbəri)*

***M.Y***

**BAKI-2023**

## MÜNDƏRİCAT


I.GİRİŞ 3

1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar 3

2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki 4

2.1. Təşkilat komissiyasının tərkibi 4

2.2. Təşkilat komissiyasının fəaliyyət qrafiki 6

3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti 8

II. TƏHSİL MÜƏSSİSƏSİNİN ÖZÜNÜTƏHLİLİ 8

4. Özünütəhlil qiymətləndirməsinin icmalı 18

1. STRATEJİ İNKİŞAF 18

2. KEYFİYYƏT TƏMİNATI 25

3. TƏLİM VƏ TƏDRİS 31

4. ELMİ TƏDQİQAT 69

5. İDARƏETMƏ SİSTEMİ 82

6. İNFRASTRUKTUR 95

7. BEYNƏLMİLƏLLƏŞMƏ 98

5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri 105

6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər 107

I istiqamət – Strateji inkişaf 107

II istiqamət – Keyfiyyət təminatı 108

III istiqamət – Təlim və tədris 109

IV istiqamət – Elmi tədqiqat 110

V istiqamət – İdarəetmə sistemi 110

VI istiqamət – İnfrastruktur 112

VII istiqamət – Beynəlmiləlləşmə 113

III. ÖZÜNÜTƏHLİL HESABATINA ƏLAVƏ OLUNAN SƏNƏDLƏR 114

# I.GİRİŞ

## 1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar

| | |
|---|---|
| Ali təhsil müəssisəsinin adı | Qərbi Kaspi Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 05.09.2019- cu il tarixli F-537 nömrəli əmr 5 il müddətinə |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | 04.07.2019-cu il tarixli AKŞQ-03 əmri ilə, tipi ali təhsil müəssisəsi, növü Universitet ki müəyyənləşdirilmişdir |
| Ali təhsil müəssisəsinin rəhbəri | İcraçı prorektor<br>R.H.Bağırov |
| Fakültələrin sayı | 5 |
| Kafedraların sayı | 15 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 28 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | İxtisaslaşma: 17<br>İxtisas:23 |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | İxtisas:12 |
| Ali təhsil müəssisəsinin təhsilalan kontingenti | Təhsilalan sayı<br>Bakalavriat:2554<br>Magistratura:302<br>Doktorantura:45 |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 247 ştat müəllim |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 85 əvəzçi və<br>Saat hesabı müəllim |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | (012) 492-61-63; (012) 5563-39-77<br>adminstration@wcu.edu.az |
| Müəssisənin hüquqi ünvanı | Azərbaycan, Bakı şəh, AZ1001<br>İstiqlaliyyat küç. 27 |
| Müəssisənin faktiki ünvanı | Azərbaycan, Bakı şəh, AZ1075<br>Əhməd Rəcəbli küç, III paralel 17A |

# 2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

## 2.1. Təşkilat komissiyasının tərkibi

| № | Vəzifəsi, elmi adı, Soyadı, Adı, Atasının adı | Komissiyada vəzifəsi | Strukturda vəzifəsi | E-mail ünvanı |
|---|---|---|---|---|
| 1. | Bağırov Rəşad Hüseynqulu | Sədr | İcraçı prorektor | rashad@wcu.edu.az |
| 2. | Pürhani Səfər Həsən | Sədr müavini | “Turizm və sahə iqtisadiyyatı” kafedra müdiri | sefer.purhani@wcu.edu.az |
| 3. | Məmmədova İlahiyə Nadir | Katib | “ Dövlət nümunəli sənədlərlə, tələbələrlə iş şöbəsi”nin müdiri | ilahie.memmedova@wu.edu.az |
| 4. | Sadıxbəyava Sevda Rafiq | Üzv | Auditoriyadan kənar işlər üzrə prorektor | sevda.sadikhbeyova@wcu.edu.az |
| 5. | Əsədova Adilə Yaqub | Üzv | “Filalogiya və Tərcümə” məktəbinin dekanı | adila.asadova@wu.edu.az |
| 6. | Quliyeva Nailə Məmmədağa | Üzv | “Yüksək texnologiyalar və innovativ Mühəndislik” məktəbinin dekanı | naila.quliyeva@wcu.edu.az |
| 7. | Qazı-zadə Elnarə Adil | Üzv | “siyasi və ictimai elmlər” məktəbinin dekan müavini | elnare_qazizade@wcu.edu.az |
| 8. | Əfəndiyeva Leyla Firdovsi | Üzv | “Dizayn” məktəbinin dekan müavini | leyla.efendiyeva@wcu.edu.az |
| 9. | Yusifli Mehparə Nəcəf | Üzv | “İngilis dilinin tədrisi məktəbi” nin müəllimi | mehpare.yusifli@wcu.edu.az |
| 10. | Vəlizadə Tural Arif | Üzv | “Magistratura və doktorantura şöbəsi” nin müdür müavini | tural.velizade@wcu.edu.az |
| 11. | Əliyeva Tahirə İmran | Üzv | “İngilis dili və Tərcümə kafedrası”nın müdiri | tahire_eliyeva@wcu.edu.az |
| 12. | Bağırov Damət Abbas | Üzv | “Menecment kafedrası”nın müdiri | damet.bagirov@wcu.edu.az |
| 13. | Bağırov Mübariz Məmmədhüseyn | Üzv | “Maliyyə və Mühasibat uçotu kafedrası”nın müdiri | mubariz.bagirov@wcu.edu.az |
| 14. | Həsənova Afaq İsrafil | Üzv | “Ümumi iqtisadiyyat kafedrası”nın müdiri | afag.hasanova@wcu.edu.az |
| 15. | Rüstəmova Dürdanə Cavadxan | Üzv | “Mexanika və riyaziyyat kafedrası”nın müdiri | durdana.rustamova@wcu.edu.az |
| 16. | Hacıyeva Rəna Cavadxan | Üzv | “İnformasiya texnologiyaları kafedrası”nın müdiri | rena.haciyeva@wcu.edu.az |
| 17. | Ağayeva Səltənət Ərşad | Üzv | “Təbiət elmləri kafedrası”nın müdiri | saltanat.genetic@wcu.edu.az |
| 18. | Həsənov Xudayar İsmayıl | Üzv | “Ekologiya kafedrası”nın müdiri | xudayar.hesenov@wcu.edu.az |
| 19. | Muradlı Urfan Elşən | Üzv | “İqtisadiyyat və Biznes məktəbi”nin tyutoru | urfan.muradli@wcu.edu.az |
| 20. | Axundov Piri Fərhad | Üzv | “Tədrisin təşkili və idarəedilməsi şöbəsi” nin müdiri | piri.axundov@wcu.edu.az |
| 21. | Rzayev Anar Nurəddin | Üzv | “Hüquq şöbəsinin” müdiri | anar.rzayev@wcu.edu.az |
| 22. | Quliyeva Ləman Ağasəlim | Üzv | “İmtahan mərkəzi”nin müdiri | leman.guliyeva@wcu.edu.az |
| 23. | Məmmədova Zöhrə İsa | Üzv | “Online tədrisin monitorinq sektoru”nun müdiri | zohra.mammadova@wcu.edu.az |

| | | | | |
|---|---|---|---|---|
| **24.** | Orucəliyev Orxan Namik | Üzv | “İnformasiya texnologiyaları mərkəzi”nin müdiri | o.orkhan@wu.edu.az |
| **25.** | Sərkərov Urfan Rəhman | Üzv | “Tələbə məlumat mərkəzi”nin müdiri | urfan.serkerov@wcu.edu.az |
| **26.** | Məmmədova Gülnarə Vaqif | Üzv | “Elm və innovasiya” şöbəsinin müdir müavini | gulnare.memmedova@wcu.edu.az |
| **27.** | İmanov Telman İman | Üzv | “Menecment” kafedrasının professoru | telman.imanov@wcu.edu.az |
| **28.** | Mustafayeva Gülnisə Əlisəfa | Üzv | “Turizm və sahə iqtisadiyyatı” kafedrasının dosenti | gulnise.mustafayeva@wcu.edu.az |
| **29.** | Qasımova Günay İmaməddin | Üzv | “Elm və innovasiya” şöbəsinin Layihələr üzrə koordinatoru | gunay.qasimova@wcu.edu.az |
| **30.** | Məmmədov Vüsal Mətləb | Üzv | “KİV və ictimaiyyətlə əlaqələr üzrə xidmət departamentini”nin meneceri | vusal.memmedov@wu.edu.az |
| **31.** | Babayeva Nurlana Telman | Üzv | “İnsan resursları” şöbəsinin müdiri | nurlana.b@wcu.edu.az |
| **32.** | Rəhimova Səidə Balağa | Üzv | “Maliyyə və mühasibatlıq” şöbəsinin baş mühasibi | saida.rahimova@wcu.edu.az |
| **33.** | Həkimova Səfalı İsmayıl | Üzv | “Keyfiyyət Təminatı Mərkəzinin” müdiri | sefali.hekimova@wcu.edu.az |
| **34.** | Ağrılı Cəmilə Elman | Üzv | “Strateji İnkişaf Mərkəzinin” müdir müavini | jamila.aghrili@wcu.edu.az |
| **35.** | Abbasova Əsli Zeynalabdin | Üzv | “Ömürboyu Təhsil Mərkəzinin” mütəxəssisi | esli.abbasova@wcu.edu.az |
| **36.** | Quluzadə Kristina Vladimirovna | Üzv | Ümumi şöbənin müdiri | kristina.quluzade@wcu.edu.az |
| **37.** | Cəbraılzadə Arzu Mikayıl | Üzv | Beynəlxalq Şöbənin müdir | arzu.jabrayilzade@wcu.edu.az |

## 2.2. Təşkilat komissiyasının fəaliyyət qrafiki

| № | Komissiyanın üzvü | Fəaliyyət istiqaməti |
|---|---|---|
| 1. | **Rəşad Bağırov** – Qərbi Kaspi Universitetinin icraçı prorektoru, sədr<br>**Səfər Pürhani –** i.e.d.,professor, "Turizm və sahə iqtisadiyyatı" kafedrasının müdiri, sədr müavini, koordinator. | TKTA – dan daxil olan məktubla bağlı müzakirələrin aparılması, AR NK – nın 14.12.2020- ci il tarixli 493 nömrəli Qərarının 2.5.2 yarımbəndinə əsasən Təşkilat Komissiyasının tərkibinin müəyyənləşdirilməsi və təsdiqi üçün rektora təqdim edilməsi. |
| 2. | **Səfər Pürhani –** i.e.d.,professor, "Turizm və sahə iqtisadiyyatı" kafedrasının müdiri, sədr müavini, koordinator.<br>**Məmmədova İlahiyyə - "**Dövlət nümunəli sənədlərlə, tələbələrlə iş şöbəsi**"-** nin baş mütəxəssisi. | Təşkilat Komissiyasının üzvlərinə tanış olmaları üçün akkreditasiya ilə bağlı müvafiq sənədləri göndərilməsi və daha sonra təşkil olunacaq iclasla bağlı məlumatlandırılması. |
| 3. | **Səfər Pürhani –** i.e.d.,professor, "Turizm və sahə iqtisadiyyatı" kafedrasının müdiri, sədr müavini, koordinator.<br>**Məmmədova İlahiyyə -** Dövlət nümunəli sənədlərlə, tələbələrlə iş şöbəsi**"-** nin baş mütəxəssisi. | Təşkilat Komissiyasının iclasının keçirilməsi. |
| 4. | **İmanov Telman** – i.e.d.,professor,"Menecment" kafedrasının əməkdaşı.<br>**Rzayev Anar** – "Hüquq şöbəsi" – nin müdiri<br>**Ağrılı Cəmilə** - "Strateji İnkişaf Mərkəzi" – nin müdir müavini | Müvafiq istiqamətlər üzrə görüşlərin keçirilməsi<br>**I istiqamət "Strateji İnkişaf"** |
| 5. | **Mustafayeva Gülnisə -** i.ü.f.d.,dosent , "Turizm və sahə iqtisadiyyatı" kafedrasının əməkdaşı<br>**Həkimova Səfalı** – "Keyfiyyət təminatı mərkəzi" – nin müdiri | **II istiqamət "Keyfiyyət təminatı"** |
| 6. | **Bağırov Damət –** i.e.d.,professor, "Menecment" kafedrasının müdiri<br>**Rüstəmova Dürdanə -** fiz.ü.f.d, "Mexanika və riyaziyyat" kafedrasının müdiri | **III istiqamət "Təlim və tədris"** |
| 7. | **Ağayeva Səltənət** – b.ü.f.d., "Təbiət elmləri" kafedrasının müdiri<br>**Qasımova Günay-** r.ü.f.d.dosent, "Elm və innovasiya" şöbəsinin Layihələr üzrə koordinatoru | **IV istiqamət "Elmi tədqiqat"** |
| 8. | **Bağırov Mübariz -**i.e.d.,profesor, "Maliyyə və mühasibat uçotu" kafedrasının müdiri<br>**Babayeva Nurlana** - "İnsan resursları şöbəsi" – nin müdiri | **V istiqamət "İdarəetmə sistemləri"** |
| 9. | **Rəhimova Səidə -** "Maliyyə və mühasibatlıq" şöbəsinin baş mühasibi<br>**Nəbiyev Natiq-** "Təsərrüfat işləri şöbəsi" – nin müdir müavini | **VI istiqamət "İnfrastruktura"** |
| 10. | **Quliyeva Nailə -**kü.f.d., "Yüksək texnologiyalar və innovativ mühəndislik" məktəbinin dekanı<br>**Cəbrayılzadə Arzu-** Beynəlxalq Şöbənin müdiri<br>**Hüseynova Elmira** - "Beynəlxalq əlaqələr şöbəsi" – nin mütəxəssisi | **VII istiqamət "Beynəlmiləşmə"** |
| 11. | Sənədlərin toplanması və ümumi müzakirəsi | |
| 12. | Özünütəhlil hesabatı Elmi Şurada müzakirə və təsdiq edilməsi | |
| 13. | Özünütəhlil hesabatı və ona əlavə olunan sənədlərin TKTA -ya təqdim olunması | |

## 3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti

| № | Tövsiyənin məzmunu | Tövsiyənin icra vəziyyəti |
|---|---|---|
| 1 | Universitetin fəaliyyətinin Azərbaycan Respublikasının Təhsil Qanununa və müvafiq hüquqi-normativ aktlarına, o cümlədən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.11.2010-cu il tarixli, 215 nömrəli qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında” Əsasnamə, Ali təhsil müəssisələrinin Nümunəvi Nizamnaməsi; Azərbaycan Respublikası Təhsil nazirinin 04.04.1997-ci il 198 saylı əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin inşaat, maddi-texniki təchizat, kadr potensialı və strukturuna qoyulan minimum normalar”; Azərbaycan Respublikası Təhsil nazirinin 09.03.2011-ci il tarixli, 400 nömrəli əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları”na, Universitetin Nizamnaməsinə və s. uyğun təşkilinin təmin edilməsi; | Təhsil müəssisələrində pedaqoji işçilərin dərs yükü normalarının müəyyən edilməsi haqqında əsasnaməyə uyğun olaraq professor müəllim heyətinin bir ştat üçün nəzərdə tutulan dərs yükü Elmi Şura qərarına əsasən 500-650 saat göstərilmişdir. Auditoriya saatlarının miqdarı əsasnaməyə uyğun olaraq 60 faizdən aşağı olmamışdır. Əlavədə illər üzrə dərs bölgüsü sizə göndərilir. Təhsil Nazirliyinin müvafiq qaydalarına uyğun olaraq vakant kafedra müdiri və dekan vəzifələrinə seçkilər qanunvericiliyin tələblərinə uyğun olarq keçirilir. Buna misal olaraq seçki keçirilmiş bəzi kafedraların seçki sənədlərini qoşmaya əlavə edirik |
| 2 | Universitetin Strateji Planının və fəaliyyət planının təsdiq edilməsi, fəaliyyət planına uyğun işlərin təşkili və izlənilməsi, davamlı inkişaf konsepsiyasının təmin edilməsi; | Qərbi Kaspi Universitetinin 25 dekabr 2020-ci il tarixli Elmu Şurasının qərarı ilə Universitetin 2021-2025-ci illər üzrə Strateji inkişaf planı və onun həyata keçirilməsi ilə bağlı fəaliyyət planı təsdiq edilmişdir və 2021-ci ildən bu günədək həmin strateji planda qeyd edilən istiqamətlər üzrə fəaliyyət göstərilməkdədir. |
| 3 | Universitetin idarə edilməsində Nizamnamənin və qanunvericiliyin tələblərinə əməl olunmasına nəzarət mexanizmlərinin yaradılması və işlək vəziyyətə salınması | Universitetin idarə edilməsində Nizamnamə və qanunvericiliyə əməl edilməsini təmin etmək məqsədi ilə İcraçı Prorektor vəzifəsi təsis edilmiş və sözügedən işlərin həyata keçirilməsi ona həvalə edilmişdir. |
| 4 | Universitetin idarə edilməsində şəffaflığın təmin edilməsi məqsədi ilə Təsisçilərin yüksək vəzifələrə təyin edilməsi prosesinə yenidən baxılması; | Universitetin 23 may 2017-ci il tarixində ikinci redaksiyada təsdiq edilmiş və dövlət qeydiyyatına alınmış Nizamnaməsinin tələblərinə əsasən Universitetin idarə edilməsində Qəyyumlar Şurası, Elmi Şura və digər qurumlar yaradılmışdır. Qəyyumlar Şurası Universitetin ali məşvərətçi orqanı olub Universitetin strateji fəaliyyəti və onun istiqamətləri barədə məsləhətlər verir.<br>Universitetin idarə edilməsində təsisçilərin iştirakı ilə bağlı bildirmək istəyirik ki, 01 sentyabr 2000-ci il tarixdən qüvvədə olan mülki qanunvericiliyə əsasən hər kəsin təkbaşına və ya başqaları ilə birlikdə kommersiya və ya qeyri-kommersiya hüquqi şəxsi yaratmaq və onun fəaliyyətində iştirak etmək hüququ varıdır. Bu səbəbdən də özəl Universitetlərdə və digər özəl müəssisələrdə təsisçilər şəxsən və ya səlahiyyətli nümayəndələri vasitəsilə həmin müəssisənin idarəedilməsində iştirak edə və müəssisənin fəaliyyəti ilə bağlı qərarlar verə bilərlər. Təsisçinin idarəetmədə iştirakının qeyri-şəffaflığa səbəb olmasına dair qanunvericilikdə hər hansı bir qadağa nəzərdə tutulmamışdır. Əksinə, qanunvericilik təsisçinin hətta qanuni təmsilçi olmasına da icazə vermişdir. |
| 5 | Universitetdə Müəllim Həmkarlar Komitəsinin yaradılması, əməkdaşların maraqlarının qorunması mexanizmlərinin təmin edilməsi; | “Həmkarlar ittifaqları haqqında” AR Qanununun tələblərinə əsasən Həmkarlar İttifaqı işçilərin könüllü birliyi olub onlar tərəfindən yaradılmalı bir qeyri-hökümət təşkilatıdır. Milli Qanunvericiliyə əsasən ən azı 7 nəfər |

| | | |
|---|---|---|
| | | fiziki şəxs tərəfindən yaradılmalı olan Həmkarlar ittifaqının yaradılması üçün bu günədək universitet əməkdaşları tərəfindən hər hansı bir təşəbbüs göstərilməmişdir. |
| 6 | İdarəetmə sistemində və strukturların formalaşmasında (məs. fakültələrin formalaşmasında) qeyd edilən qanunvericiliyin tələblərinin pozulması hallarının dərhal aradan qaldırılması; | Struktur bölmələri milli qanunvericiliyə və struktur bölmənin əsasnaməsinə uyğun təşkil olunub idarə edilir. Struktur bölmələrinin adları, əsasnamələri bundan əlavə, universitetin nizamnaməsi əlavədə sizə göndərilir. |
| 7 | Fakültələrin birləşdirilməsi və ya yenidən formalaşdırılması, kafedra müdirləri və fakültə dekanlarının seçilməsi və təyin edilməsi prosesində şəffaflığın təmin edilməsi; | Təhsil Nazirliyinin müvafiq qaydalarına uyğun olaraq vakant kafedra müdiri və dekan vəzifələrinə seçkilər qanunvericiliyin tələblərinə uyğun olaraq keçirilir. Buna misal olaraq seçki keçirilmiş bəzi kafedraların seçki sənədlərini qoşmaya əlavə edirik |
| 8 | Universitetdə bəzi kafedraların yenidən təşkili, kafedralararası əlaqələrin qurulması mexanizmlərinin inkişaf etdirilməsi; | Kafedralarda yeni standartlara əsasən müasir fənlərin təşkili yönündə daim işlər aparılır (tədris proqramlarını əlavə edirik). Bununla yanaşı, müəllimlərin attestasiyası üzərində daim iş gedir. Kafedralararası əlaqələrin qurulmasında həm tədris, həm elm şöbəsi böyük rol oynayır. Bəzi kafedraların birləşdirilməsi və kafedraya yeni ixtisasların alınması ilə kafedra yenilənir. Əlavə olaraq bildirmək istəyirik ki, kafedralar yenidən təşkiledilmə və ya yeni kafedraların yaradılması şəklində formalaşdırılır və bu qərar Universitetin Nizamnaməsinin tələblərinə əsasən Elmi Şura tərəfindən qəbul edilir. |
| 9 | Universitet daxili şöbələrin işinin gücləndirilməsi, şöbələrin ayrı-ayrılıqda idarə edilməsi (məs: Ümumi, Kadrlar və Tələbə şöbəsinin rəhbəri eyni adamdır); | Qərbi Kaspi Universitetində keçirilmiş sonuncu akkreditasiyadan sonra Ümumi şöbə, Tələbə şöbəsi və İnsan Resursları şöbəsi hüquqi və faktiki olaraq ayrılmış və onlar qarşılıqlı əməkdaşlıq şəraitində ayrı-ayrılıqda fəaliyyət göstərirlər. Əsasnamələr və qurulma əmrləri əlavədə Sizə göndərilir. |
| 10 | Müəssisənin Nizamnaməsinin 5.3-cü bəndinə əsasən "Universitetin mülkiyyət, təsərrüfat, strukturlaşma, rəhbər kadrların təyin olunması məsələlərində ali orqanı Təsisçilər Şurasıdır. Faktiki olaraq Universitetin iki təsisçisi vardır, ancaq rəsmi Təsisçilər Şurası kimi bir orqan fəaliyyət göstərmir. Nizamnamənin qeyd edilən bəndinin işlək formaya gətirilməsi; | Milli qanunvericilikdə (AR Mülki Məcəlləsində) təsisçilərin bir orqan kimi fəaliyyət göstərməli olmasına dair nəinki hər hansı bir imperativ tələb vardır, əksinə ümumiyyətlə təsisçilərin bir orqan kimi fəaliyyət göstərməsi qadağan edilmişdir. Qüvvədə olan mülki qanunvericiliyin tələbinə əsasən təsisçilərin fəaliyyəti onların ümumi yığıncaqlarının keçirilməsi ilə həyata keçirilir. Universitetdə Təsisçilər Şurasının fəaliyyəti qanunvericiliyin və Nizamnamənin tələblərinə riayət edilməklə həyata keçirilməkdədir. |
| 11 | Elmi Şuraların formalaşması prinsipinin mövcud qanunvericiliyə uyğun yenidən təşkili; | Universitetin Elmi Şurası Təhsil Nazirliyinin 10 noyabr 1997-ci ildə imzaladığı "Ali Təhsil müəssisəsinin fakültə Elmi Şurası haqqında" Əsasnamənin tələblərinə uyğun formalaşdırılmışdır. Əlavədə hər fakültənin elmi şurasının illik işçi planı və üzvlərinin siyahısını təqdim edirik. |
| 12 | Fakültələrdə dekanların bəzən özfəaliyyət istiqamətinin nədən ibarət olması haqqında aydın məlumatı yoxdur. Fakültələrə baxış zamanı bir çox hallarda fakültə dekanları öz iş yerlərində rast gəlinməmiş, bir fakültədə isə dekan vəzifəsi "vakantdır". Bəzi hallarda isə dekanlıqdan istənilən məlumatları (sənədlər, sillabuslar, imtahan nəticə vərəqləri və s.) onlarla eyni ofisi bölüşən kafedraların laborantlarının təqdim etməsi onların fakültəni idarə etməsi təəssüratı yaratmışdır (Siyasi Elmlər Fakültəsi). Bu özünü hətta fakültələrdən birində dekanın əvəzinə heç bir hüquqi əsası olmadan laborantın imza atması ilə nümayiş etdirmişdir (Kompyüter Elmləri və Dizayn Fakültəsi). Ümumiyyətlə universitetdə subardinativ münasibətlərin formalaşmasında inkişaf etdirilməsi vacib olan nüanslar | Təhsil qanunvericiliyinin və Universitetin Nizamnaməsinin tələblərinə əsasən hər bir fakültənin, kafedranın əsasnaməsi və tyutor xidməti haqqında əsasnamə qəbul edilərək təsdiq edilmişdir. Həmin Əsasnamələrdə fakültə dekanının, kafedra müdirinin və tyutorlarının vəzifələri öz əksini tapmışdır. Sənədləşmə və vəzifə bölgüsü vəzifə təlimatına və qanunvericiliyə uyğun aparılır. |

| | | |
|---|---|---|
| | mövcuddur. Düzgün kadr siyasəti və strukturların qarşılıqlı əlaqələndirilməsinin təmin edilməsi; | |
| 13 | Mövcud sənədləşmələrin Azərbaycan Respublikası Prezidenti tərəfindən 14.07.2015-ci il tarixli 569 nömrəli Fərmanla təsdiq edilmiş 27.09.2003-cü il tarixli 935 nömrəli "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın tələblərinə uyğun aparılmasının təmin edilməsi və bu işə nəzarətin artırılması; | Kargüzarlıq işləri ümumi şöbə tərəfindən həm elektron, həm kağız daşıyıcıda aparılır və nəzarət edilir. Dekanlıqlar, şöbələr və digər struktur bölmələrinin təqdimatı əsasında əmrləşmə səlahiyyətləri çərçivəsinə uyğun olaraq ümumi şöbə, tələbə şöbəsi və kadrlar şöbəsi tərəfindən aparılır. |
| 14 | Tələbə təşkilatlarının formalaşması prosesində şəffaflığın daha yüksək səviyyədə təmin edilməsi; | Universitetdə Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi cəmiyyəti fəaliyyət göstərir. Sözügedən təşkilatlar ilk öncə fakültə daxili seçkilərin keçirilməsi, daha sonra isə ümum Universitet üzrə seçkilər keçirilmək yolu ilə formalaşdırılır. Təşkilatlarda hər fakültədən nümayəndələr təmsil edilirlər. Təşkilatların fəaliyyət planları əlavədə göstərilmişdir. |
| 15 | Seçmə fənlərin müəyyən edilməsində və sillabusların tərtibatında Boloniya prosesinin əsas tələblərindən olan tələbə yönümlülüyünün təmin edilməsi istiqamətində dayanıqlı addımların atılması; | Yeni qəbul olunmuş təhsil proqramlarına uyğun olaraq tədris planları yenilənmişdir. Seçmə fənlər müəyyənləşdirilərkən təhsilalanların və əmək bazarının tələbləri nəzərə alınmışdır. Tələbələr tyutorların yardım xidmətindən istifadə etməklə hər ilin əvvəli öz fərdi tədris planlarında fənlərini seçirlər. |
| 16 | Fənn sillabuslarının mütamadi olaraq yenilənməsi, tələbələr üçün zəruri olan informasiyanı əhatə etməsininin və səmərəliliyinin təmin edilməsi; Sillabusların müasir tələblərə uyğunluğu və müasirliyinin təmin edilməsinə diqqət yetirilməsi; | Fənn sillabuslarının yenilənməsi istiqamətində işlər aparılır. Fənn sillabuslarında məzmun konpitensiyaları, təlim nəticələri yenidən işlənərək nəzərdən keçirilmişdir. (əlavədə sizə sillabusların nümunələri təqdim olunur) |
| 17 | Professor-müəllim heyətinin, eləcə də təhsilalanların tədris və elmi nailiyyətlərinin inkişafını təmin etmək məqsədi ilə müxtəlif beynəlxalq elmi məlumat bazalarına çıxışın təmin edilməsi; | Müəllim və təhsilalanların beynəlxalq elmi nəşrlərə çıxışı EBSCO məlumat bazasına illik abunə olunmaqla təmin edilir, eləcə də əlavə olaraq kitabxana seminarlarında açıq elmi resursların istifadəsi və praktik axtarış imkanlarına dair məlumat verilir. |
| 18 | Əmək bazarında, eləcə də cəmiyyət qarşısında təhsil proqramlarının hazırlılığının nüfuzunun artırılması məqsədi ilə mütəxəssis hazırlığının strukturunda tələbata uyğun şəkildə dəyişikliklərin edilməsi və uzlaşdırılmasının mütəmadi şəkildə həyata keçirilməsi; | Yenilənmiş tədris planlarında işəgötürənlərin fikirləri nəzərə alınmışdır. Beynəlxalq təcrübədən istifadə etmək məqsədi ilə müəllim və tələbə mobilliyi həyata keçirilir. İxtisaslı, peşəkar və praktik kadrların hazırlanmasında müəssisələrdən dəvət olunmuş mütəxəsislərin seminarları təşkil olunur. |
| 19 | Tədris prosesində qruplaşmaların müvafiq tələblər əsasında formalaşdırılması və tədrisin qəbul (təhsil) dilində təşkilinin təmin edilməsi (Qruplaşmalar mövcud qanunvericiliyə uyğun aparılmayıbdır. Qruplaşmalarda dərslərin 3 dildə aparıldığı iddia edilir. (Azərbaycan, İngilis və Rus)).; | Tələbələrə dərslər qəbul olduğu dildə aparılır. Digər tərəfdən onlar üçün əlavə şərait təşkil olunmuşdur ki, onlar müəyyən fənləri ingilis dilində də götürə bilərlər. Tələbələrin Xarici dillərinin daha da yaxşılaşdırılması və növbəti tədris illərində ingilis dilində təhsil almaları üçün LEVEL dərsləri təşkil edilmişdir. |
| 20 | Tədris prosesində tələbələrin fəallığının artırılması məqsədi ilə yeni təlim texnologiyaları və yeni metodlardan istifadə olunmasının tətbiqi və bu istiqamətdə professor-müəllim heyətinin mütəmadi inkişafı və kvalifikasiyasının artırılmasının planlaşdırılması; | Təlim prosesində tələbələr üçün təşkil olunmuş müasir auditoriyalarda müəllimlərin tədrisi üçün ağıllı lövhə, projektor, internetə daim çıxışı olan kompyuterlər təşkil olunmuşdur. Bununla yanaşı yerli və əcnəbi professor-müəllim heyəti tərəfindən dərslər interaktiv üsullarla təşkil edilməkdədir. |
| 21 | Elektron universitetin yaradılması və tələbə-universitet münasibətlərinin daha da şəffaflaşdırılması; | Elektron Universitetin ilkin çalışmalarına 15 Sentyabr 2021 ci ildə başlanılmış, 15 fevral 2022 ci ildə pilot layihə olaraq Yüksək texnologiyalar və İnnovativ mühəndislik fakültəsində layihənin tətbiqə başlanmış, 15 Sentyabr 2022-ci ildən etibarən isə bu layihənin bütün universitet üzrə tətbiq edilməsinə başlanmışdır.<br>Sistemdə hazırda işlək funksiyalar: Dərs cədvəlləri, jurnallar (davamiyyət, qiymətləndirmə, bal vərəqlərinin hazırlanması, üzrlü qayıbların müəyyən edilməsi, hesabatlar),sillabuslar, tələbə şəxsi kabineti, |

| | | |
|---|---|---|
| | | Avtomatlaşdırılmış test imtahanı, tədris planlarının daxil edilməsi, İnteraktiv tədris materiallarının paylanması və tapşırıqların verilməsi, İlkin kadrlar və tələbə qeydiyyat sistemi<br>Hazırda test mərhələsində olanlar: tapşırıq əsasında dərs yüklərinin bölünməsi, imtahan göndərişlərinin avtomatlaşdırılması, daxili yazışma sisteminin qurulması.<br>Növbəti mərhələdə tətbiqi planlaşdırılan bölmələr: Fərdi planların qeydiyyatı və inteqrasiyası, Kadrlar sisteminin təkmilləşdirilməsi, Transkriptlərin avtomatlaşdırılması, Mühasibatlığın ilkin variantda sistemə inteqrasiyası (Tələbə ödənişlərinin izlənməsi). |
| 22 | Tədris-laboratoriya bazasının mövcud tələblərə uyğunluğununun təmin edilməsi, tədris-labaratoriya bazalarının daha da genişləndirilməsi və müasirləşdirilməsi, eləcə də onların tədris prosesinin tərkib hissəsinə çevrilməsi; | Yeni yaradılmış laboratoriyalar haqqında məlumat:<br>1.Kimya və ətraf mühitinin monitorinqi laboratoriyası<br>2. Genetika, molekulyar biologiya və biotexnologiya laboratoriyası<br>3. Botanika kabineti<br>4.İnsan və heyvan anatomiyası və fiziologiyası kabineti<br>5.Geomatika laboratoriyası<br>6.Ekologiya kabineti<br>7. Fizika laboratoriyası<br>8. Kompyuter kabinetləri<br>9.Rəqəmsallaşdırma laboratoriyası.<br>10. Art studiya |
| 23 | Universitet tədris korpusunun (korpuslarının) yaşayış massivindən kənarda kampus formasında fəaliyyət göstərməsi; | Universitetin tədris korpusu 2017/2018-ci tədris ilindən etibarən yaşayış massivindən kənarda 2 korpus formasında fəaliyyət göstərir. Həmin kaorpuslar aşağıdakı ünvanlarda yerləşir:<br>Əhməd Rəcəbli 17A ünvanında yerləşən korpus 2017-ci ildə təhvil verilmişdi.<br>Əhməd Rəcəbli 21 ünvanında yerləşən korpus 2018-ci ildə təhvil verilmişdi. |
| 24 | Universitetdə fəaliyyət göstərən ümumutəhsil müəssisəsinin ali təhsil müəsissəsinin binasından kənarda yerləşdirilməsi; | Umumtəhsil müəssisəsinin fəaliyyət göstərdiyi ünvanda hal-hazırda Universitetin ən kiçik fakültəsi olmaqla böyük əksəriyyəti (təxminən 98%-i) qız tələbələrdən təşkil edilmiş filologiya fakültəsi və Universitetin inzibati heyətinin çox cüzi bir hissəsi fəaliyyət göstərməkdədir. Filologiya fakültəsinin sözügedən ünvanda saxlanılmasının səbəbi böyük əksəriyyəti xanım tələbələrdən ibarət olan bu fakültədə təhsil alan tələbələrin ictimai nəqliyyata əlçatanlığını təmin etməkdən ibarətdir. Digər fakültələrin tələbələri üçün sonuncu akkreditasiyadan sonra iki böyük korpus tikilərək istifadəyə verilmişdir. "İqtisadiyyat və Biznes", "Siyasi və İctimai elmlər" və "Yüksək Texnologiyalar və İnnovativ Mühəndislik" məktəbləri yeni binalara köçürülmüşdür. |
| 25 | Təhsilalanların müxtəlif elmi və tədqiqat ideyalarını stimullaşdıracaq mərkəzlərin formalaşdırılması, onların ideyalarının icrası üçün maliyyə dəstəyi və təqaüdlərin nəzərdə tutulması; | Professor-müəllim heyətinin, eləcə də təhsilalanların müxtəlif elmi və tədqiqat ideyalarını stimullaşdıracaq mərkəzlərin formalaşdırılması istiqamətində bir sıra addımlar həyata keçirilib. Onlardan biri 2019-cu ildə təsis edilmiş Xəzər dənizi problemləri Elmi-Tədqiqat Mərkəzidir. Mərkəzdə həyata keçirilən elmi-tədqiqat işləri ilə universitetdə aparılan təlim-tərbiyə prosesi arasında sıx qarşılıqlı əlaqə təmin edilir. Mərkəzin fəaliyyət profili üzrə Universitetin təhsilalanları tədqiqat işlərinin yerinə yetirilməsində yaxından iştirak edir, onlara mərkəzin laboratoriyasından istifadə etmək şəraiti yaradılır. Gələcək planlarda tədqiqatları daha da genişləndirmək, elmi və elmi-texniki elektron məlumat bazasının, herbari və kolleksiyaların yaradılması, xəritələr və digər kartoqrafik məlumatların hazırlanması nəzərdə tutulub. |
| 26 | Beynəlxalq elmi məlumat bazalarına çıxışın | Professor müəllim heyətinə məqalə yazmaq üçün |

| | | |
|---|---|---|
| | təmin edilməsi; | WoS, Scopus bazaların siyahsını necə düşmək üçün təlimlər və seminarlar aparılır. Müəllim heyyətini ELMİMETRİK bazalarda qeydiyyatı təşkil olunub. Məqalələrin jurnala göndərməsinə qeydiyyatdan keçmək, məqaləni jurnalın qaydasına uyğun olaraq tərtib etmək üçün köməklik edilir. |
| 27 | İxtisaslar və illər üzrə mövcud qaydalara uyğun şəkildə konkret qrupların formalaşmasının təmin edilməsi; | İllər üzrə qrup bölgülərini əlavədə sizə təqdim edirik. |
| 28 | İxtisas seçimi və planlaşdırılması zamanı konkret ixtisas dillərinin müəyyən edilməsi və qarışıq qrup anlayışının ləğvi; | Tələbə ixtisas seçimi zamanı hansı dili seçirsə, tədris həmin dildə onlar üçün qruplar yaradılır və tədris təşkil edilir. |
| 29 | Təhsilalanların alt və üst qruplarda, eləcə də yay semestrlərində təhsil almaları zamanı qrupların formalaşması prinsipinə əməl edilməsi; | Akademik borcu olan tələbəyə alt qrupda oturması tyutor tərəfindən tövsiyə olunur. Tələbənin istəyi əsasında həmin fənn həmin semestr təşkil olunursa, tələbə müvafiq qrupda yerləşdirilir. Fənn olmadıqda digər universitetlər araşdırılaraq onlara müraciət olunur. |
| 30 | Yay semestrlərinin təşkili ya fakültələr üzrə aparılsın, ya da ümumuniversitet səviyyəsində təşkil edilsin. Bu prosesin təşkilini həyata keçirəcək şəxslərin (əmək haqqında əlavələrlə birlikdə) adlı siyahısı və vəzifə bölgüsü, təhsilalanların və təhsilverənlərin siyahısı və s əmrlərdə daha aydın öz əksini tapması həm sənədləşmə baxımından, həm də maliyyə şəffaflığı baxımından vacib olduğunu nəzərə alaraq, bu formada təşkilin aparılması; | Nazirlər Kabinetinin müvafiq qərarlarına əsasən universitetdə akademik borcların ləğv edilməsi, fənlərin prerekvizitliyi gözlənilməklə, humanitar fənlər bölümünə daxil olan və ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlərin kreditlərinin qazanılması, müvəffəqiyyət qazanılan fəndən qiymətin yüksəldilməsi məqsədilə ayrı-ayrı fakültə və ümumuniversitet fənləri üzrə yay semestri (məktəbi) təşkil edilir. Yay semestrində tələbənin götürdüyü fənlər üzrə kreditlərin cəmi 10-dan artıq olmur. Yay semestrində tələbənin ödənişinin məbləği ixtisas üzrə illik təhsil haqlarını əyani təhsilalma forması üzrə 60-a bölərək, qiyabi təhsilalma forması üzrə isə 48-ə bölərək alınan nəticəni onun götürdüyü fənlərin kreditlərinə vurmaqla müəyyənləşdirilir. Yay semestrinin (nəzəri təlim və imtahanlar) müddəti 6 həftədir. Yay semestri növbəti semestrin başlanmasına 2 həftə qalanadək başa çatdırılır. |
| 31 | Boloniya prosesinin tələblərini (mobillik), eləcə də Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi və təhsil əsasnamələri əsasında ölkədə fəaliyyət göstərən digər Universitetlərlə tələbələrin kredit qazanmaları məqsədi ilə kurslarda iştirakının təmin edilməsi; | Tələbələrin mobilliyinin təmin edilməsi məqsədilə akademik borcu olan tələbələrə universitetdə alt qruplarda, əlavə qruplarda və ya universitetin digər fakültələrində fənlər üzrə kreditlərini götürülməsi təmin edilir, o cümlədən digər universitetlərdə fənlər üzrə kreditləri qazanmaq imkanı olduğu da bildirilir. Tələbələrə transfer.edu.az səhifəsi ilə bağlı ətraflı məlumat verilir. Bizim universitetdən transfer olunanlara, digər universitetlərdən bizə transfer olunan tələbələrə kreditləri qazanmaq üçün şərait yaradılır. Bundan başqa tələbələrin mobilliyinin təmin edilməsi məqsədilə digər universitetlərdə paralel təhsil almaq imkanı (ikili diplom proqramları) da mövcuddur. |
| 32 | Kitabxana fondunun metodik vəsaitlər və tələb olunan müasir dərsliklər hesabına zənginləşdirilməsi; | Kitabxana fondunun zənginləşdirilməsi istiqamətində aşağıdakı işlər görülür:<br>1.Tədris materialları və elmi-tədqiqat mövzuları ilə əlaqədar olaraq müəllim və tələbə heyəti tərəfindən kitabxanaya daxil olan sorğuların mütəmadi qeydiyyatı aparılır və təhlil edildikdən sonra mövcud olmayan ədəbiyyatın alınması planlanır.<br>2.Tələbə və müəllim heyətinə beynəlxalq elmi məlumat bazalarına sınaq müddətli giriş imkanları təqdim edilir və istifadə statistikasına əsasən abunə olunur.<br>3.Yeni elektron kitab platformaları və buna müvafiq olaraq Universitetin tədris və tədqiqat nöqteyi-nəzərdən informasiya tələbatının müəyyənləşdirilməsi üçün sillabusların təhlili aparılır. |

| | | |
|---|---|---|
| 33 | Dərsdən kənar hazırlığın formasında dinamiklik və keyfiyyət prinsiplərinə daha çox diqqətin yetirilməsi; | Auditoriyadan kənar saatlarda səmərəli istifadə etmək və tədrisin keyfiyyətinin yüksəldilməsi üçün tələbələrlə fərdi işlərin aparılası həyata keçirilir. |
| 34 | Tələbə sorğularının məqsədyönlü və planlı şəkildə keçirilməsi, nəticələrin təhlili və tətbiqinin təmin edilməsi və təhsilalanların bu haqda məlumatlandırılması; | 1. Universitetin maddi-texniki bazası, sosial fəaliyyətlər və təkliflər<br>2. Müəllimlərin keyfiyyət göstəriciləri haqqında<br>Qeyd edilən hər iki sorğu hazırlandığı zaman qeyd edilən sahə üzrə təcrübəsi olan qurum və ya mərkəzlərin sorğu nümunələrinə baxılmış və suallar keyfiyyət standartları əsasında hazırlanmışdır.<br>Sorğular onlayn şəkildə ildə 2 dəfə olmaqla keçirilir, sorğu suallarında məmnunluq dərəcəsi spss proqramı ilə kodlaşdırma əsasında aparılır (kod aralığı 1-4). |
| 35 | Əmək bazarında olan müasir tendensiyalarla yaxından tanış olunması, əmək bazarı nümayəndələrinin tələbinə uyğun savad və səriştəyə sahib peşəkarların hazırlanması məqsədi ilə əmək bazarı ilə sıx əlaqələrin qurulması, onların Universitetdə tədris siyasətinin formalaşması, eləcə də tədris prosesinə cəlb edilməsi, o cümlədən bu siyasətin formalaşmasında keçmiş məzunların rəyinin nəzərə alınması mexanizmlərinin formalaşdırılması; | Qərbi Kaspi Universiteti müxtəlif illərdə - 2018, 2019, 2021, 2022 və 2023-cü illərdə əmək yarmarkaları keçirmiş və bu məsələ artıq ənənə halını almışdır.<br>Müvafiq ixtisaslar üzrə təhsil alan tələbələr yarmarkada iştirak edən qurumlarda təcrübə proqramlarında iştirak etmiş, onlardan bir çoxu hətta işə qəbul edilmişdir. Tədris planının hazırlanmasında işə götürənlərin rəyləri nəzərə alınmışdır. |
| 36 | İmtahanların təşkili prosesinin əvvəldən sonadək İmtahan Mərkəzi tərəfindən deyil, müvafiq fakültə dekanlıqları tərəfindən reallaşdırılmasının tətbiqi; | Yuxarıda da qeyd etdiyimiz kimi, bir daha bildirmək istəyirik ki, milli qanunvericiliyə əsasən özəl müəssisələr öz idarəetməsini və struktur bölmələrini müəyyən etməkdə tamamilə müstəqildirlər. Özəl Universitet olaraq biz bu hüququmuzdan Nizamnaməmizə uyğun olaraq istifadə etmiş və öz struktur bölmələrimizi müstəqil formada təşkil etmişik. Bunların özəl müəssisə olaraq bizə irad tutulması fəaliyyətimizin müstəqilliyinə müdaxilə kimi qiymətləndirilməlidir. Belə ki, imtahanların müstəqil və heç bir fakültəyə tabe olmayan struktur bölmə tərəfindən aparılmasının qadağan edildiyinə dair milli qanunvericilikdə hər hansı bir göstəriş və ya qadağa yoxdur. Digər bir tərəfdən, İmtahan Mərkəzinin müstəqil struktur bölmə olaraq yaradılmasında Universitetin məqsədi imtahanların tamamilə şəffaflığını, obyektivliyini və mərkəzləşdirilmiş qaydada keçirilməsini təmin etmək olmuşdur. Tərəfimizdən bu addım atıldıqdan sonra ölkəmizdə fəaliyyət göstərən digər dövlət və özəl Universitetlər də Qərbi Kaspi Universitetinin bu təcrübəsindən yararlanaraq öz Universitetlərində bu tip Mərkəzlər yaratmışdırlar. |
| 37 | Tələbələrin şikayət və apellyasiyaları prosesini daha şəffaf və səmərəli təşkil etmək məqsədi ilə Fakültələr üzrə (dekanların sədirliyi ilə) münaqişə kommissiyalarının formalaşdırılması və apellyasiya prosesinin daha səmərəli təşkili (Hazırki təcrübə əsasında imtahan münaqişə kommissiyası ümumuniversitet səviyyəsində formalaşır və imtahan qərərgahı vasitəsi ilə idarə edilir.); | Apellyasiya Komissiyası müstəqil qurum olub Universitetin bütün fakültələri, kafedraları, digər struktur bölmələri ilə əlaqəli fəaliyyət göstərir. Komissiyanın əsas məqsədi tələbələrin apellyasiya şikayətlərini qanuni, obyektivlik və bərabərlik prinsipi əsasında araşdırmaq və şikayətlər barədə qanuni qərarlar qəbul etməkdir. Komissiyanın işinə müdaxilə yol verilməzdir. |
| 38 | Universitetdə yeni, daha gənc və professional kadrların (istər administrativ, istərsə də akademik heyətlərdə) cəlb edilməsi məqsədi ilə Universitetdə insan resursları siyasətinin hazırlanması və həyata keçirilməsi, eləcə də bu siyasətin icrasına cavabdeh strukturun (İnsan Resursları departamentinin) fəaliyyətinin təşkili; | Sonuncu akkreditasiyadan sonra Universitet tərəfindən peşəkar, gənc və xarici təhsilli kadrların cəlb edilməsi istiqamətində mühüm addımlar atılmış və bu səbəbdən də differensial əmək haqqının tətbiqinə başlanılmışdır. Sözügedən fəaliyyətin həyata keçirilməsi üçün müstəqil struktur bölmə olan İnsan Resursları Şöbəsi yaradılmış və fəaliyyətinin təşkili üçün bütün zəruri infrastruktur yaradılmışdır. |

| | | |
|---|---|---|
| 39 | Universitetdə İnsan Resursları departamentinin yaradılması vasitəsi ilə professor-müəllim heyətinin, eləcə də administrativ vəzifələrin daşıyıcılarının kvalifikasiyasının artırılması məqsədi ilə tədbirlərin planlaşdırılması, müəllimlərin özünü inkişaf planlarının həyata keçirilməsi, motivasiya və stimullaşdırıcı fəaliyyətin reallaşdırılması; | İnsan resursları mərkəzi mövcuddur, müəllimlərin ixtisasının artırması üçün daimi işlər aparılır. Bu məqsədlə həm məvacib artımı, həm mükafatlar həm də digər inzibati işlərə cəlb edilirlər. |
| 40 | Universitetdə işə qəbul prosesinin tənzimlənməsi və şəffaflığın təmin edilməsi, ehtiyat kadr bankının müəyyən edilməsi və kadrların əmək bölgüsünün aydın şəkildə müəyyən edilməsi; | Universitetdə ehtiyat kadr bankı mövcuddur. Universitetə daxil olan CV-lər yoxlanılaraq 3 kateqoriyaya bölünür: işə qəbul olanlar, ehtiyatda saxlanılanlar və uyğun olmayan kadrlar. |
| 41 | Müəllimlərin davamlı şəkildə və planlaşdırılmış formada ixtisasartırma kurslarında iştirakı və ya kvalifikasiyalarının artırılması üzrə siyasət və fəaliyyət planının reallaşdırılması; | Professor-müəllim heyətinin kvalifikasiyasını artırmaq məqsədilə müxtəlif ölkələrdən dəvət olunmuş professorlar, ixtisaslar üzrə professor-müəllim heyətinə (kreditlərin miqdarına uyğun olaraq) təlimlər keçirilir və bu proses mütəmadi xarakter daşıyır. |
| 42 | Müəllimlərin iştirak etdikləri kursların yalnız xarici dil səviyyəsini artırmaq üçün olması kifayət deyildir və eyni kadrların tələbələrlə bərabər dəfələrlə eyni kurslara göndərilməsi halları mövcuddur. Bütün müəllimlərə onların peşəkar ehtiyacları əsasında kurs və səfərlərin təşkilinin tətbiqi; | Müəllimlər üçün xarici dövlətlərin universitetlərində professorlar dəvət olunub müxtəlif illərdə bir həftə təölimlər keçmişlər. Bundan əlavə müxtəlif təlimlərdə və kurslarda iştirakları mövcuddur. |
| 43 | Müəllimlərin yaş tərkibinin proqram və ixtisaslara görə təşkili; | Professor-müəllim heyətinin yaş tərkibi<br>25-30 yaş arası- 43 nəfər<br>30-50 yaş arası – 104 nəfər<br>50-60 yaş arası- 35 nəfər<br>60 yaşdan yuxarı – 41 nəfər |
| 44 | Müəllimlərin davamlı şəkildə özünün inkişafını təmin etmək, kafedraların iş planların və motivasiya siyasətlərində, maliyyə planlamasında öz əksini tapmasının təmin edilməsi ; | Professor-müəllim heyətinin özlərinin inkişaf üçün stimul olaraq həm tədris, həm də elm sahəsində differensial maaş məsələsinin tətbiqinə başlanılıb. |
| 45 | Universitetdə ümumi elmi fəaliyyət planının olmaması kafedralarda da elmi fəaliyyətin planlı şəkildə keçirilməsinə mənfi təsir göstərmişdir. Universitetin strateji planına (təsdiq ediləcəyi halda) müvafiq elmi fəaliyyət planının hazırlanması və buna müvafiq də universitetdə mövcud olan ixtisaslar üzrə elmi fəaliyyət planlarının hazırlanması müəllimlərin və tələbələrin elmi-tədqiqat fəaliyyətlərinə müsbət təsir göstərəcəkdir; | Universitetin elmi-fəaliyyət planı, eləcə də kafedraların elmi-fəaliyyət planları mövcuddur. Ayrı-ayrılıqda əlavələri sizə göndəririk. |
| 46 | Elmi tədqiqatlar zəif həyata keçirilir. İlkin müdafiədən sonra müdafiə edən namizədlərin faiz nisbəti aşağıdır. Universitetdə çalışan müəllim heyətinin əksəriyyətinin universitetə ikinci iş yeri kimi baxdıqları təəssüratı yaranır ki, (tədris –təlim prosesinə qatqısı azdır) bu da elmi fəaliyyətlərin istənilən səviyyəyə qalxmasına əngəl yaradır. Universitetə gənc və perspektivli müəllimlərin cəlb edilməsi, eləcə də daha yüksək nəticələr göstərmiş professorların dəvət olunması Univer-sitetdə elmi tədqiqatın səviyyəsini qaldıracaqdır; | Universitetdə fəaliyyət göstərən doktorantura şöbəsində təhsil alan tədqiqatçıların müdafiələrinin təşkili üçün disertasiya şuralarının yaradılması istiqamətində işlər aparılır. Gənc və perspektiv doktorantlar tədris prosesinə cəlb edilir. |
| 47 | Ümumilikdə Universitetdə fəlsəfə doktorluğu üzrə təhsil alanlar 35, fəlsəfə doktorluğu üzrə dissertantların sayı isə 26 nəfərdir. Qeyd olunmalıdır ki, elmi dissertasiya işlərinin müdafiəsi və elmi dərəcəsinin alınması Universitetdə çox zəif gedir və son beş il ərzində | Universitetdə fəlsəfə doktorluğu üzrə təhsil alanların 7 nəfəri artıq namizədlik dissertasiyalarını müdafiə etmişdir və bu istiqamətdə işlər davam etdirilir. |

| | | |
|---|---|---|
| | yalnız 1 nəfər fəlsəfə doktorluğunu müdafiə etmişdir. Universitetdə gənc tədqiqatçılara hər tərəfli şəraitin yaradılması elmi-tədqiqat istiqamətinə öz töhfələrini verəcəkdir; | |
| 48 | Beynəlxalq mübadilə proqramlarında (məs. Erasmus+) iştirak etməklə yanaşı Universitetin ikitərəfli qaydada digər universitetlərlə mübadilə proqramları, eləcə də ikili diplom layihələrinin həyata keçirilməsi; | Qərbi Kaspi Universitetində bu istiqamətdə mütəmadi və aktiv şəkildə işlər aparır. Hər tədris ilində universitetimiz, beynəlxalq mübadilə proqramlarını çərçivəsində əməkdaşlıq etdiyimiz universitetlər ilə tələbə-müəllim mübadiləsini həyata keçirir. Həm biz tərəfdən, həmdə də əməkdaşlıq etdiyimiz universitetlər tərəfindən müəyyən edilmiş müddət ərzində tələbə-müəllimlər mübadilə proqramlarında iştirak edirlər. Universitetimiz hal-hazırda, Almaniyanın Schmalkalden Tətbiqi Elmlər Universiteti, İspaniyanın Kastello İncəsənət və Dizayn Məktəbi, İtaliyanın Brasov Transilvaniya Universiteti, Polşanın Nikolay Kopernik Universiteti, Yunanıstanın Panteion Universiteti, Kiprin Frederik Universiteti, Türkiyənin İstanbul Kültür ilə mübadilə həyata keçirir. Beynəlxalq mübadilə proqramlarında yanaşı , universitetlərlə mübadilə proqramları həyata keçirilir. Universitetimiz tələbələrimiz üçün mübadilə proqramlarında əlavə, ikili diplom layihəsi həyata keçirir. Hal-hazırda İsveçrənin Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti ilə bu sahədə aktiv əməkdaşlığımız davam edir. Gələcəkdə ikili diplom layihələrinin artırılması planlaşdırılır. |
| 49 | Xarici universitetlərdə təhsil almaq imkanı əldə etmiş tələbələrin qazanacaqları kreditlərinin hesablanması qaydalarının müəyyən edilməsi və əlçatanlığı; | Xarici universitetlər ilə bağlanılmış ikitərəfli və üçtərəfli əməkdaşlıq müqavilələrinə əsasən xarici universitdə təhsil almış tələbələrin qazandıqları kreditlər Universitet tərəfindən tanınır. |
| 50 | Professor-müəllim heyətinin beynəlxalq treninq, konfrans və simpoziumlarda iştirakının təmin edilməsi; | Professor müəllim heyəti həm yerli, həm də beynəlxalq treninq və konfranslarda daimi məruzələrlə çıxış edir, bununla yanaşı unuversitetimiz belə treninq və konfranslara ev sahibliyi edir. |
| 51 | Xarici tərəfdaşlarla birlikdə vahid tədqiqat layihələrinin işlənməsi, əmək bazarı, eləcə də istehsalatla əlaqələndirilməsi; | Universitetin “Ekologia və ətraf mühitin mühafizəsi” və “Təbiət elmləri” kafedraları vahid birgə layihələr əsasında xarici portnyorlarla elmi tədqiqat layihələrində iştirak edirlər. |
| 52 | Professor-müəllim heyətinin elmi tədqiqat işlərinin beynəlxalq nüfuzlu jurnallarda çapının maliyyələşdirilməsi və stimullaşdırılması; | SKOPUS və WOS beynəlxalq jurnallarda 70-dən çox çap edilmiş məqalə mövcuddur və bu sahədə motivasiya olaraq hər bir məqalə üçün diferensial ödəniş həyata keçirilir. |
| 53 | Tələbələrin beynəlxaq mübadilə proqramları və eləcə də ikitərəfli müqavilələr əsasında xarici universitetlərdə təhsilinin təşkili və təşviqinin təmin edilməsi; | Qərbi Kaspi Universitetində bu istiqamətdə mütəmadi və aktiv şəkildə işlər aparır. Hər tədris ilində universitet əməkdaşlıq etdiyi universitetlər ilə tələbələrin mübadiləsini həyata keçirir. Əməkdaşlıq etdiyimiz universitetlər tərəfindən tələbələr müəyyən edilmiş müddət ərzində mübadilə proqramlarında iştirak edirlər. 2017-2018-ci tədris ilində 3 magistr tələbəmiz, 2018-2019-cu tədris ilində isə 5 bakalavr tələbəmiz Erasmus + proqramı çərcəvəsində 1 semestr ərzində təhsillərini Çexiyanın Mendel Universitetində davam etdiriblər. 2018-2019-ci tədris ilində 1 magist tələbəmiz Movlanə proqramı çərcəvəsində 1 semestr ərzində təhsilini Türkiyənin Akdeniz Universitetində davam etdirib.<br>2019-2020-ci tədris ilində 3 bakalavr tələbəmiz Erasmus+ proqramı çərcəvəsində 1 semestr ərzində təhsillərini Kiprin Frederik Universitetində, 2 bakalavr tələbəmiz İspaniyanın Castello İncəsənət və Dizayn Məktəbində davam etdiriblər. 2021-2022-ci tədris ilində 2 bakalavr tələbəmiz Erasmus+ proqramı çərçivəsində 1 semestr ərzində təhsillərini Yunanıstanın Panteion Sosial və Siyasi Elmlər Universitetində, 2 bakalavr tələbəmiz Schmalkalden Tətbiqi Elmlər Universitetində, 2 bakalavr |

| | | |
|---|---|---|
| | | tələbəmiz<br>İspaniyanın Castello İncəsənət və Dizayn Məktəbində, 1 bakalavr tələbəmiz Turkiyənin İstanbul Kültür Universitetində davam etdiriblər. |
| 54 | Xarici tələbələrin cəlb edilməsi məqsədi ilə yataqxana təminatının təmin edilməsi; | Universitetə xarici tələbə və tədqiqatçıların, eləcə də Azərbaycanın regionlarından olan potensial tələbələrin marağını artırmaq üçün yataqxana təminatı nəzərdə tutulmuş və bunun üçün müvafiq addımlar atılmaqdadır. |
| 55 | Universitetin həm beynəlxalq əlaqələrinin inkişaf etdirilməsi, həm də təbliğat-təşviqat işində beynəl-xalq şöbə də aktiv rol oynamalı və İctimaiyyətlə əlaqələr şöbəsi ilə birgə fəaliyyət planı hazırlayıb rəhbərliyin təsdiqindən sonra həm ölkə daxilində, həm də ölkə xaricində icra etməyə çalışmalıdır. | Universitetin beynəlxalq əlaqələr şöbəsi çoxsaylı xarici unuversitetlərlə tələbə mübadiləsi aparır, beynəlxalq birgə təlimlər keçirir, xarici tələbələrin qəbulu üçün İctimaiyyətlə əlaqələr şöbəsi ilə birgə iş apararaq həm ölkə daxilində, həm də ölkə xaricində müxtəlif saytlarda daimi təbliğat-təşviqat işləri görürlər. |
| 56 | Bütün auditoriyaların müasir texniki avadanlıqlarla təmin edilməsi; | Bütün auditoriyaları müasir texniki avadanlıqlarla təchiz edilmişdir. Auditoriyalar kompüter (noutbuk), ağıllı lövhə və projektorlar ilə təmin edilmişdir. |
| 57 | Universitetdə müvafiq ixtisaslar üzrə tədris laboratoriyalarının yaradılması və tədris prosesinə uyğunlaşdırılması; | Universitetdə müvafiq ixtisaslar üzrə laboratoriyalar və tədris mərkəzləri yaradılmışdır.Texnopark, Kimya və ətraf mühitinin monitorinqi laboratoriyası, Genetika, molekulyar biologiya və biotexnologiya laboratoriyası, Botanika kabineti, İnsan və heyvan anatomiyası və fiziologiyası kabineti, Geomatika laboratoriyası, Ekologiya kabineti,Fizika laboratoriyası, Art studiya otaqları, Kompyuter kabinetləri, Rəqəmsallaşdırma laboratoriyası. |
| 58 | Tələbələrin startap layihələrinin formalaşması üçün mərkəzlərin yaradılması və layihələrə maddi dəstəyin ayrılması; | Universitetimizdə hardware startap layihələrin dəstəklənməsi, prototiplərin hazırlanması, tələbələr arasında sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi yönündə 2017-ci ildə Yüksək Texnologiyalar mərkəzi (Texnopark), 2022-ci ildə isə software startap layihələrin dəstəklənməsi üçün Western Valley mərkəzi qurulmuşdur.<br>Mərkəzimizdə 3D printerlər, torna dəzgahları, elektrod, arqon və yarımavtomat qaynaq aparatı, müxtəlif işlər üçün elektrikli əl alətləri və s. tələbələrin layihələrin hazırlanması üçün tələbələrin ixtiyarına verilmişdir. Həmçinin software startaplarda kodlaşdırma və 3D modelləmə işlərini rahatlıqla həll edəcəkləri kompüterlərlə təchiz olunmuşdur. |
| 59 | Müəllimlərin tədqiqat layihələrinin və layihələr əsasında laboratoriyalarının formalaşdırılmasına dəstəyin verilməsi; | Təbiət elmləri kafedrasının müəllimləri tədqiqat işləri layihələrinin laboratoriyalarda formalaşmasına yönəldilmişdir və kafedranın elmi-tədqiqat plan üzrə həyata keçirilir. (Genetika və molekulyar biologiya laboratoriyası) |
| 60 | Laboratoriyaların elmi tədqiqat prosesinin tərkib hissəsinə çevrilməsi və sənaye (istehsalat) ilə sıx əlaqəli fəaliyyət göstərməsi; | Universitetin laboratoriyaları tədris, fundamental elmi tədqiqatlar istiqamətində fəliyyət göstərir. Bununla belə, tədqiqat işlərimizin sənaye-istehsalat ilə əlaqələnməsi, həyata keçirilməsi növbəti illərdə kafedranın "Fəaliyyət Planı" na daxil edilmişdir. |
| 61 | Universitetə xarici tələbə və tədqiqatçıların, eləcə də Azərbaycanın regionlarından olan potensial tələbələrin marağını artırmaq məqsədi ilə yataqxana təminatının yerinə yetirilməsi; | Universitetə xarici tələbə və tədqiqatçıların, eləcə də Azərbaycanın regionlarından olan potensial tələbələrin marağını artırmaq üçün yataqxana təminatı nəzərdə tutulmuş və bunun üçün müvafiq addımlar atılmaqdadır. |
| 62 | Tələbələrin sağlamlıq durumunun izlənilməsi, eləcə də lazım olduğu anda operativ müdaxilə etmək məqsədi ilə Universitetin şəxsi tibb məntəqəsinin formalaşdırılması; | Akkreditasiyadan sonrakı dövrdə Universitetin yeni korpusunda tibb məntəqəsi yaradılmışdır. Məntəqə mütəmadi olaraq bütün lazımi ləvazimatlarla təmin edilməkdədir. |
| 63 | Universitetin iaşə xidməti daha çox ictimaiyyətə xidmət göstərən iaşə obyektini xatırladır, tələbələrə xüsusi güzəştlər hiss olunmur; | Universitetin bütün korpuslarında yeməkxana fəaliyyət göstərir və həmin yeməkxanalarda tələbələrə xüsusi güzəştlər tətbiq edilir. |

| | | |
|---|---|---|
| **64** | Ali təhsil müəssisəsində əlavə gəlir əldə etmək üçün sahibkarlıq fəaliyyətinin təşkil edilməsi; | Əlavə gəlirin əldə olunması üçün Universitet tərəfindən turizmlə məşğul olan "Golden Rock Travel" MMC və idman sahəsində fəaliyyət güstərən "Qərb Universiteti İdman Klubu" MMC təsis edilmişdir və hal-hazırda da bu hüquqi şəxslər fəaliyyət göstərməkdədirlər. |
| **65** | 2011-2015-ci illər üzrə gəlir və xərclər üzrə smeta tərtib və təsdiq olunmamışdır. Ümumi daxil olmaya əsasən xərc aparılmışdır. Növbəti ilə gəlir və xərclər barədə smetanın tərtib olunması; | Hər il dekabrın 20-nə qədər növbəti təqdim ili üçün Universitetin gəlir və xərclər smetası Universitetin rəhbərliyi tərəfindən təsdiq edilir. Gəlir və xərclər smetasının icrasına nəzarəti İcraçı Prorektor həyata keçirir və hər il Universitet müstəqil auditor cəlb etməklə maliyyə fəaliyyətininin auditini həyata keçirir. |
| **66** | Universitetdə professor-müəllim və digər heyətə ştat cədvəli say etibarı ilə tərtib olunmuşdur. Mövcud qaydaya əsasən ştat cədvəli tərtib olunarkən ştatda olan işçilərin sayı, aylıq əmək haqqı fondu göstərilməli olduğu halda bu qaydaya əməl olunmamışdır. Mühasibatlıq tərəfindən tərtib olunmuş və rəhbərlik tərəfindən təsdiq olunmuş ştat cədvəllərinin tərtibi və tətbiqi; | Universitetin müvafiq struktur bölmələrinin kadr ehtiyacına uyğun olaraq hər il ştat cədvəli tərtib edilir və ştat cədvəli üzrə əmək haqqı fondu müəyyən edilir. Ştat cədvəli insan resursları və mühasibatlıq şöbələri tərəfindən birlikdə hazırlanır və təsdiq üçün universitet rəhbərliyinə təqdim edilir. |
| **67** | 2015-ci ildə universitetə 5,7 min manat məbləğində qrant ayrılmışdır, lakin sənədlər komissiyaya təqdim olunmadığı üçün baxılması mümkün olmamışdır. Bununla əlaqədar olaraq tövsiyə olunur ki, qrant layihələrinin uçotu da mühasibatlıq sənədləşdirilməsinə uyğun təşkil edilsin; | Universitetdə qrant layihələri ilə bağlı mühasibatlıqda uçotun aparılması həyata keçirilir. |
| **68** | Mühasibat uçotu subyektlərinin bütün aktivlərinin və öhdəliklərinin onların olduğu yerdən asılı olmayaraq hər il 01 noyabr tarixə inventarlaşdırılması aparılmalı olduğu halda Qərb Universitetində 2011-2015-ci illərdə inventarlaşdırma aparılmamışdır. Gələcək illərdə bu nöqsan aradan qaldırılsın; | Aktivlərin və öhdəliklərin inventarlaşdırılması 2018,2019,2022 və 2023 –cü illərdə Universitet tərəfindən həyata keçirilmişdir. 2020 və 2021 –ci illər Covid-19 pandemiya səbəbindən inventarlaşma aparılması mümkün olmamışdır. |
| **69** | Eyni zamanda 2011-2015-ci illərdə fiziki cəhətdən köhnəlmiş, xarab olunmuş, yararsız vəziyyətə düşmüş və ömür müddəti başa çatan sair aktivlərin balansından silinməsi aparılmamışdır. Növbəti illərdə bu nöqsan aradan qaldırılsın və istifadə müddəti başa çatmış aktivlərin balansdan silinməsi təmin edilsin; | Universitetin köhnəlmiş aktivləri təmir edilərək yenidən işlək vəziyyətə qaytarılır və təkrar istfadəyə verilir. Qeyd olunan dövr ərzində istifadəsi başa çatmış aktivlər olmayıb. |
| **70** | Universitetin mühasibatlığında mühasibat uçotu milli mühasibat uçotu standartlarına uyğun aparılmır və bu çatışmazlığın tezliklə aradan qaldırılması; | Universitet mühasibat uçotunu milli mühasibat uçotu standartlarına uyğun aparır və bunun üçün 1C proqram təminatından istifadə edilir. Qanunvericiliyə uyğun olaraq Universitetdə bütün hesablaşmalar nağdsız şəkildə həyata keçirilməkdədir. |

### 4. Özünütəhlil qiymətləndirməsinin icmalı

Qərbi Kaspi Universiteti Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə təlimat kitabçasının təsdiq edilməsi barədə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) F-181 nömrəli 14.11.2022-ci il tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir.

Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil müəssisəsinin özünütəhlili 14 sentyabr 2023-cü il tarixli 57/1/ü əmri ilə təsdiqlənmiş Təşkilat Komissiyası tərəfindən aparılmışdır. Təşkilat Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

## 1. STRATEJİ İNKİŞAF

### *1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

#### *1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti*

Qərbi Kaspi Universitetinin 2018-2020-ci illəri əhatə edən qısamüddətli Strateji İnkişaf Planı Universitetin Elmi Şurasının 27 dekabr 2017 – ci il tarixli (Protokol №3) iclasının qərarı ilə təsdiq edilmişdir. 2018-2020-ci illər üzrə qısamüddətlii Strateji İnkişaf Planı “Azərbaycan Respublikası Təhsil Nazirliyinin yanında Akkreditasiya və Nostrifikasiya İdarəsinin 12 aprel 2017- ci il tarixli 10 sayılı əmrinə əsasən Qərb Universitetinin akkreditasiyasını həyata keçirmək məqsədi ilə yaradılmış kommisiyanın akkreditasiya nəticələri haqqında yekun arayış” ında qeyd edilən irad və tövsiyələr əsasında tərtib edilmişdir və bu tövsiyələrin aradan qaldırılmasını özündə ehtiva edir.

Qərbi Kaspi Univeristetinin 2021-2025 – ci illər üzrə ortamüddətli Starteji İnkişaf Planı Universitetin Elmi Şurasının 2020-ci il 25 dekabr tarixli iclasının (Protokol № 05) qərarıına əsasən təsdiq olunmuşdur. https://wcu.edu.az/uploads/files/strategy.pdf

Bu sənəd Qərbi Kaspi Universitetinin 2021-2025-ci illər üzrə İnkişaf strategiyasını əhatə edir. 2021-2025–ci illər üzrə SİP hazırlanması zamanı ali təhsilin idarə olunması üzrə beynəlxalq təcrübədən, “2019- 2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”ndan, o cümlədən dövlət və özəl müəssisələrdə tələbə və müəllimlər arasında keçirilmiş sorğu nəticələrindən istifadə olunmuşdur.

#### *1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu*

Qərbi Kaspi Universitetinin 2021-2025-ci illər üzrə Strateji İnkişaf Planında müəyyən edilmiş missiyası – qlobal çağırışlara, müasir, innovativ, təhsil və tədris infrastrukturuna malik olmaqla, humanitar, sosial, mühəndislik sahələri üzrə təhsil və tədqiqatlar yolu ilə yüksəkixtisaslı mütəxəssislər hazırlamaq və bununla aşağıda qeyd olunanların daimi inkişafına nail olmağı hədəfləməkdir:

Universitetin Strateji İnkişaf Planında müəyyən edilmiş missiyası bu missiyaya əsaslanan 8 məqsəd və bu məqsədlərdən doğan 26 hədəfə uyğun müəyyən edilmişdir. Universitetin missiyası, məqsəd və hədəflərini özündə əks etdirən aşağıdakı cədvəldən bu uyğunluğu müşahidə etmək mümkündür:

| Missiya | Məqsəd | Hədəf |
|---|---|---|
| **Qlobal çağırışlara, müasir, innovativ, təhsil və tədris infrastrukturuna malik olmaqla, humanitar, sosial, mühəndislik sahələri üzrə təhsil və tədqiqatlar yolu ilə yüksəkixtisaslı mütəxəssislər hazırlamaq və bununla aşağıda qeyd olunanların daimi inkişafına nail olmağı hədəfləməkdir:**<br>**• - Məzunların iş tapmaq imkanlarını artırmaq;**<br>**• - Xarici dil bacarığını formalaşdırmaq və ya təkmilləşdirmək; (Əgər mövcud deyilsə, bu şəkildə, əgər mövcuddursa sadəcə təkmilləşdirmək)**<br>**• - Sahibkarlıq bacarıqlarını artırmaq;**<br>**• - Şəxsi və peşəkar sahədə yüksək standartlara nail olmaq üçün tam təminatlı iş qabiliyyətinə malik kadrlar yetişdirmək;**<br>**• - Analitik təhlil bacarığını formalaşdırmaq və ya təkmilləşdirmək;**<br>**• - Elmi tədqiqatlara həvəsləndirici və təkanverici qüvvə olmaq**<br>**• Tənqidi və həll istiqamətli düşüncə tərzi yaratmaq və ya formalaşdırmaq**<br>**• - Dünya trendlərindən geri qalmamaqla mütərəqqi olmağa çalışmaq – Dünya trendlərinə uyğunlaşmaqla qabaqcıl olmaq**<br>**• - Yüksək akademik yazı qabiliyyəti (bu, kadrların akademik yazı qabiliyyətinin olmadığı kimi anlaşıla bilər. Mümkündürsə, çıxarılsın, deyilsə „akademik yazı qabiliyyətinin daim təkmilləşdirmək“ şəklində əvəz etmək olar)**<br>**• Azərbaycan Respublikasının maraqlarını təmin edəcək mütəxəssislər yetişdirməklə onun iqtisadi, sosial və siyasi inkişafına dəstək olmaq**<br>**• - Təhsilalanlarda ixtisasın tələbinə müvafiq bilik və bacarıqları formalaşdırmaq**<br>**• - Empirik təhlil bacarığını formalaşdırmaq və inkişaf etdirmək**<br>**• - Bütün universitet üzrə müəllim-mentor və tələbə-mentor institutlarının formalaşdırılmasına nail olmaq**<br>**• - İKT-dən istifadə bacarığını təkmilləşdirmək**<br>**• - Liderlik və komandada işləmə bacarığını təkmilləşdirmək**<br>**• - Subbakalavr və bakalavr pilləsinə qəbul olan tələbələrin universitetə uyğunlaşdırılmasına dəstək naminə “orientasiya günləri”nin effektivliyinin artırılması məqsədilə müvafiq fənn müəyyən etmək və qısamüddətli tədrisini təşkil etmək** | **Məqsəd 1.** Tədrisin keyfiyyətinin yüksəldilməsi | **Hədəf 1.** Yüksək rəqabətqabiliyyətli təhsilin (dərəcələrin) təmin olunması<br>**Hədəf 2.** Kadr hazırlığı sisteminin və tədris proqramlarının təkmilləşdirilməsi<br>**Hədəf 3.** İxtisasların təhlili və cəlbediciliyin təmini |
| | **Məqsəd 2.** Tələbə yönümlü inkişaf | **Hədəf 1.** Tələbələrlə işin təşkili<br>**Hədəf 2.** Təcrübələrin təşkili<br>**Hədəf 3.** Əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanması<br>**Hədəf 4.** Effektiv karyera sisteminin yaradılması |
| | **Məqsəd 3.** Tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması | **Hədəf 1.** Tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması<br>**Hədəf 2.** 2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması və “Tədqiqat universiteti” statusunun alınması<br>**Hədəf 3.** 2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması, yüksək səviyyəli və təsirli tədqiqatların həyata keçirilməsi<br>**Hədəf 4.** 2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırıması və elmi-pedaqoji kadr hazırlığının təkmilləşdirilməsi<br>**Hədəf 5.** 2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması və beynəlxalq indeksli jurnalların tələblərinə uyğunlaşmaq |
| | **Məqsəd 4.** Beynəlxalq rəqabətliliyin artırılması | **Hədəf 1.** Reytinq üzrə işlərin icrası<br>**Hədəf 2.** Beynəlxalq əlaqələrin genişləndirilməsi<br>**Hədəf 3.** Beynəlxalq mübadilə proqramlarında iştirak |
| | **Məqsəd 5.** Rəqəmsallaşma və innovativ həllərin tətbiqi | **Hədəf 1.** Elektron idarəetmə sisteminin qurulması və təhsil mühitinin rəqəmsallaşdırılması<br>**Hədəf 2.** İmtahanların təşkili və monitorinqi<br>**Hədəf 3.** : İnformasiya resurslarının idarə edilməsi |
| | **Məqsəd 6.** İş mühiti və əmək şəraitinin yaxşılaşdırılması | **Hədəf 1.** İdarəetmənin təkmilləşdirilməsi<br>**Hədəf 2.**<br>Kadr, təlim və inkişaf siyasətinin müəyyən olunması<br>**Hədəf 3.**<br>Təhlükəsiz iş mühitinin formalaşdırılması<br>**Hədəf 4**. Həyat üçün qiymətləndirmə və motivasiya |
| | **Məqsəd 7.** İnfrastrukturun gücləndirilməsi və dayanıqlılığın təmin edilməsi | **Hədəf 1**. Maddi-texniki bazanın möhkəmləndirilməsi<br>**Hədəf 2.** Maliyyələşmənin diversifikasiyası və maliyyə dayanıqlığının təmin edilməsi |
| | **Məqsəd 8.** Sosial məsuliyyət hissinin və ictimai nüfuzun artırılması | **Hədəf 1.** Sosial məsuliyyət hissinin artırılması<br>**Hədəf 2**. Təhsilin gənclər arasında təbliği və ictimaiyyətlə əlaqələr sahəsində fəaliyyətin təkmilləşdirilməsi |

### *1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu*

Universitetin 2021-2025-ci illər üzrə Strateji İnkişaf Planında strateji baxış - Regionda əmək bazarının tələblərinə cavab verən ən müasir və keyfiyyətli təhsilin və tədqiqatın mövcud olduğu universitet olmaq – kimi müəyyənləşdirilmişdir. SİP-nin Azərbaycan Respublikasının əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunlaşdırılması məqsədilə “Əmək Bazarının Araşdırılması” (Rəqəmsal İnkişaf və Nəqliyyat Agentliyi, Embawood MMC, ATF Şirkətlər qrupu MMC, ABB, Sumqayıt Texnologiyaları parkı MMC, Performance Center CO) üzrə sorğu, “Tədris və Elmi Tədqiqat” üzrə sorğu, “Tələbələrin Məmnuniyyət Sorğusu”, “Distant Təhsil” sorğuları aparılmış və SİP-in hazırlanması bu sorğuların nəticələri nəzərə alınmaqla həyata keçirilmişdir. Bununla yanaşı, SİP-in 1-ci məqsədinin (Tədrisin keyfiyyətinin yüksəldilməsi) 2-ci (Kadr hazırlığı sisteminin və tədris proqramlarının təkmilləşdirilməsi), 3-cü (İxtisasların təhlili və

cəlbediciliyin təmini) hədəflərində, 2-ci məqsədinin (Tələbə yönümlü inkişaf) 3-cü hədəfində (Əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanması) strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu məsələləri öz əksini tapmışdır https://wcu.edu.az/uploads/files/strategy.pdf

### 1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

Qərbi Kaspi Univeristetinin 2021-2025-ci illər üzrə Strateji İnkişaf Planında Universitetin prioritetləri müəyyənləşdirilmiş və bu prioritetlərin onun məqsəd və hədəflərinə uyğunluğu gözlənilmişdir. QKU-nun 2021-2025-ci illər üzrə SİP-də məzunlara münasibət, dil bacarıqları, sahibkarlıq bacarıqları, şəxsi və peşəkar sahədə peşəkar kadr hazırlığı, analitik və empirik təhlil bacarığı, elmi tədqiqatlara həvəsləndirmə və təkanvermə, tənqidi və həll istiqamətli düşünmə, mütərəqqilik, akademik bacarıqlara yiyələnmə, respublikanın maraqlarını təmin edəcək mütəxəssislər yetişdirməklə Azərbaycanın iqtisadi, sosial və siyasi inkişafını dəstəkləmə, müəllim-mentor və tələbə-mentor institutları formalaşdırma, İKT-dən istifadə bacarığı, liderlik, rəqəmsallaşma və innovativ həllərin tətbiqi, beynəlxalq rəqabətliliyin artırılması və s. kimi prioritetlər öz əksini tapmışdır. Bu prioritetlərə uyğun olaraq Strateji İnkişaf Planında tədrisin keyfiyyətinin yüksəldilməsi; tələbə yönümlü inkişaf; tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması; beynəlxalq rəqabətliliyin artırılması, rəqəmsallaşma və innovativ həllərin tətbiqi; İş mühiti və əmək şəraitinin yaxşılaşdırılması; infrastrukturun gücləndirilməsi və dayanıqlılığın təmin edilməsi; sosial məsuliyyət hissinin və ictimai nüfuzun artırılması kimi məqsəd və bu məqsədlər əsasında hədəflər müəyyənləşdirilmişdir. Ümumilikdə, SİP müəyyən edilən priorotetlər üzrə 8 məqsəd, 26 strateji hədəf və onlara müvafiq olaraq strateji fəaliyyətlərdən ibarətdir. Bundan başqa, univeristetin 2021-2025-ci illər üzrə SİP-də prioritet istiqamətlərin müəyyənləşdirilməsində universitetin Nizamnaməsində qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluq nəzərə alınmışdır

Digər tərəfdən QKU-nun əsas məqsədi ölkə daxilində və xaricində rəqabət qabiliyyətli, əmək bazarında təhsili, biliyi, bacarığı, problemləri görmək və həll etmək qabiliyyəti hesabına özünü işlə təmin edəcək, hətta iş yerləri yaratmaq imkanına sahib ola biləcək peşəkarlar hazırlamaqdır (https://wcu.edu.az/az/page/haqqimizda). Bu, QKU-nun SİP-də qarşıya qoyduğu məqsəd və hədəflərlə uyğunluq təşkil edir.

### 1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

Qərbi Kaspi Universiteti 2021-2025-ci illər üzrə Strateji İnkişaf planında regionda əmək bazarının tələblərinə cavab verən ən müasir və keyfiyyətli təhsilin və tədqiqatın mövcud olduğu universitet olmağı strateji baxışın əsas tərkib hissəsi hesab etmiş, ölkənin davamlı inkişafı naminə elmi yenilikləri və innovasiyaları tədris prosesinə tətbiq etmək, müasir və keyfiyyətli tədris mərkəzi formalaşdırmaq məqsədi ilə tədrisin keyfiyyətinin yüksəldilməsi; tələbəyönümlü inkişaf; tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması; beynəlxalq rəqabətliliyin artırılması, rəqəmsallaşma və innovativ həllərin tətbiqi; iş mühiti və əmək şəraitinin yaxşılaşdırılması; İnfrastrukturun gücləndirilməsi və dayanıqlılığın təmin edilməsi; sosial məsuliyyət hissinin və ictimai nüfuzun artırılması məqsədlərini və buna uyğun olaraq qarşısına hədəflər və strateji fəaliyyətlər qoymuşdur. Bunlara nail olunması üçün 8 məqsəd və 26 hədəf müəyyənləşdirilmişdir (https://wcu.edu.az/uploads/files/strategiya.pdf).

### 1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması

Qərbi  Kaspi Universitetinin Elmi Şurasının 25 dekabr 2020-ci il tarixli QKU-nun 2021-2025-ci illəri əhatə edən Strateji İnkişaf Planı əsasında Fəaliyyət Planı hazırlanmış və təsdiq edilmişdir. https://wcu.edu.az/uploads/files/action_plan.pdf

Fəaliyyət Planında qısa və ortamüddətli olmaqla görüləcək işlər üzrə struktur bölmələr müəyyənləşdirilmişdir və görüləcək işlər aidiyyəti bölmələrə paylanılmışdır. Fəaliyyət planının strukturu özündə aşağıdakılara dair məlumatları əhatə edir:

- SİP-də qarşıya qoyulan məqsəd;
- SİP-də məqsədə müvafiq hədəf;
- İcra müddəti (aylar üzrə göstərilməklə);
- İcraçılar;
- Məqsədə nail olmaq üçün görüləcək tədbirlər;
- Tədbirləri icra etmək üçün tələb edilən resurslar (maliyyə, infrastruktur).

### *1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi*

2021-2025-ci illər üzrə Strateji İnkişaf Planınına əasasən fəaliyyət nəticələrinin qiymətləndirilməsinə imkan verən kəmiyyət və keyfiyyət göstəriciləri hər bir istiqamət və hədəf üçün müəyyən edilmiş və açıq şəkildə göstərilmişdir. Kəmiyyət və keyfiyyət göstəricilərinin həyata keçirilməsinə bu yanaşma  SİP fəaliyyətləri üzərində maraqlı tərəflər tərəfindən nəzarəti asanlaşdırmaqla yanaşı, həm də universitetdaxili monitorinqin aparılması və özünütəhlil vasitəsilə bu göstəricilərin təkmilləşdirilməsi üçün zəmin yaradır. Bunu SİP-dən nümunələrlə əsaslandırmaq lazımdır. Məsələn, Məqsəd 1-də universitetin ISO 9001 standartının tətbiqinə nail olması hədəflənir. Aydındır ki, bu keyfiyyət göstəricisidir.

### *1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti*

2021-2025-ci illər üzrə SİP- da qarşıya qoyulan məqsəd, hədəf və fəaliyyətləri həyata keçirmək məqsədi ilə Qərbi Kaspi Universiteti mütəmadi olaraq insan, maliyyə və infrastruktur resursları ayırır.

Belə ki, Strarteji İnkişaf Planına icrasına nəzarətin təmin edilməsi üçün Stratreji İnkişaf Mərkəzi yaradılmışdır. Universitetin təhsil və tədqiqat, elmi və pedaqoji istiqamətlərdə inkişafını təmin etmək, müasir təhsil sisteminə uyğun professor-müəllim və işçi heyəti formalaşdırmaq üçün mütəmadi olaraq aparılan araşdırmalar, beynəlxalq aspektdə təcrübə-mübadilə proqramları universitet əməkdaşlarının peşə bacarıqlarının təkminləşdirilməsinə istiqamətləndirilmişdir. Universitetin əsas maliyyə gəlirlərinin  1) dövlət sifarişli tələbələr üçün dövlətin ödədiyi təhsil haqqları; 2) ödənişli əsaslarla təhsil alan tələbələrin ödədiyi təhsil haqqları; 3) qanunla nəzərdə tutulmuş digər gəlirlər; olmasına baxmayaraq, məqsəd və hədəfləri icra etmək məqsədi ilə mütəmadi olaraq uyğun biznes portfelinin yaradılmasına, biznes proseslərin avtomatlaşdırılmasına, yerli və beynəlxalq şirkətlərlə əməkdaşlığın artırılmasına çalışılır.

Maddi-texniki bazası, rəqəmsal infrastrukturunun və köməkçi resurslarının müasirləşdirilməsinə investisiya qoyuluşunu təmin etmək,  ərazisində mövcud olan müxtəlif sosial əhəmiyyətli infrastrukturların təkminləşdirilməsi, həmçinin bu istiqamətdə əlaqələrin genişləndirilməsi imkanları universitetin qarşında duran hədəflər sırasındadır.

Müasir tələblərə cavab verən mühit formalaşdırmağı hədəfləyən universitet infrastrukturun yaxşılaşdırılması, dərs otaqları, idman zalları, tələbələrin asudə vaxtlarının səmərəli istifadəsi üçün əlavə məkanların innovativ vasitələrlə yenilənməsi üçün maddi-texniki imkanları artırır və bu istiqamətdə fəaliyyət göstərir. Bununla yanaşı, 1.1.6 indikatorunda qeyd olunduğu kimi fəaliyyət planının icrasında tədbirlərin aparılması üçün maliyyə və infrastruktur resurslarının ayrılması, icraçılar qismində strukturlar üzrə məsul şəxsləri müəyyənləşdirməklə insan resursunun ayrılması

məsələləri öz əksini tapır.

### *1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti*

QKU-nun büdcə planlaşmasında Strateji İnkişaf Planının maliyyə təminatı üzrə tədrisin keyfiyyətinin yüksəldilməsi, tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması, rəqəmsallaşma və innovativ həllərin tətbiqi, iş mühiti və əmək şəraitinin yaxşılaşdırılması, beynəlxalq rəqabətliliyin artırılması, tələbəyönümlü inkişaf, sosial məsuliyyət hissinin və ictimai nüfuzun artırılması üzrə görüləcək işlər üçün maliyyə vəsaitləri nəzərə alınır. Bu haqda müvafiq məlumatlar həmçinin, Özünütəhlil Hesabatının uyğun bölmələrində (Maliyyə resusrlarının idarə edilməsi; İndikator 5.3.3) öz əksini tapmışdır.

### *1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti*

2021-2025-ci illəri əhatə edən Strateji İnkişaf planının missiya bölməsində qlobal çağırışlara, müasir, innovativ, təhsil və tədris infrastrukturuna malik olmaqla, humanitar, sosial, mühəndislik sahələri üzrə təhsil və tədqiqatlar yolu ilə yüksək ixtisaslı mütəxəssislər hazırlamağı və beləliklə də analitik və empirik təhlili bacarığı, tənqidi və həll istiqamətli düşüncə tərzi, sahibkarlıq bacarıqlarını artırmaq, müasir dövrdə Respublikanın maraqlarını təmin edə biləcək mütəxəssislər yetişdirməklə Azərbaycanın iqtisadi, sosial və siyasi inkişafına dəstək olmaq daimi inkişafına nail olmağı hədəfləmək kimi müddəalar öz əksini tapır.

2021-2025 – ci illəri əhatə edən Strateji İnkişaf Planının Məqsədlər bölməsində (Məqsəd 3; 4; 6; 8) tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması; iş mühiti və əmək şəraitinin yaxşılaşdırılması; sosial məsuliyyət hissinin və ictimai nüfuzun artırılması kimi məsələlər öz əksini tapır və bu məqsədlərə müvafiq olaraq SİP – də hədəflər müəyyənləşdirilmişdir.

### *1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması*

Qərbi Kaspi Universitetinin 2021-2025 – ci illər üzrə Strateji İnkişaf Planı hazırlanarkən univeristetin 2018-2020-ci illəri əhatə edən Starteji İnkişaf Planının icra vəziyyəti nəzərə alınmış, icrası həyata keçməyən və yaxud qismən icra edilən məsələlər yeni SİP-in hazırlanması zamanı müzakirə edilərək diqqətdə saxlanılmışdır.

Belə ki, 2018 – 2020 ci illər üzrə Stratreji İnkişaf Planı “Azərbaycan Respublikası Təhsil Nazirliyinin yanında Akkreditasiya və Nostrifikasiya İdarəsinin 12 aprel 2017-ci il tarixli 10 sayılı əmrinə əsasən Qərb Universitetinin akkreditasiyasını həyata keçirmək məqsədi ilə yaradılmış komisiyanın akkreditasiya nəticələri haqqında yekun arayış”ında qeyd edilən irad və tövsiyələr əsasında tərtib edilərkən, 2021-2025-ci illəri üzrə Starteji İnkişaf Planın tərtibi 2018-2020-ci ilin SİP-nin icra vəziyyətinə əsaslanmışdır. https://wcu.edu.az/uploads/files/akkreditasiya.pdf

### *1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması*

Qərbi Kaspi Universitetinin 2021-2025-ci illər üzrə universitetin həyat fəaliyyətinin ümumi şərtləri, onun zəif və güclü tərəfləri nəzərə alınmaqla, mümkün hesab edilən təhlükələrlə əlaqədar risklərin və imkanlarının ümumi təhlilini əhatələyən SWOT təhlil aparılmaqla 2021-2025-ci illər üzrə QKU-nun Strateji İnkişaf Planı hazırlanmışdır. Bu plan özündə universitetin dinamik inkişaf mərkəzlərindən birində yerləşməsi, formalaşmış professor-müəllim heyəti, dərsliklər, inkişaf etmiş

innovativ ekosistemin mövcudluğu kimi güclü tərəfləri; idarəetmədə qeyri-təkmil təşkilati strukturun olması, professor-müəllim heyətinin yaş həddinin yüksək olması və xarici dil bacarıqlarının zəif olması, aşağı kurslarda kuratorluq sisteminin tətbiq edilməməsi və s. kimi zəif cəhətləri ehtiva edir. Bu kimi zəif tərəflərə sahib olmasına baxmayaraq, Qərbi Kaspi Universiteti zəif cəhətləri aradan qaldırmaq, güclü tərəfləri daha da inkişaf etdirmək üçün bir çox imkanlara sahibdir.

Universitetin fəaliyyəti istiqamətində demoqrafik böhranlar, Covid-19 pandemiyası, əmək bazarının kiçik tutuma malik olması nəticəsində məzunların bilik və kompetentsiyasına tələblərin aşağı düşməsi kimi risklər mövcud olsa da, respublika üzrə elm-təhsil mərkəzinə çevrilmə, təhsilin beynəlmiləşdirilməsi, ikili və praktika yönümlü təhsil proqramlarında aktiv iştiraketmə, peşəkar kadrların hazırlanması ilə əlaqədar müəssisə və təşkilatlarla strateji əməkdaşlıq, kompetensiya əsasında məzun modelinin işlənib hazırlanması kimi imkanlar nəzərə alınmışdır.

#### *1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti*

2021-2025-ci illər üzrə Strateji İnkişaf Planının hazırlanması və müzakirəsi proseslərində struktur bölmələr üzrə məsul şəxslərin iştirakından əlavə professor-müəllim heyəti, həmçinin təhsilalanların iştirakı daxil olmaqla universitetin digər maraqlı tərəfləri də bu prosesə cəlb edilmişdir. Universitetin kafedralarından, elmi-tədqiqat mərkəzləri və laboratoriyalarından, inzibati idarəetmə struktur bölmələrindən, gənclər təşkilatlarından olan əməkdaşların,işə götürənlərin və partnyor təşkilatların nümayəndələrinin iştirakı ilə müxtəlif görüşlər, iclaslar və müzakirələr təşkil edilmiş, SİP-nin hazırlanması prosesi üzrə müvafiq fikir və mülahizələrin nəzərə alınması və maraqlı tərəflərin cəlb edilməsi məqsədi ilə 24.04.2020-ci il tarixində komissiya yaradılmışdır.

#### *1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi*

Qərbi Kaspi Universitetinin Elmi Şurasının 25 dekabr 2020 – ci il tarixli Strateji İnkişaf Planı əsasında təsdiq edilmiş 2021-2025-ci illər üzrə Fəaliyyət Planlarında ayrı-ayrılıqda Strateji İnkişaf Planının icrası üzrə məsul struktur bölmələr müəyyənləşdirilmişdir (Tədris Şöbəsi, Keyfiyyətin Təminat Mərkəzi, Elm Şöbəsi, Beynəlxalq Əlaqələr Şöbəsi və s.). Bundan başqa, görüləcək işlərlə bağlı məsul struktur bölmə üzrə tədbirin həyata keçirilməsində iştirak edəcək prorektorlar da nəzərə alınmışdır.

### *1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi*

#### *1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırması vəziyyəti*

2021-2025-ci illər üzrə Strateji İnkişaf Planının icra edilməsi üçün görüləcək tədbirlər və məsul icraçılar Elmi Şuranın 25.12.2020-ci il tarixli iclasında (Protokol №5) təsdiq edilmiş fəaliyyət planında əks olunmuşdur.

Qərbi Kaspi Universitetinin 2021-2025-ci illəri əhatə edən Strateji İnkişaf Planının icrası üzrə Fəaliyyət Planına əsasən Universitetin məsul struktur bölmələri tərəfindən hesabatlar hazırlanır. Strateji İnkişaf Planın icrası üzrə illik hesabatlar hər tədris ilinin sonu Strateji İnkişaf Mərkəzinə təqdim olunur. Hesabatlara müvafiq olaraq icra olunmayan məsələlərlə bağlı tədbirlər planı hazırlanır və ya onların icrası növbəti dövr üçün fəaliyyət planına əlavə edilir.

#### *1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti*

SİP-in icrası üzrə Fəaliyyət Planının illik icrası vəziyyəti dövrü hesabatlarla Elmi Şurada müzakirə edilir. SİP-in icrası dövri olaraq monitorinq edilməklə, icra olunan və ya olunmayan məsələlərə dair məlumatı əks etdirən hesabat hazırlanır. Hesabat strukturlar üzrə toplanır və SİP-

in fəaliyyət planına müvafiq olaraq hazırlanır. Yekun hesabat Elmi Şurada dinlənilməklə qəbul edilir və həllini tapmayan məsələlərin icrası üçün tədbirlər planı hazırlanır və yaxud növbəti dövr üçün fəaliyyət planına əlavə edilir.

### *1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti*

Universitetdə SİP-in icra vəziyyəti ilə bağlı monitorinqlər Strateji İnkişaf Mərkəzi və Keyfiyyətə Nəzarət Mərkəzi tərəfindən aparılır. SİP-in icrasının monitorinqi təsdiqlənmiş Monitorinq qaydalarına müvafiq olaraq aparılır. Bu zaman mövcud fəaliyyət planının əsasında monitorinq planı qurulur və strukturlar üzrə SİP-də nəzərdə tutulan məsələlərin icrası vəziyyəti yoxlanılır. Bununla monitorinqlə yanaşı, SİP-in icra vəziyyətinin izlənilməsi vəziyyəti təmin edilir.

### *1.2.4 SİP-in icrasının dövrü ( illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti*

2021-2025-ci illər üzrə SİP-in icrası üzrə dövrü (illik) monitorinqlərinin nəticələri Elmi Şurada müzakirə edilir, nəticələr təhlil olunur və gələcək fəaliyyətdə nəzərə alınaraq ortaya çıxan çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər həyata keçirilir. Prosesin təşkili və icrası Monitorinq qaydalarına müvafiq olaraq aparılır. Elmi Şurada müzakirənin nəticəsində çatışmazlıqlarla bağlı Tədbirlər planı hazırlanır.

### *1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti*

Strateji İnkişaf Planının icrasının illik monitorinqinin nəticələrinə əsasən növbəti il üçün tədbirlər planları təkmilləşdirilir. SİP-in icrasının dövrü (illik) monitorinq nəticəsi barədə məlumatlar bütün kollektiv üçün açıqdır və maraqlı tərəflər üçün əlçatanlıq universitetin rəsmi saytında paylaşılmaqla təmin edilir. https://wcu.edu.az/az/news/qerbi-kaspi-universiiteti-strateji-inkishaf-planinin-icrasi-

# 2. KEYFİYYƏT TƏMİNATI

## *2.1 Keyfiyyət təminatı siyasəti*

### *2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı*

Keyfiyyər Təminatı Siyasəti sənədinin hazırlanması məqsədi ilə Elmi Şuranın 31.05.2022-ci il tarixli, 9 nömrəli iclas protokoluna əsasən işçi qrupu yaradılmış və tərkibi təsdiq edilmişdir. Elmi Şuranın 12.10.2022-ci il tarixli, 2 nömrəli iclasının protokoluna əsasən “Keyfiyyər Təminatı Siyasəti” sənədi təsdiq edilmişdir.

Sözügedən sənədin hazırlanması zamanı “Təhsil haqqında”Azərbaycan Respublikasının Qanunu”, Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi, o cümlədən Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı üzrə Standartlar və Təlimatlar (ESG) və digər normativ  və hüquqi aktlara istinad edilmişdir.

### *2.1.2 ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti*

Keyfiyyət Təminatı Siyasət” sənədi ümumi müddəalar, siyasətin məqsədi, əhatə dairəsi və prinsipləri, siyasət təlimatları, daxili keyfiyyət təminatı üçün müəyyən edilən 9 standartı əhatə edir və  “Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı üzrə Standartlar və Təlimatlar” sənədinin müddəalarını özündə ehtiva edir.

Qərbi Kaspi Universitetində “Keyfiyyət Təminatı Siyasəti”nin həyata keçirilməsinin aşağıdakılar vasitəsilə təmin edilməsi nəzərdə tutulmuşdur.

- ✓ Universitetin müvafiq təşkilati strukturunun yaradılması, struktur bölmələrinin vəzifə funksiyalarının və keyfiyyətin təminatına məsul olan vəzifəli şəxslərin hüquq və vəzifələrinin müəyyən edilməsi vasitəsilə;
- ✓ daxili keyfiyyət təminatı prosesinə maraqlı tərəflərin (tələbələr, işəgötürənlər, məzunlar və digər şəxslər) cəlb edilməsi ilə;
- ✓ keyfiyyətə zəmanət vermək üçün zəruri resursların yaradılması, informasiya sistemlərinin inkişaf etdirilməsilə;
- ✓ tələbə mərkəzli öyrənmə, tədris və qiymətləndirmə, tələbələrə qarşı imkan bərabərliyinin və ədalətin təmin edilməsilə;
- ✓ keyfiyyətin təmin edilməsi və təkmilləşdirilməsi üzrə fəaliyyətə bütün işçilərin cəlb edilməsi, heyətin hesabatlılığının təmin edilməsi, tapşırılan iş sahəsinə görə məsuliyyətin artırılması ilə;
- ✓ təhsil və elm sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, tələbələrin və professor-müəllim heyətinin mobilliyinin artırılması ilə.

### *2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi*

“Keyfiyyət təminatı siyasəti” sənədi ATM-in bütün struktur bölmələri ilə paylaşılmış və müvafiq struktur bölmələrin əməkdaşlarının keyfiyyət siyasəti barədə məlumatlı olması təmin edilmişdir. Bununla yanaşı, Keyfiyyət təminatı siyasətinin hazırlanmasında və müzakirələrdə strukturların, maraqlı tərəflərin iştirakı təmin olunduğundan onların sənəd barədə məlumatlılığı təmin olunmuşdur.

“Keyfiyyət təminatı siyasəti”nin əlçatanlığının təmin edilməsi məqsədilə sənəd QKU-nun rəsmi saytında, Universitetin elektron sənəd dövriyyəsi sistemində ( Share-Point) öz əksini tapmaqla təhsilalanlar başda olmaqla bütün maraqlı tərəflər üçün əlçatan edilmişdir. Üzərində QR kod  olan siyasətin qısa forması  universitetin dəhlizlərində asılmış, tam versiyası isə nəşr olunaraq kitabça halında bütün şöbələrə paylanmışdır.

### 2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)

“Keyfiyyət təminatı siyasəti” sənədinin əhatə dairəsi müəssisənin bütün fəaliyyət və əməliyyatlarını, o cümlədən proqramların tərtib və təsdiq edilməsi, tələbəyönümlü təlim, tədris və qiymətləndirmə, tələbələrin qəbulu, təhsil alması, tanınma və attestasiyası, professor-müəllim heyəti, tədris resursları və tələbə dəstəyi, informasiyanın idarə edilməsi, ictimai məlumatlılıq, proqramların davamlı monitorinqi və vaxtaşırı nəzərdən keçirilməsi və dövrü olaraq xarici keyfiyyət təminatını ehtiva edir. Mövcud siyasət sənədi daxili maraqlı tərəflər qismində universitet daxilindəki bütün sektorlara, o cümlədən tələbələrə, akademik, inzibati və tədris köməkçi heyətə, habelə xarici maraqlı tərəflər qismində işəgötürənlərə və qurumun digər xarici tərəfdaşlarına şamil edilir. Universitetin professor və müəllim heyəti, inzibati heyət və təhsil alan tələbələr keyfiyyətin təminatının tətbiqi və təkmilləşdirilməsində yaxından iştirak edirlər. Belə ki, universietin hər bir əməkdaşı icra etdiyi fəaliyyətə, tələbələr isə aldığı təhsilin keyfiyyətinə görə məsuliyyət daşıyır.

## 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri

### 2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)

QKU-nun Elmi Şurasının 11.09.2017-ci il tarxili, 01 nömrəli iclasının protokoluna əsasən “İmtahan və Keyfiyyətə Nəzarət Mərkəzi” yaradılmış və əsasnaməsi təsdiq edilmişdir. Universitetin Elmi Şurasının 31.01.2020-ci il tarixli, 06 nömrəli protokoluna əsasən isə “İmtahan mərkəzi” və “Keyfiyyətə nəzarət Mərkəzi” ayrılıqda fəaliyyətə davam etməkdədir. 2021-ci ildən etibarən Mərkəz “Keyfiyyət Təminatı Mərkəzi” adlandırıldı və yenilənmiş əsasnaməsi qəbul edildi.

Universitetin daxili keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi məqsədilə 2022-ci ildə (EŞ-nın 12.10.2022-ci il tarixli iclası, protokol № 02) “Keyfiyyətə Nəzarət Komisiyası” yaradılmışdır. Komissiya Universitetin daxili keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində təkliflərin hazırlanması və həyata keçirilməsini izləyən orqandır.

QKU-nun Strateji Planında müəyyən olunmuş hədəfləri əsas tutaraq 2022/2023-cü tədris ili üçün Komissiyanın təsdiq edilmiş fəaliyyət planı hazırlanmışdır. Komissiya üzvləri arasında 3 istiqamət üzrə iş bölgüsü aparılmışdır (təhsil, elmi-tədqiqat və sosial xidmət). Bununla yanaşı, QKU-da daxili keyfiyyət təminatı məsələlərinin tənzimlənməsi üçün Keyfiyyətə nəzarət Mərkəzi fəaliyyət göstərir. Mərkəz Mərkəz Universitetdə tədrisin təşkili, həyata keçirilməsi, idarə edilməsi, tədrisə və keyfiyyətə nəzarət, qiymətləndirmə və keyfiyyətə təminat sahəsində bir sıra funksiyaları həyata keçirir:

- tədrisin keyfiyyətinin yüksəldilməsi üzrə inkişaf konsepsiyalarının formalaşdırılması, onların həyata keçirilməsinə dair təkliflərin hazırlanması və onların icrası prosesində iştirak edir;
- mərkəzin fəaliyyətinin və strukturunun təkmilləşdirilməsinə yönəlmiş təkliflər verir və Universitet rəhbərliyinin bu istiqamətdə verdiyi tapşırıqları yerinə yetirir;
- imtahan və kollokviumların keçirilməsi ilə bağlı xüsusi halların araşdırılması üçün müvəqqəti komissiyalar yaradır;
- təhsil prosesində kəmiyyət və keyfiyyət göstəricilərini yoxlayır;
- öz səlahiyyətləri daxilində kütləvi tədbirlər təşkil edir;
- mərkəzdə görülən bütün işlərin Universitetin struktur bölmələri ilə qarşılıqlı əlaqədə və müasir informasiya texnologiyalarından geniş istifadə edilməklə həyata keçirilməsi üçün tədbirlər görür;
- Bütövlükdə Universitet üzrə və ayrı-ayrı hallarda müxtəlif Məktəblər üzrə tədrisin düzgün təşkilinə nəzarəti həyata keçirir;
- Universitet üzrə payız və yaz semestrlərinin, həmçinin aralıq imtahanlarının düzgün

təşkilinə nəzarəti həyata keçirir;

- İmtahan sual və nəticələrinin universitetin saytında yerləşdirilməsinə nəzarət edir;
- Tələbələr ilə tədris prosesinin keyfiyyəti, universitetdə yaradılan şərait, təhsil verənlərin bilik və bacarıq səviyyəsi və s. haqqında sorğular keçirir və s. (https://wcu.edu.az/az/page/keyfiyyete-nezaret-merkezi).

### *2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması*

Daxili keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi məqsədilə yaradılmış Komissiya 17.11.2022-ci il tarixli (protokol № 03) Elmi Şura iclasında təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir. Əsasnamə Komissiyanın əsas funksiyalarını, hüquqlarını, fəaliyyətinin təşkilini özündə əks etdirir. Komissiyanın tərkibi inzibati və akademik heyət, tələbə, məzun və işəgötürən olmaqla 13 nəfərdən ibarətdir.

### *2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti*

Keyfiyyətə Nəzarət Komissiyasının 2022/2023-cü tədris ili üzrə fəaliyyət planı Universitetin müəyyən edilmiş strateji inkişaf planındakı hədəflər, nəzərə alınmaqla hazırlanmışdır.

### *2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması*

Keyfiyyətə Nəzarət Komissiyasının fəaliyyət planına uyğun olaraq keyfiyyət üzrə fəaliyyətlərin icrasına nəzarətə məsuliyyət daşıyır. İllik hesabatların hazırlanması, hesabtalar əsasında təkmilləşdirmə tədbirlərinin müəyyənləşdirilməsi istiqamətində fəaliyyət icra edir

### *2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması*

Qeyd etdiyimiz kimi, illər üzrə Keyfiyyətə Nəzarət Komissiyasınn fəaliyyət planı hazırlanır və təsdiqini tapır. Komissiyanın fəaliyyət planında hər bir proses üzrə tədbir, məsul şəxs, addımlar, səlahiyyət bölgüsü kimi məsələlər öz əksini tapmışdır. Bununla əlaqədar fəaliyyət planının strukturunda əksini tapan başlıqlar aşağıda göstərilmişdir:

- görüləcək iş
- icra müddəti
- icraçılar
- icra vəziyyəti.

### *2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti*

Keyfiyyətə Nəzarət Komissiyasının fəaliyyət planı təhsil, elmi-tədqiqat, və sosial xidmət kimi əsas sahələri əhatə edib. Daxili keyfiyyət təminatı sistemi təhsil proqramlarının tərtib edilməsində, fakultələrdə tədris prosesinin qurulması və idarə edilməsində, akademik və inzibati heyətin seçilməsində, təhsilalanların rəy və istəkləri əsasında keyfiyyətli tədris prosesinin qurulmasında qarşılıqlı işgüzar mühitin yaradılmasını təmin edir. Bununla əlaqədar, Komissiyanın fəaliyyət planında aşağıdakıların icrasında dair məsələlər nəzərdə tutulmuşdur:

- əmək bazarının tələblərinə müvafiq olaraq təhsil proqramlarının yenilənməsi və

təkmilləşdirilməsinə dair tədbirlər

- akademik və inzibati heyətin səmərəliliyinin qiymətləndirilməsi mexanizminin formalaşdırılması üçün təkliflərin verilməsi
- inzibati və akademik heyətin motivasiyası mexanizmlərinin müəyyələşdirilməsi
- tələbəyönümlü təhsil imkanlarının araşdırılması və daim təkmilləşdirilməsi
- fakültələr üzrə akademik məsləhət xidmətlərinin təkmilləşdirilməsi

### *2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması*

QKU-nun “Keyfiyyət təminatı Siyasəti” sənədi Universitetin veb-saytında yerləşdirilib və keyfiyyət təminatı üzrə bələdçi nəşr olunmuşdur “Keyfiyyət təminatı Siyasəti” Univeristetin bütün tədris korpuslarında lövhələrdə asılmışdır. Bununla yanaşı, tələbələr üçün Məlumat kitabçları hazırlanır, istər təhsilalanlar, istərsə də professor-müəllim heyəti üçün məlumatlandırma xarakterli orientasiya seminarları keçirilir. Eyni zamanda QKU-da mövcud fəaliyyətlərlə bağlı ehtiyaca müvafiq olaraq mütəmadi şəkildə prosedur sənədlər hazırlanır.

### *2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi*

Qərbi Kaspi Universitetində daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirmə təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s. əhatə edir. Universitetin daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməni obyektiv təşkil etmək üçün hər semestr anonim sorğular təşkil olunmuşdur. Sorğular təhsilalan, məzun, işəgötürən, akademik, inzibati, tədris-köməkçi heyət arasında keçirilmişdir. Sorğuların nəticələri təhlil edilmiş və qiymətləndirilmə aparılmışdır. Bununla yanaşı, heyətin daxili və xarici keyfiyyət təminatına dair bilik və bacarıqlarının artırılması üçün vaxtaşırı təlimlər təşkil edilir. Keyfiyyətin yüksəldilməsi məqsədilə 2022-ci il, 12 oktyabr tarixli, 15/3/ü nömrəli əmrlə “Keyfiyyətə Nəzarət Komissiyası”, tələbələrlə daimi, operativ əlaqənin səmərəli qurulması üçün 2022-ci ildə “Tələbə Məlumat Mərkəzi” yaradılmışdır. Eyni zamanda təhlil və qiymətləndirmənin aparılması prosesi auditlər şəklində keçirilir. QKU keyfiyyət sisteminin təkmilləşdirilməsi məqsədilə daxili auditlər keçirir, onun hesabatlılığını təmin edir. Həmçinin, 2023-cü ilin sentyabr ayında TSE tərəfindən universitetdə xarici audit təşkil olunmuş və auditin nəticələrinə uyğun olaraq QKU İSO - 9001, İSO-45001, İSO-14001” Beynəlxalq keyfiyyət standartları Sertifikatlarına layiq görülmüşdür. Daxili və xarici auditlərlə yanaşı, QKU-da tədris prosesinin izlənilməsi məqsədi Monitorinqin təşkili qaydalarına müvafiq olaraq monitorinqlər keçirilir.

### *2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti*

Universitetdə təlim-tədris prosesinin davamlı inkişafının təmin edilməsi, elmi-tədqiqat fəaliyyəti, tədris prosesinin kəmiyyət və keyfiyyət göstəriciləri üzrə təhlilini özündə ehtiva edən İllik Hesabatı hazırlanmış və hesabatın Elmi Şurada müzakirəsi təşkil edilmişdir. Müəssisənin illik hesabatlarından başqa, cari akkreditasiya meyarlarına müvafiq olaraq illik Özünütəhlili aparılır. Özünütəhlil strukturlardan meyarlara müvafiq məlumatları toplamaqla hazırlanır və təhlil edilir. Buna müvafiq olaraq QKU-nun Özünütəhlil hesabatı hazırlanır və Elmi Şuraya təqdim edilir.

### *2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti*

2016/2017-ci tədris ilində Universitetdə keçirilmiş akkreditasiya qiymətləndirilməsi zamanı

QKU-nun inkişafının təmin edilməsi məqsədilə Akkreditasiya Komissiyası tərəfindən tövsiyələr verilmişdir.

İradların aradan qaldırılması məqsədilə Universitetin 2018-2020-ci illəri əhatə edən qısamüddətli Starteji İnkişaf Planı hazırlanmışdır.

#### *2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti*

Universitetdə maraqlı tərəflərin rəyləri və məmnunluq səviyyəsinin öyrənilməsi məqsədilə akademik heyət, inzibati və tədris-köməkçi heyət, təhsilalanlar, məzunlar və əmək bazarının nümayəndələri arasında sorğular keçirilir. Sorğular Keyfiyyət Təminatı Mərkəzi və Tələbə Məlumat Mərkəzi tərəfindən illik fəaliyyət planına uyğun olaraq birgə təşkil olunur.

Sorğuların nəticələri Universitet Elmi Şurasının iclaslarında müzakirə olunur. Təhsilalanlar və məzunlar arasında keçirilən sorğuların əsas məqsədi Qərbi Kaspi Universitetinin ümumi fəaliyyətinin qiymətləndirilməsi, fənlər və karyera xidmətinin təşkili üzrə məmnunluq səviyyəsinin ölçülməsi, o cümlədən qazanılmış kompetensiyaların əmək bazarının tələblərinə uyğunluğunun müəyyən edilməsidir. Qeyd etmək lazımdır ki, sorğu anketləri ilə yanaşı universitetdə məzunlar və işəgötürənlərlə görüşlər də təşkil olunur. QKU-də keçirilən ənənəvi əmək yarmarkalarının iştirakçıları-işəgötürənlərin iştirakı məmnunluq səviyyəsinin nümunəsidir.

### *2.3 Keyfiyyət təminatı mədəniyyəti*

#### *2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması*

Keyfiyyətin Təminatı Mərkəzinin Direktoru mərkəzin fəaliyyətinin nəticəsinə görə Universitetin normativ sənədləri ilə müəyyən edilmiş qaydada Elmi Şura və rektor qarşısında məsuliyyət daşıyır. Mərkəz öz fəaliyyətinin nəticəsi üzrə tədris ilinin sonunda yekun hesabatı Universitet rəhbərliyinə təqdim edir. Universitetdə akademik və inzibati heyətlə rəhbərlik arasında məlumatların çatdırılması Elektron təhsil portalı( elektron poçt) vasitəsilə həyata keçirilir.

#### *2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması*

“Keyfiyyət təminatı siyasəti” QKU-nun veb-saytında yerləşdirilir və keyfiyyət təminatı sahəsində prioriet istiqamətlərin müəyyənləşdirilməsi məqsədilə əks-əlaqə təmin edilir. Təkliflər və iradlar elektron tədris platforması vasitəsilə qa@wcu.edu.az ünvanına göndərilir. Onlayn müraciətlə daxil olan irad və təkliflər təhlil edilərək veb-saytda yerləşdirilir və maraqlı tərəflərin keyfiyyət təminatı posesinə cəlb edilməsini təmin etməklə təkliflər hazırlanır. Bu təkliflər müzakirə edilərək müvafiq qərarlar qəbul edilir və icraya yönəldilir. Keyfiyyət təminatı sahəsində əks-əlaqənin və keyfiyyət mədəniyyətinin yüksəldilməsi istqamətində mütəmadi işlər aparılır.

#### *2.3.3 Keyfiyyətin təmin olunmasında ATM rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər*

Keyfiyyətin təmin olunması və inkişaf etdirilməsində Universitet rəhbərliyi bilavasitə iştirak edir. Bu məqsədlə rəhbərlik aşağıda qeyd edilmiş tədbirləri həyata keçirmişdir:

- 2021-ci ildə Keyfiyyətin təmin olunması və inkişafı məqsədilə təlimlər keçmək üçün keyfiyyət təminatı ilə bağlı xarici mütəxəssis dəvət edilmişdir;

- 2021-ci ildə TKTA ilə təlim xidmətlərinin göstərilməsinə dair müqavilə imzalamışdır. Müqaviləyə əsasən, Universitetin əməkdaşlarına agentlik tərəfindən "Daxili keyfiyyət təminatı” və "Xarici keyfiyyət təminatı” başlıqları altında fərqli mövzuda təlimlər təşkil edilmişdir.

- Keyfiyyətin yüksəldilməsi məqsədilə 2022-ci il, 12 oktyabr tarixli, 15/3/ü nömrəli əmrlə “Keyfiyyətə Nəzarət Komissiyası” yaradılmışdır

- Tələbələrlə daimi, operativ əlaqənin səmərəli qurulması üçün 2022-ci ildə “Tələbə Məlumat Mərkəzi” yaradılmışdır.

- Bundan əlavə “İSO-9001, İSO-45001, İSO- 14001” sertifikatlarının əldə olunmasını təmin etmək üçün Türk Standartları İnstitutu ilə müqavilə bağlanmışdır. Müqaviləyə əsasən 2023-cü ilin aprel- may aylarında TSE Egitim Dairesi Başkanlığı tərəfindən Universitetdə təlimlər keçirilmiş, təlim iştirakçılarına sertifikatlar verilmişdir.

- 2023-cü ilin sentyabr ayında TSE tərəfindən universitetin auditi təşkil olundu və auditin nəticələrinə uyğun olaraq İSO - 9001, İSO-45001, İSO- 14001” Beynəlxalq keyfiyyət standartları Sertifikatları təqdim edildi.

### *2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-nin strukturlararası fəaliyyətin koordinasiyası vəziyyəti*

Keyfiyyət Təminatı Mərkəzi tədris, elm, beynəlxalq əlaqələr, informasiya-texniki təminat məsələləri üzrə aidiyyatı strukturlarla qarşılıqlı əməkdaşlıq edir. Mərkəzin aidiyyatı strukturlardan məlumat əldə etmə imkanı mövcuddur. Universitetdə strukturlararası əlaqə Microsoft Outlook üzərindən (Share Pointda paylaşımlar etməklə və korporativ e-mail vasitəsilə) həyata keçirilir. Digər tərəfdən keyfiyyət mədəniyyətinin təkmilləşdirilməsi üçün heyət arasın Ehtiyacların müəyyələşdirilməsi sorğusu keçirilir və nəticələrinə müvafiq tədbirlər görülür.

## 3. TƏLİM VƏ TƏDRİS

### *3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

***3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti***

Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı bakalavriat və magistratura səviyyələrində qəbul planı yerlərinə müvafiq ixtisaslar üzrə həm QKU həm də digər ATM-lərin illər üzrə faktiki qəbul nəzərə alınmaqla hazırlanmış məlumatlar bazası Tədrisin Təşkili və İdarə Olunması Mərkəzi tərəfindən təhlil edilir və fakültələrə göndərilir. Fakültə, məktəb və mərkəzlər bu məlumatları nəzərə alaraq öz təkliflərini TTİOM-a ümumiləşdirilməsi üçün təqdim edir. Strukturlar tərəfindən təqdim edilən proqnoz göstəriciləri Universitetin rəhbərliyi ilə razılaşdırılır və müvafiq qaydada Elm və Təhsil Nazirliyinə göndərilir. Bununla yanaşı, tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı Universitetin auditoriya fondu, akademik heyət, kadr potensialı, maddi texniki baza kimi imkanlar da nəzərə alınır. Magistratura səviyyəsinə qəbul sifarişlərinin hazırlanması zamanı bakalavriat səviyyəsindən məzun olan umumi tələbə kontingentinin sayı nəzərə alınır.

**2017/2018-2022/2023-cü tədris illəri üzrə QKU-ya təhsilalan qəbulu**
**Bakalavriat səviyyəsi üzrə**

| Tədris illəri | Qəbul planı | Faktiki qəbul | Qəbul planının dolma faizi (%) | Əyani | Qiyabi | D/S qəbul olan təhsilalan sayı | Faktiki qəbul sayında subbakalvr sayı | Qəbul olunmuş əcnəbi təhsilalan sayı | Əlavə təhsilə cəlb olunan təhsilalan sayı |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2017-2018 | 910 | 590 | 65 | 548 | 42 | 17 | 0 | 7 | 0 |
| 2018-2019 | 1085 | 817 | 75 | 776 | 41 | 45 | 0 | 1 | 17 |
| 2019-2020 | 1065 | 818 | 77 | 758 | 60 | 79 | 0 | 13 | 32 |
| 2020-2021 | 1020 | 704 | 69 | 641 | 63 | 128 | 0 | 8 | 28 |
| 2021-2022 | 945 | 735 | 78 | 684 | 51 | 134 | 70 | 5 | 34 |
| 2022-2023 | 1055 | 662 | 63 | 574 | 94 | 183 | 86 | 0 | 25 |
| 2023-2024 | 1110 | 713 | 64 | 612 | 101 | 334 | 176 | 0 | 23 |




**2017/2018-2022/2023-cü tədris illərində bakalavr səviyyəsi üzrə QKU-ya qəbulun dinamikası**




**2017/2018-2022/2023-cü tədris illərində bakalavr səviyyəsi üzrə Dövlət sifarişi əsasında qəbul olanların artım dinamikası**

**2017/2018-2022/2023-cü tədris illəri üzrə QKU-ya təhsilalan qəbulu Magistratura səviyyəsi üzrə**

| Tədris illəri | Qəbul planı | Faktiki qəbul | Qəbul planının dolma faizi (%) | D/S qəbul olan təhsilalan sayı | Qəbul olunmuş əcnəbi təhsilalan sayı |
|---|---|---|---|---|---|
| 2017-2018 | 82 | 67 | 82 | 8 | 0 |
| 2018-2019 | 134 | 84 | 63 | 15 | 1 |
| 2019-2020 | 104 | 54 | 52 | 19 | 3 |
| 2020-2021 | 104 | 74 | 71 | 28 | 1 |
| 2021-2022 | 138 | 116 | 84 | 36 | 2 |
| 2022-2023 | 186 | 144 | 77 | 20 | 0 |
| 2023-2024 | 191 | 176 | 92 | 58 | 0 |




**2017/2018-2022/2023-cü tədris illərində magistratura səviyyəsi üzrə QKU-ya qəbulun dinamikası**




**2017/2018-2022/2023-cü tədris illərində magistratura səviyyəsi üzrə Dövlət sifarişi əsasında qəbul olanların artım dinamikası**

## 2017/2018-2022/2023-cü tədris illəri üzrə QKU-ya təhsilalan qəbulu Doktorantura səviyyəsi üzrə

| Tədris illəri | Qəbul planı | Faktiki qəbul | Əyani | Qiyabi | Qəbul planının dolma faizi (%) | D/S qəbul olan təhsilalan sayı | Qəbul olunmuş əcnəbi təhsilalan sayı |
|---|---|---|---|---|---|---|---|
| 2017-2018 | 21 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| 2018-2019 | 10 | 2 | 2 | 0 | 20 | 0 | 0 |
| 2019-2020 | 12 | 4 | 4 | 0 | 33 | 0 | 0 |
| 2020-2021 | 12 | 3 | 3 | 0 | 25 | 0 | 2 |
| 2021-2022 | 12 | 3 | 3 | 0 | 25 | 0 | 1 |
| 2022-2023 | 10 | 3 | 3 | 0 | 30 | 0 | 5 |
| 2023-2024 | 8 | 3 | 3 | 0 | 38 | 0 | 0 |




**2017/2018-2022/2023-cü tədris illərində doktorantura səviyyəsi üzrə QKU-ya qəbulun dinamikası**

## 2017/2018-2022/2023-cü tədris illəri üzrə QKU-ya təhsilalan qəbulu Dissertantura səviyyəsi üzrə

| Tədris illəri | Qəbul planı | Faktiki qəbul | Əyani | Qiyabi | Qəbul planının dolma faizi (%) | D/S qəbul olan təhsilalan sayı |
|---|---|---|---|---|---|---|
| 2017-2018 | 1 | 1 | 1 | 0 | 100 | 0 |
| 2018-2019 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| 2019-2020 | 9 | 1 | 4 | 0 | 11 | 0 |
| 2020-2021 | 10 | 1 | 1 | 0 | 10 | 0 |
| 2021-2022 | 10 | 0 | 0 | 0 | 0 | 0 |
| 2022-2023 | 4 | 2 | 2 | 0 | 50 | 0 |
| 2023-2024 | 8 | 3 | 3 | 0 | 38 | 0 |




**2017/2018-2022/2023-cü tədris illərində Dissertantura səviyyəsi üzrə QKU-ya qəbulun dinamikası**

### *3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti*

Tələbə qəbulu sifarişlərinin əmək bazarının tələblərinə uyğun hazırlanması üçün QKU öz tərəfindən iş dünyasının tələblərini öyrənmək məqsədilə əmək bazarının aktiv iştirakçılarını Universitetə dəvət edir və Əmək yarmarkaları keçirir. QKU-da sonuncu təhsil illərində təhsil alan tələbələrin ayrı-ayrı müəssisələrə İstehsalat təcrübəsi keçmələri üçün göndərilməsi zamanı əldə edilən müvafiq məlumatlar (tələbələrin təhsil aldıqları müddətdə yiyələndikləri nəzəri biliklərin və səriştələrin əmək bazarının tələblərinə uyğunluğu) tələbə qəbulu sifarişlərinin hazırlanmasında nəzərə alınır. Həmçinin, QKU-nun müvafiq strukturları Universitetdən məzun olan tələbələrin hansı sahədə daha çox işlə təmin olmaları haqqında məlumatları toplayır və tələbə qəbulu sifarişlərinin hazırlanmasında bu məlumatlardan istifadə edilir. Tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi üçün Universitetin auditoriya fondu, akademik heyət, kadr potensialı, maddi-texniki baza kimi imkanlar da nəzərə alınır.

### *3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti*

Universitet tərəfindən hazırlığı həyata keçirilən kadrların əmək bazarında işlə təmin oluna bilmələri istiqamətində QKU-nun müvafiq strukturları daim araşdırmalar aparır. Bu işlərin daha səmərəli həyata keçirilməsi ilə əlaqədar QKU-da Tələbə və Məzunların Təcrübə və İnkişaf Mərkəzi yaradılmışdır. Bununla yanaşı pedoqoji təcrübəyə malik əmək bazarında çalışan mütəxəssislərin tədrisə cəlb edilmələrinə böyük üstünlük verilir. Həmin mütəxəssislərin əmək bazarında hansı ixtisaslara və peşə kompetensiyalarına daha çox ehtiyac olduğu barədə fikirləri öyrənilir və gələcəkdə tələbə qəbulu ilə bağlı sifarişlərin hazırlanmasında nəzərə alınır. Belə ki, Azərbaycan Respublikası Mərkəzi Bankının, İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi , Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya publik püquqi şəxsi, Azərbaycan Respublikaspı Kənd Təsərrüfatı Nazirliyi Tərəvəzçilik Elmi Tədqiqat İnstutu publik hüquqi şəxsi və Azərbaycan Respublikası Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabelyində “Dendrologiya Bağı” publik hüququ şəxsin nümayəndələri ilə müzakirə aparılmış və qəbul planında nəzərə alınmışdır. Bundan başqa universitetdə mütəmadi olaraq təşkil olunan Əmək yarmarkaları zamanı təhsil müəssisəsinə dəvət olunan işəgötürənlərin də bu istiqamətdə tövsiyələri önəm daşıyır.

#### 3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti

QKU-da subbakalavrların bakalavriat səviyyəsi (https://e-qanun.az/framework/42399), ali təhsil müəssisələrindən məzun olanların isə təkrar təhsil üzrə qəbulu həyata keçirilir (https://e-qanun.az/framework/20045). Qəbul olan tələbələr öz təhsil müəssisələrində dinlədikləri fənlərin və qazandıqları kreditlələrin tanınması və QKU-da ayrı-ayrı ixtisasların tədris planlarında mövcud olan fənlərlə uyğunlaşdırılması ilə əlaqədar fakültə rəhbərlərinə müraciət edirlər. Bununla bağlı fakültə rəhbərləri təqdim olunan fənlərin uyğunlaşdırılması və tanınması üçün QKU-nun rektorluğuna müvafiq təqdimatlarla müraciət edirlər. Təqdim olunan fənlərin və kreditlərinin tanınması və ayrı-ayrı ixtisasların tədris planlarında olan fənlərlə uyğunlaşdırılması QKU rektorunun 15.09.2018-ci il tarixində 15/2/2/Ü saylı əmri ilə yaradılmış "Fənlərin uyğunlaşdırılması" üzrə işçi komissiyası tərəfindən həyata keçirilir. Komissiya fakültələr tərəfindən təqdim olunan təklifləri öz iclaslarında müzakirəyə çıxararaq qərar qəbul edir və bu keçirilən iclasların protokollarında öz əksini tapır.

Həmçinin, bərpa olunan, akademik məzuniyyətdən qayıdan və transfer olunan tələbələrin kreditlərinin tanınması "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın (https://e-qanun.az/framework/37146) tələblərinə uyğunlaşdırılır.

### 3.2 Təhsil proqramları

#### 3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

Universitetdə 18 iyul 2018-ci il Azərbaycan Respublikası Nazirlər Kabinetinin 311 saylı qərari ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"ndə (https://e-qanun.az/framework/39622) qeyd edilmiş 4-cü səviyyə – tam orta təhsil, 5-ci səviyyə – orta ixtisas, 6-cı səviyyə – bakalavr, 7-ci səviyyə – magistr, 8-ci səviyyə – fəlsəfə doktoru, elmlər doktoru və təkrar ali təhsil üzrə mütəxəssis hazırlığı həyata keçirilir. Belə ki, bakalavriat səviyyəsi üzrə 28 ixtisas, magistr səviyyəsi üzrə 16 ixtisas 23 ixtisaslaşma, MBA proqramı üzrə "Biznesin idarə edilməsi" ixtisası, Biznesin təşkili və idarə edilməsi (turizm və otelçiliyin idarə edilməsi) ixtisaslaşması üzrə mütəxəssis hazırlığı həyata keçirilir.

Həmçinin, hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin etmək və insan potensialının inkişafının, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsini həyata keçirmək məqsədilə QKU-da əlavə təhsil üzrə müxtəlif ixtisaslara qəbul həyata keçirilir.

#### 3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti.

QKU qarşısında duran əsas vəzifələrdən biri tədris prosesini müasir tələblərə uyğun təşkil edilməsidir. Universitetdə mövcud ixtisaslar üzrə tədris prosesinin təşkili Ali təhsil səviyyəsinin Dövlət Təhsil Proqramına uyğun hazırlanmış, Universitetin Elmi Şurası tərəfindən təsdiq edilmiş Tədris planları əsasında həyata keçirilir. Balakavr səviyyəsi üzrə 2016-2017-ci tədris ilindən 2022-2023-cü tədris ilinə qədər iki Təhsil Proqramı tətbiq olunub. Birinci Təhsil Proqramı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 913 saylı qərarı ilə 2014-cü ildə, ikinci Təhsil Proqramı isə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 343 saylı qərarı ilə 2020-cı ildə qəbul edilmişdir. Magistratura səviyyəsində tədrisin təşkili 2016-cı ildə bütün ixtisaslar üzrə AR Elm və Təhsil Nazirliyinin 640 saylı əmri ilə təsdiq edilmiş təsnifata, texniki və texnoloji ixtisaslar üzrə 2012-ci ildə 1463 saylı qərarı ilə təsdiq edilmiş təsnifata uyğun hazırlanmış tədris planları əsasında həyata keçirilir.

Hər iki səviyyə üzrə Tədris planları hazırlanarkən əmək bazarı nümayəndələrinin (məsələn: Azərbaycan Respublikası Mərkəzi Bankının, İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi

Xidmətinin Tədris Mərkəzi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya publik hüquqi şəxsi, Azərbaycan Respublikaspı Kənd Təsərrüfatı Nazirliyi Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu publik hüquqi şəxsi və Azərbaycan Respublikası Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabelyində "Dendrologiya Bağı" publik hüququ şəxsin nümayəndələri kimi nüfuzlu təsərrüfat subyektlərinin) təklifləri nəzərə alınmışdır. Bakalavriatura üzrə müvafiq Təhsil Proqramlarında "Karyera planlaması", "Yumşaq bacarıqlar (Soft skills)", "Sərt bacarıqlar (Hard skills)" kimi təcrübi fənlərin tədrisi nəzərdə tutulmuşdur ki, onların tədrisinə əsasən əmək bazarının iştirakçıları olan müvafiq elmi dərəcəyə malik mütəxəssislərin cəlb edilməsi nəzərdə tutulmuşdur.

### 3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

QKU-da kadr hazırlığı həyata keçirilən Təhsil Proqramları "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq Qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatı"na uyğun hazırlanmışdır. Müvafiq Təhsil Proqramlarında qeyd olunan ümumi və peşə kompetensiyalarına uyğun olaraq, Universitetdə tədris olunan ixtisasların fənlər üzrə təlim və öyrənmə metodları, qiymətləndirmə üsulları, təlim nəticələri, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialı nəzərə alınır.

Tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğunun təmin edilməsi məqsədilə ixtisasın Təhsil Proqramlarına uyğun hazırlanmış tədris planlarında müvafiq səriştələri formalaşdıran əsas və seçmə fənlər müəyyənləşdirilmişdir.

Həmçinin, Universitetdə ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğunun təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsində səviyyə deskriptorları"na (https://e-qanun.az/framework/39622 - əlavəsi) əsasən müxtəlif səviyyələr üzrə təhsilalanların ümumi və peşə kompetensiyalarına yiyələnməsi üçün təhsil proqramlarının tələblərinin və keyfiyyətinin təmin olunması məqsədilə Ömürboyu Təhsil Mərkəzi, keyfiyyətin daxili təminatı strukturu və keyfiyyət prosesini tənzimləyən daxili normativ prosedurlar, keyfiyyətin qiymətləndirilməsi meyarları hazırlanmışdır.

### 3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının Ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

QKU-da təlim və tədris prosesi AR Nazirlər Kabinetinin 18 iyul 2018-ci il 311 saylı Qərarı ilə təsdiqlənmiş Azərbaycan Respublikasının ömürboyu təhsil 4, 5, 6, 7, və 8-ci səviyyələr üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin qoyduğu tələblər, onları təsdiq edən sənədlər əsasında həyata keçirilir. Həmçinin, QKU-da AzMKÇ-də keyfiyyətin təmin olunması məqsədilə aşağıdakı tələblər nəzərə alınır:

- ✓ keyfiyyətin daxili təminatı sistemini təşkili,
- ✓ keyfiyyətin qiymətləndirilməsi meyarlarının mövcudluğu,
- ✓ kvalifikasiyaların müvafiq dövlət Təhsil Proqramlarına, əmək bazarının tələblərinə uyğunluğu və s.

Əlavə olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi" qaydasında əksini tapmış əlavə təhsil istiqamətlərindən "Təkrar ali təhsil" QKU-də uğurla reallaşdırılır və Universitetin Ömürboyu Təhsil Mərkəzinin koordinasiyası ilə hər kəs üçün əlçatan olan sertifikatlı kurs proqramları hazırlayaraq qısa müddətdə mütəxəssis olmaq istəyən, yeni bir sahəyə maraqlı olan insanlar üçün təhsil almaq imkanı yaradır.

### *3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu*

QKU-da tədrisi həyata keçirilən ixtisasların (ixtisaslaşmaların) bakalavriat səviyyəsi üzrə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2020-ci il 343 saylı qərarı, Magistratura səviyyəsində İqtisadiyyat və idarəetmə ixtisasları üzrə texniki və texnoloji ixtisaslar üzrə 2020-ci ildə F-370 saylı qərarı ilə təsdiqlənmiş Təhsil Proqramlarında qeyd edilmiş hər ixtisas üzrə ayrı-ayrılıqda Təhsil Proqramlarının və fənlərin gözlənilən təlim nəticələrininə uyğun həyata keçirilir. Belə ki, Təhsil proqramları və onlara müvafiq tədris planları üzrə nəzərdə tutulmuş fənlərin təlim nəticələri akademik heyətin sillabuslarında öz əksini tapmış və FTN-lər proqramın təlim nəticələri (PTN) ilə uyğunlaşdırılmışdır.

### *3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu.*

Akademiyada kadr hazırlığı məqsədilə tərtib edilən hər bir Tədris planları üzrə bakalavriat səviyyəsində cəmi 240 (4 il) AKTTS, magistratura səviyyəsində isə 120 (2 il) AKTTS kredit nəzərdə tutulmuşdur. Təhsil proqramının tələblərinə uyğun olaraq bakalavriat səviyyəsində fənlər tədris planlarında da üç bloka bölünmüşdür. Bu bloklara ümumi fənlər, ixtisas fənləri və Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər (seçmə fənlər) aiddir. Ümumi fənlər bloku öz növbəsində iki yerə ayrılır - məcburi fənlər 24 AKTTS və seçmə fənlər 6 AKTTS (ümumilikdə 30 AKTTS). İxtisas fənləri ümumilikdə 120 AKTTS və Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərə 60 AKTS, təcrübəyə və bununla bağlı fənlərə isə 30 AKTTS, müəyyən edilmişdir. Magistratura səviyyəsi üzrə hazırlanmış tədris planlarında ixtisas fənləri blokuna 60 AKTTS (məcburi fənlərə 12, Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərə isə 48 AKTTS), təcrübə və tədqiqat blokuna isə 60 AKTTS müəyyən edilmişdir. Tədris planları üzrə təhsil proqramının tələblərinə uyğun olaraq həftəlik auditoriya saatlarının həcmi həftəlik yükün 50%-dən çox olmur. Auditoriya dərsləri üçün ayrılmış 1 akademik saat 45 dəqiqə, 1 dərs 2 akademik saat müəyyənləşdirilmişdir.

QKU-də dərs saatlarının bölgüsü və onun Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili” Qaydalarının və 24 noyabr 2010-cu il 215 saylı qərarı ilə təsdiqlənmiş “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normaları”nın tələbləri qorunmaqla həyata keçirilir. Belə ki, QKU-da professor-müəllim heyətinin bir ştat üzrə illik dərs yükü - 500 saatdan az olmamaqla mühazirə, seminar, laborator və praktiki məşğələlərə ayrılan vaxtın həcmi illik dərs yükünün 60 faizindən az olmamaqla bölgüsü həyata keçirilir.

### *3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu*

Təhsil proqramında həyata keçiriləcək kadr hazırlığının təmin edilməsi məqsədi ilə tədris olunan fənlər 3 bloka bölünmüşdür: ümumi fənlər, ixtisas fənləri və Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər. Təhsil proqramları hazırlanarkən və hər bir ixtisas üzrə fənlərin müəyyənləşdirilməsi zamanı əmək bazarının iştirakçıları ilə məsləhətləşmələr aparılaraq, xarici nüfuzlu universitetlərin təcrübəsi öyrənilərək həyata keçirilmişdir və təhsil proqramlarının tələbləri nəzərə alınmışdır. Belə ki, hər bir ixtisas üçün müəyyənləşdirilmiş fənlər üzrə məzunlara proqram üzrə hansı bacarığı, səriştəni (PTN) verəcəyi nəzərə alınmışdır. Fənlərin təlim nəticələri Təhsil proqramının 6-cı-“Proqramın və hər bir fənnin təlim nəticələri” bəndinə uyğun hazırlanmış və müəllimlərin sillabuslarında öz əksini tapmışdır.

### *3.2.8. Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu*

Universitetdə Təhsil proqramlarının tələblərinə müvafiq olaraq tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saat nəzərdə tutulmuşdur. Tədris planlarında dərs saatları kredit sisteminin tələbləri də nəzərə alınaraq həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50 %-dən çox olmamaq şərtilə hesablanmışdır. Bülə ki, Tədris planlarının hazırlanması zamanı tələbələrin həftəlik dərs saatları 22,5 saatı aşmamaqla mövcud təhsil proqramının qarşıya qoyduğu tələbələr qorunub saxlanılmışdır.

### *3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı.*

QKU-da mövcud təhsil proqramları və onun əsasında hazırlanmış tədris planlarının təlim nəticələri ictimaiyyət üçün əlçatanlılığının təmin edilməsi məqsədilə rəsmi internet səhfəsində yerləşdirilmişdir (https://wcu.edu.az/az, https://wuaz.sharepoint.com/sites/TestSite).

### *3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti.*

Təhsil proqramlarının hazırlanmasına 2019-cu ildən başlanılmış və 2020-ci ildə Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir. Təhsil proqramlarının hazırlanması prosesinə əmək bazarının çoxsaylı iştirakçıları dəvət olunmuşdur. Bu prosesdə işəgötürənlərin tövsiyələri maksimum dərəcədə nəzərə alınmışdır. İqtisadiyyat və idarəetmə ixtisasları qrupu üzrə Dövlət Təhsil Proqramları və digər Təhsil Proqramları hazırlanarkən əmək bazarının nümayəndələrinin məsələn: Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə nazirliyi, Mərkəzi Bank, Ernst and Young, Deloitte, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Dövlət Statistika Komitəsi, SOCAR, KPMG, Kapital Bank, Baker Tilly kimi nüfuzlu şirkət və dövlət strukturlarının təklifləri nəzərə alınmışdır. Bu Təhsil Proqramlarında “Karyera planlaması”, “Yumşaq bacarıqlar (Soft skills)”, “Sərt bacarıqlar (Hard skills)” kimi təcrübi fənlərin tədrisi nəzərdə tutulmuşdur ki, bu fənlərin də əsasən əmək bazarının iştirakçılarının tədris etmələri nəzərdə tutulmuşdur.

## *3.3 Tədrisin təşkili*

### *3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti*

Bakalavriat səviyyəsi üçün tədris planları hazırlanarkən AR NK-nın 348 saylı qərarının tələblərinin qarşıya qoyduğu normativlər qorunmaqla hazırlanmışdır. Belə ki, bir kredit 30 saat götürülməklə hər semestr ərzində 30 kredit tələbi nəzərə alınmışdır. Ümumilikdə tələbələrin məzun olmaları üçün 240 kredit toplamaları şərti Tədris Planlarının tərtib edilməsi zamanı Təhsil Proqramının tələbinə uyğun hazırlanmışdır. Bu tələblər magistr səviyyəsi üçün də keçərli olmuş, hər semestr 30 kredit müəyyənləşdirilmiş və təhsil müddəti 2 il nəzərdə tutulduğu üçün magistrlarin məzun olmaları üçün ümumilikdə 120 kredit tələbi qorunub saxlanılmışdır.

Müvafiq tədris planları Elm və Təhsil Nazirliyinin 2014-cü il 21 yanvar tarixli 40 nömrəli əmri ilə təsdiq edilmiş formaya uyğun tərtib edilmiş, Elmi Şurada müzakirə edilərək təsdiq olunmuşdur.

### *3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti*

QKU-da təhsil proqramlarına uyğun hazırlanmış tədris planlarına əsasən həm bakalavriat həm də magistratura səviyyələri üzrə fənlərin prekvezitliyi və korrekvezitliyi nəzərə alınmaqla tədris qrafikləri (Forma 2) kafedra və fakültələrdə hazırlanaraq Tədrisin Təşkili və İdarə Olunması Mərkəzinə təhvil verilmişdir.

### *3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti*

Təhsil Proqramının tələblərinə uyğun olaraq bakalavriat səviyyəsində fənlər Tədris Planlarında üç bloka bölünmüşdür. Bu bloklara Ümumi fənlər, İxtisas fənləri və ATM tərəfindən müəyyən edilən fənlər (seçmə fənlər) aiddir. Ümumi fənlər bloku öz növbəsində iki yerə ayrılır: məcburi fənlər 24 və seçmə fənlər 6, (ümumilikdə 30 AKTTS). İxtisas fənlərinə ümumilikdə 120 AKTTS və ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərə 60 AKTTS ayrılmışdır, Təcrübəyə və bununla bağlı fənlərə isə 30 AKTTS müəyyən edilmişdir.

Magistratura səviyyəsində İqtisadiyyat və idarəetmə, texniki və texnoloji ixtisasları üzrə hazırlanmış Tədris planlarında ixtisas fənləri blokuna 60 AKTS (məcburi fənlərə 12, ATM tərəfindən müəyyən edilən fənlərə isə 48 AKTTS), Təcrübə və tədqiqat blokuna isə 60 AKTTS müəyyən edilmişdir.Texniki və texnoloji ixtisaslarda 14 kredit humanitar fənlərə (12 kredit məcburi 2 kredit seçmə), 76 ixtisas fənləri bölümünə (52 kredit məcburi 24 kredit seçmə) elmi tədqiqat işlərinin hazırlanmasına18 kredit və təcrübələrə isə hər biri 6 kredit olmaqla 12 kredit ayrılır

### *3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti*

QKU-da Tədris Planları hazırlanarkən Ümumi və İxtisas fənləri blokuna ayrılan kredit həcmi və fənlərin sayı AR Elm və Təhsil Nazirliyinin F-343 nömrəli, 09.07.2020-ci il qərarı, F-363 nömrəli 07.08.2020-ci il tarixli qərarı, F-354 nömrəli 30.07.2020-ci il qərarı və F-383 nömrəli 24.08.202-ci il tarixli qərarları ilə təsdiqlənmiş “Bakalavriat səviyyəsinin (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə Təhsil Proqramları”nın tələblərinə uyğun hazırlanmışdır. Müvafiq balansın saxlanılması tələbələrin Təhsil proqramları üzrə ümumi və peşə kompetensiyalarına yiyələnmələrinə və keyfiyyətli mütəxəssis hazırlığına əlverişli şərait yaradır.

### *3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti.*

QKU-da hadr hazırlığı aparılan Təhsil Proqramlarında hər fənn üzrə gözlənilən təlim nəticələri müəyyən edilmişdir. Ayrı-ayrılıqda Təhsil proqramında yer alan fənlər üzrə ən azı 6 gözlənilən təlim nəticələri müəyyənləşdirilmişdir ki, bunlar da məzunların əldə edə biləcəkləri səriştə, bacarıq və bunun əsasında müəyyən kompetensiyalara yiyələnmələrinə hesablanmışdır. Universitetdə ixtisaslar üzrə tədrisi həyata keçirilən fənlərin təlim nəticələri müəllimlərin sillabuslarında ixtisasın təlim nəticələri ilə əlaqələndirilmişdir. Həmçinin, tədris prosesində iqtisadiyyatda baş verən dəyişikliklərə və onun inkişaf dinamikasına uyğun müvafiq strukturlar və daxili keyfiyyət sistemi vasitəsilə daim nəzarət edilir və uyğun olmayan təlim nəticələri yenisi ilə əvəz edilərək təkmilləşdirilir.

### *3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti*

Universitetdə sillabuslar ayrı-ayrı dillər üzrə tədris aparan müvafiq kafedraların professor müəllim heyəti tərəfindən hazırlanır. Fənlər üzrə sillabuslar ixtisas üzrə məzunun əldə edəcəyi peşə kompetensiyaları, fənnin və təhsil proqramının təlim nəticələri nəzərə alınmaqla hazırlanır. QKU-da yeni və köhnə təhsil proqramlarında və tədris planlarında olan fənlər üzrə sillabusların hazırlanması zamanı bu sahədə yeniliklər, xarici və yerli mütəxəssislərin təlimləri nəticəsində əldə olunan biliklər də nəzərə alınır. Hazırlanmış sillabuslarda təlim nəticələrinin öz əksini tapmasına mütamadi olaraq fakültələr və kafedralar tərəfindən nəzarət edilir.

Rektorun F 22/6/Ü nömrəli 10.07.2020 tarixli əmri ilə yaradılmış monitorinq bölməsi tərəfindən isə Universitet üzrə təlim nəticələrinin əlaqələndirilməsi üzrə ümumi nəzarət həyata keçirilir.

***3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti***

Tələbənin 5 günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. QKU-da həftəlik auditoriya saatlarının həcmi isə 22,5 saat-dan çox olmamaq şərtilə nəzərdə tutulmuşdur. Digər 22,5 saatı isə tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verir. Magistratura səviyyəsində həftəlik dərs yükü 12-16 saat nəzərdə tutulmuşdur.

Onu da qeyd etmək lazımdır ki, ixtisaslar üzrə dərs cədvəllərində həftəlik optimallaşdırmalar aparılaraq 4-5 günlük iş rejimi təşkil edilmişdir ki, bu da tələbəyə əlavə olaraq bakalavr tələbələrinə dərsdənkənar məşğələlərə vaxt ayırmasına, magistr tələbələrinə əlavə tədqiqat aparmağa imkan yaradır.

***3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti.***

QKU-da tələbələrin Fərdi Tədris Planları AR NK-nın 348 saylı qərarında qeyd edilən 3.3 "Tələbənin fərdi tədris planının tərtibi" bəndinə əsasən hazırlanır. Hər tədris ili üçün ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki əsasında tələbənin fərdi tədris planı hazırlanır və hal-hazırda fakültələrdə saxlanılır. Qeyd olunan qanunvericiliyin tələblərinə əsasən tələbələrin fərdi tədris planları onların iştirakı və akademik məsləhətçilərin (tyutorlar) köməyi ilə hazırlanır.

***3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti***

Kredit sisteminin tələblərinə uyğun ali təhsil müəssisəsi tərəfindən ixtisasın (ixtisaslaşmanın) Təhsil Proqramı əsasında ixtisasın (ixtisaslaşmanın) tədris planı və ixtisasın (ixtisaslaşmanın) illik işçi Tədris Planın hazırlanır (Forma 3). QKU-da tədrisi aparılan ixtisasların tədris planlarına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, tədris olunan fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən müvafiq ixtisaslar üzrə illik işçi Tədris Planları 2016/2017, 2017/2018, 2018/2019, 2019/2020, 2020/2021, 2021/2022-ci, 2022/2023-cü tədris illəri üzrə təsdiqlənmiş, Tədrisin Təşkili və İdarə Olunması Mərkəzi və fakültələrdə saxlanılır.

***3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti***

Müəllimin illik işçi tədris planı (Forma 5) kafedra iclaslarında və fakültə Elmi Şuralarında müzakirə edilərək təsdiq olunur. Bir nüsxəsi müəllimə təqdim olunmaqla 2 nüsxədə tərtib olunur və müvafiq qaydada kafedralarda saxlanılır.

***3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)***

QKU-da tədrisin təşkili ixtisaslar üzrə Təhsil Proqramları əsasında hazırlanmış tədris planları əsasında təşkil edilir. Tədris planlarında hər bir fənnin tədrisində mühazirə, məşğələ və laboratoriya dərsləri nəzərdə tutulmuşdur. Mühazirələr birləşdirilmiş qruplarda, məşğələlər isə tədris olunan materialların daha da səmərəli mənimsənilməsi və tələbələrin hər birinin qiymətləndirilməsinin həyata keçirilməsi üçün ayrı-ayrılıqda qruplarda təşkil edilir.

Laboratoriya dərsləri əsasən texniki və texnoloji ixtisaslarda nəzərdə tutulmuşdur. Bu

dərslərin daha səmərəli təşkili ilə əlaqədar QKU-nun III tədris binasında ixtisaslaşdırılmış müasir avadanlıqlarla təhciz edilmiş 25 tədris-laboratoriyaları fəaliyyət göstərir.

### *3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti*

QKU-da akademik məsləhətçilərin fəaliyyəti AR NK-nin 348 saylı qərarı Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili qaydalarının 5-ci bəndinə əsasən təşkil edilmişdir. QKU-da tyutor məsləhət xidməti təhsilalanlarla və yeni qəbul olunan tələbələrlə görüşlərin keçirilməsi və tələbələrin kredit sistemi ilə tədrisin təşkili, biliyin qiymətləndirilməsi, tələbələrin hüquqlarının və akademik maraqlarının qorunması, FTP-lərin tərtibi üçün onlara məsləhətlərin verilməsi və tələbə-müəllim kommunikasiya sahəsində onlara məsləhətlərin verilməsindən ibarətdir.

Həmçinin, tədris olunan fənlər üzrə akademik heyət tərəfindən daimi və imtahanqabağı məsləhət saatları təşkil olunur ki, bu da tələbələrin yekun qiymətləndirməyədək keçilmiş mövzuların daha da dərindən mənimsənilməsinə xidmət edir.

### *3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti*

QKU-da müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanması AR NK-nın 348 saylı Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili qaydalarının 3.2.7.2 bəndinə müvafiq həyata keçirilir və ixtisaslar üzrə məzmun etibarı ilə fərqləndirilir. Məsələn “Dizayn” ixtisasında semestr ərzində 1 sərbəst iş tapşırığı verilir və tapşırığı yerinə yetirilməsi 10 balla qiymətləndirilir. Daxili qaydalara əsasən sərbəst iş yazılı və ya maket/şəkil formada təqdim oluna bilər. Word faylı formasında (şrift 12, həcmi minumum 12- maximum 20 səhifə) və ya təqdimat formasında (minimum 8- maximum 15 slayd) təhvil verilməlidir. Maket/şəkil formasında – A3 formatda çap edilərək tədqim edilməlidir. Hər bir sərbəst iş tələbənin fərdi fikirlərin məcmusu olduğuna görə plaqiat yol verilməzdir.

### *3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti*

QKU-da bakalavriat səviyyəsində istehsalat və magistratura səviyyəsində, elmi-pedaqoji və elmi-tədqiqat təcrübələrin təşkili və keçirilməsi NK-nın 19 sentyabr 2008-ci il tarixli 221 saylı qərarı ilə təsdiq edilmiş “Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında” əsasnaməsinə, Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş Təhsil proqramlarının tələblərinə uyğun həyata keçirilir.

Müvafiq təcrübələrin koordinasiya edilməsi məqsədilə “Tələbə və məzunların təcrübə və inkişaf mərkəzi” QKU rektorunun 14 sentyabr 2018-ci il il tarixli 21/5/Ü saylı əmr ilə yaradılmışdır. QKU-da bakalavriat səviyyəsi üzrə təhsil alan tələbələrin istehsalat təcrübəsinin təşkili və keçirilməsi qaydaları QKU EŞ-nın 28 fevral 2019-cu il tarixli iclasının EŞ – 164 saylı qərarı ilə təsdiq edilmişdir. Hazırda istehsalat təcrübəsi prosesi həmin qaydalarla tənzimlənir.

### *3.3.15 Stajkeçmənin təşkili vəziyyəti*

QKU-da müntəzəm olaraq akademik heyətin ixtisas-peşə səriştələrinin təkmilləşdirilməsilə ilə bağlı təlimlər, tədbirlər təşkil edilir, müəllimlərin bu sahədə kvalifikasiyalarının artırılmasına dəstək verilir. Məsələn, professor-müəllim heyətinin İnformasiya və Komminikasiya Texnologiyaları sahəsində zəruri bilik və bacarıqlarının artırılması ilə əlaqədar təlim keçirilmişdir. Bu tədbir Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialında təşkil edilmiş QKU-nun 7 əməkdaşı həmin tədbirdə iştirak edərək sertifikatlar almışlar.

### *3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti*

QKU-da Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 09.07.2020-ci ildə F-343 saylı F-363 nömrəli 07.08.2020-ci il tarixli qərarı, F-354 nömrəli 30.07.2020-ci il qərarı və F-383 nömrəli 24.08.202-ci il tarixli qərarları ilə təsdiqlənmiş "Bakalavriat səviyyəsinin (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə Təhsil Proqramları"nda nəzərdə tutulmadığı üçün təşkil olunmur.

### *3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti*

QKU-da buraxılış işinin hazırlanması və müdafiəsinin təşkili Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 13.03.1997-ci il tarixli 152 saylı əmri ilə "Ali məktəbin bakalavr pilləsində buraxılış işlərinin hazırlanması" məsələlərini tənzimləmək məqsədilə təsdiq edilmiş sənədi əldə rəhbər tutularaq həyata keçirilir.

Magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili AR-nın "Təhsil haqqında" Qanunu, NK-nin 2010-cu il 12 may tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları", NK-nın 24 iyun 2010-cu il № 117 saylı qərarı ilə təsdiqlənmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları", Elm və Təhsil Nazirliyinin 20 aprel 1998-ci il tarixli əmri ilə təsdiq edilmiş "Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə", Elm və Təhsil Nazirliyinin 2016-cı il 30 sentyabr tarixli 640 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin magistratura səviyyəsində iqtisadiyyat və idarəetmə, texnologiya mühəndisliyi ixtisasları üzrə dövlət standartları", Ali təhsilin magistratura və doktorantura səviyyələrində təhsili tənzimləyən normativ-hüquqi aktlar və QKU daxili qaydaları QKU-in Magistratura və Doktorantura Şöbəsinin Əsasnaməsi, QKU-in rəhbərliyinin və Elmi Şurasının qərarı, eləcə də digər müvafiq normativ-hüquqi aktların tələbləri əsasında tərtib edilmiş "Magistr dissertasıyasının hazırlanması, təqdim edilməsi və qiymətləndirilməsi qaydaları"na uyğun olaraq həyata keçirilir.

### *3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti*

İmtahan sessiyası AR NK-nın 348 saylı qərarı ilə təsdiqlənmiş Qaydaların tələblərinə uyğun keçirilir. QKU-da payız və yaz semestri imtahanları Elm və Təhsil nazirinin payız və yaz semestri imtahanlarının keçirilməsi ilə bağlı əmrindən sonra universitet rektorunun əmri ilə təşkil olunur. Universitetdə imtahanlar yazılı, üzbəüz və test formasında həyata keçirilir.

Yazılı imtahanlar əsasən peşə hazırlığı, kompetensiya əsaslı, səriştə və bacarıq aşılayan fənlər üzrə keçirilir. İmtahan sessiyasından sonra sessiyanın nəticələrinə həsr edilmiş hesabat Universitet Elmi Şurasında müzakirə edildikdən sonra Elm və Təhsil Nazirliyinə təqdim edilir.

### *3.3.19 Yay semestrinin təşkili vəziyyəti*

QKU-da Yay semestrinin təşkili AR NK-nın 348 saylı Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili qaydalarının və Qərbi Kaspi Universitetində tədrisin kredit sistemi ilə təşkili haqqında əsasnamənin 4.7 bəndinə müvafiq aparılır.

### *3.3.20 Akademik borcu olan tələbələrin tədris illəri üzrə dinamikası*

**QKU-da 2017/2018-2022/2023-cü tədris illəri üzrə akademik borcu qalan bakalavr tələbələrinin dinamikası**

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **2017-2018 ci tədris ili** | | | | | | | | | |
| **Qış sessiyası** | | | | | **Yay sessiyası** | | | | |
| I | II | III | IV | V | I | II | III | IV | V |
| 78 | 14 | 9 | 8 | 2 | 52 | 14 | 8 | 7 | 3 |
| 111 | | | | | 84 | | | | |
| **2018-2019 ci tədris ili** | | | | | | | | | |
| **Qış sessiyası** | | | | | **Yay sessiyası** | | | | |
| I | II | III | IV | V | I | II | III | IV | V |
| 133 | 113 | 11 | 14 | - | 157 | 78 | 7 | 3 | - |
| 271 | | | | | 245 | | | | |
| **2019-2020 ci tədris ili** | | | | | | | | | |
| **Qış sessiyası** | | | | | **Yay sessiyası** | | | | |
| I | II | III | IV | V | I | II | III | IV | V |
| 194 | 109 | 77 | 17 | - | 4 | 10 | 6 | - | - |
| 397 | | | | | 20 | | | | |
| **2020-2021 ci tədris ili** | | | | | | | | | |
| **Qış sessiyası** | | | | | **Yay sessiyası** | | | | |
| I | II | III | IV | V | I | II | III | IV | |
| 15 | 49 | 56 | 26 | - | 108 | 130 | 125 | 8 | |
| 146 | | | | | 371 | | | | |
| **2021-2022 ci tədris ili** | | | | | | | | | |
| **Qış sessiyası** | | | | | **Yay sessiyası** | | | | |
| I | II | III | IV | V | I | II | III | IV | V |
| 152 | 115 | 120 | 85 | 1 | 151 | 89 | 92 | 11 | - |
| **473** | | | | | **343** | | | | |
| **2022-2023 ci tədris ili** | | | | | | | | | |
| **Qış sessiyası** | | | | | **Yay sessiyası** | | | | |
| I | II | III | IV | V | I | II | III | IV | V |
| 117 | 87 | 60 | 50 | 5 | 64 | 36 | 18 | 2 | |
| 319 | | | | | 120 | | | | |




Qrafikdən göründüyü kimi post pandemiya dövründə ənənəvi tədris prosesinə adaptasiya şəraitində akademik borcu qalan bakalavr tələbələrinin sayında artım dinamikası izlənilsə də, 2022/2023-cü tədris ilində müvafiq göstərici müsbət yöndə aşağı düşmüşdür.

**QKU-da 2017/2018-2022/2023-cü tədris illəri üzrə akademik borcu qalan magistr tələbələrinin dinamikası**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **2017-2018 ci tədris ili** | | | | **2018-2019 ci tədris ili** | | | |
| **Qış sessiyası** | | **Yay sessiyası** | | **Qış sessiyası** | | **Yay sessiyası** | |
| I | II | I | II | I | II | I | II |
| - | - | 1 | 1 | 3 | - | 2 | - |
| - | | 2 | | 3 | | 2 | |
| **2019-2020 ci tədris ili** | | | | **2020-2021 ci tədris ili** | | | |
| **Qış sessiyası** | | **Yay sessiyası** | | **Qış sessiyası** | | **Yay sessiyası** | |
| I | II | I | II | I | II | I | II |
| 14 | 8 | - | - | 2 | - | 8 | - |
| **22** | | **-** | | **2** | | **8** | |
| **2021-2022 ci tədris ili** | | | | **2022-2023 ci tədris ili** | | | |
| **Qış sessiyası** | | **Yay sessiyası** | | **Qış sessiyası** | | **Yay sessiyası** | |
| I | II | I | II | I | II | I | II |
| 9 | 7 | 4 | - | 15 | 5 | 10 | - |
| 16 | | 4 | | 20 | | 10 | |




*3.3.21 Akademik borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası*




**QKU-da 2017/2018-2022/2023-cü tədris illəri üzrə bakalavriatura pilləsində akademik borcu yaranmış fənlərin dinamikası**

Qrafikdən göründüyü kimi post pandemiya dövründə ənənəvi tədris prosesinə adaptasiya şəraitində akademik borcu yaranmış fənlərin bakalavriatura pilləsi üzrə sayında sürətli artım dinamikası (2 dəfədən çox) izlənilsə də, 2022/2023-cü tədris ilində müvafiq göstərici müsbət yöndə aşağı düşmüşdür.




**QKU-da 2017/2018-2022/2023-cü tədris illəri üzrə magistratura pilləsində akademik borcu yaranmış fənlərin dinamikası**

***3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti.***

Universitetdə tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi əsasən aşağıdakı Təhsil qanunverciliyi aktlarına və daxili prosedurlara əsasən tənzimlənir:

❖ Dərs saatlarının bölgüsü və onun Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu AR NK-nın “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili qaydaları”nın 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı və 24 noyabr 2010-cu il 215 saylı qərarı ilə təsdiqlənmiş “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normaları”nın tələbləri qorunmaqla həyata keçirilir.

❖ Professor-müəllim heyətinin bir stavka üzrə illik dərs yükü - 500 saatdan az olmamaqla mühazirə, seminar, laborator və praktiki məşğələlərə ayrılan vaxtın həcmi illik dərs yükünün 60 faizindən, az olmamaqla bölgüsü həyata keçirilir. Saathesabı dərs yükü 240 saat olmaqla tətbiq edilir.

❖ Tədrisin təşkili tədris planlarında olan fənlərin sillabuslarına və fənn proqramlarına uyğun həyata keçirilir. Mühazirə və məşğələ dərsləri 2 akademik saat olmaqla təşkil olunur.

❖ Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi ilə əlaqədar QKU üzrə umumi və hər fakültə üzrə ayrı-ayrılıqda monitorinq qrupları yaradılmışdır. Keçirilmiş monitorinq nəticələri üzrə aidiyyəti fakültələrdə müzakirələr keçirir, bu zaman müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması ilə bağlı təkliflər hazırlanır və gələcəkdə bu qüsurlar aradan qaldırılır.

❖ Bu prosesin səmərəliliyinin artırılması ilə əlaqədar kafedra əməkdaşlarının açıq dərsləri təşkil olunur. Açıq dərslərin kafedra iclaslarında müzakirəsi həyata keçirilir.

### *3.4 Tədris metodları və üsulları*

***3.4.1. Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti.***

Universitetdə kadr hazırlığı həyata keçirilən ixtisaslar üzrə Təhsil planlarının tələblərinə əsassən 2017/2018-2022/2023-cü tədris illərində təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə edilir. Belə ki, innovativ, yaradıcı və interektiv metodlardan olan – frontal sorğu metodundan, ev tapşırıqlarının cavablandırılması üzrə qiymətləndirmə metodundan, test tapşırıqları əsasında Quizizz.com, Google Forms kimi onlayn tətbiq vasitələrindən,tədris metodundan mühazirə və məşğələ dərslərinin təşkilində istifadə edilir. Təlim nəticələrinin əldə olunmasını təmin edən Distant, Hibrid, Modul əsaslı müasir təlim texnologiyalarından da istifadə edilir.

### 3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

Universitetdə tədris prosesi fənnlər üzrə proqramlar, kompentasiya əsaslı nəzəriyyə və praktiki tətbiqləri özündə əks etdirəcək bilik və bacarıqlar üzrə qurularaq həyata keçirilir. Bununla yanaşı, spesifik fənlər üzrə nəzəri biliklərin praktiki tətbiqlər üzrə tədrisin təşkil edilməsi üçün 9 sayda laboratoriya mövcuddur. Texniki və texnoloji ixtisasalar üzrə fənlərin tədrisində praktiki bacarıqların inkişafı üçün virtual laboratoriyalardan, virtual maşınlardan, beynəlxalq platformalardan, CTF yarışlarından və olimpiadalardan da istifadə edilir. Fənnin spesifikliyindən asılı olaraq kompyüter laborotoriyalarında müxtəlif kompyüterlər - VirtualBox, VMware Workstation, Cisco Paket Tracer, NotePad++, Microsoft Visual Studio, Python, TryHackMe platforması, HackTheBox platforması, Kali linux, Parrot ƏS, Fedora ƏS, CentOS, Gns3, Microsoft Project, Sketch Adobe İllustrator CC proqramları ilə təchiz olunmuşdur. 38 nömrəli laboratoriya (19 PC ) 28 nömrəli laboratoriya (20 PC) 11 nömrəli laboratoriya (19 PC ) 04 nömrəli laboratoriya (9 PC ) 05 nömrəli laboratoriya (69 PC ) 06 nömrəli laboratoriya (29 PC ) 21 nömrəli İnkubasiya laboratoriyası (8 PC, 6 notebook ) 03 nömrəli Robotexnika Mühəndislik laboratoriyası (4 PC ) 02 nömrəli Hakaton laboratoriyası (1 PC, 7robot ) mövcuddur.

### 3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

Əyani və qiyabi təhsil formalarının spesifikliyindən asılı olaraq müasir tədris metodlarından istifadə etməklə tədris prosesi təşkil edilir. Belə ki, əyani təhsil forması üzrə 3.4.1 indikatorunda qeyd edilən müasir təlim metod və texnologiyalarından istifadə edilməklə tədris prosesinin təşkili haqqında məlumat öz əksini tapmışdır. Qiyabi təhsil forması üzrə isə Quizizz.com, Google Forms, istifadə edilməklə tədris prosesi təşkil edilir.

### 3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti

Universitetdə Distant, Hibrid, Modul, Layihə əsaslı öyrənmə təlim metodu, problem əsaslı öyrənmə təlim metodu, beyin həmləsi, Quizizz, Google forms və s. bu kimi müasir metodlardan aidiyyəti ixtisaslar üzrə istifadə edilir və bu təhsilalanların motivasiyalarının artmasına və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsinə olduqca müsbət təsir göstərir.

### 3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

QKU-da Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış müasir tədris metodlarının və üsullarının tətbiq edilməsi dekanlıqlar və digər struktur bölmələrin köməkliyi ilə təşkil edilir. Belə ki, tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq dərs materialları, fənnin mövzuları üzrə qısaldılmış videoyazılar, audiomühazirələr, semestr ərzində dərslərində iştirakı ilə bağlı çətinlik yaranan tələbələr üçün hibrid (həm oflayn, həm onlayn) formada dərslərin təşkil edilməsi həyata keçirilir.

### 3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

QKU-da Elektron Tədris Platforması 2015-ci ildən etibarən mərhələli şəkildə tətbiq olunur. Sistemin alt sistemi olan müəllim və tələbə kabineti vasitəsilə tələbələrə dərs vəsaitləri, mühazirə mətnləri, təqdimatlar, test sualları, video və audio materiallar, müvafiq mövzuya dair əlavə materiallara keçid linklərinin əlçatanlığına şərait yaradılmışdır. Bundan əlavə dərslərdə iştirak edə

bilməyən və ya yekun qiymətləndirməyə hazırlaşan tələbələr üçün onlayn və hibrid keçirilmiş dərslərin video yazıları tələbə kabinetlərinə göndərilir. Dərs vəsaitlərinin yüklənməsi və keyfiyyətinin yoxlanması müvafiq monitorinq strukturu tərəfindən təmin edilir.

#### *3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti*

Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təmin etmək üçün tələbələrlə, fakültə rəhbərləri ilə, Tədrisin Təşkili və İdarə Olunması Mərkəzinin köməkliyi ilə təlimatlar, yeni metodun tətbiqi ilə əlaqəli videoçarxlar hazırlanaraq təqdim edilir. Həmçinin, tətbiq edilən metodların reallaşma vəziyyəti üzrə, təhsilalanların məmnuniyyətini müəyyən etmək üçün sorğular keçirilir. Sorğu anketinin cavablandırılması üzrə təhsilalanların məmnuniyyəti Tələbə Məlumat Mərkəzi tərəfindən müəyyən edilərək müvafiq tədbirlər həyata keçirilməsi üçün Universitetin aiddiyyatı strukturlarına göndərilir.

#### *3.4.8 Tədris metod və üsullarının dövrü monitorinqi və preventiv tədbirlərin sistematik qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti*

2018- ci tədris ilindən 07.12.2018-cı il tarixli 38/1/ü nömrəli əmrə əsasən QKU-da yaradılmış “Keyfiyyət analitikləri” tərəfindən dərslərdə tədris materiallarının vəziyyəti ilə əlaqədar monitorinqlər keçirilir. Monitorinq nəticələrinə əsasən aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması məqsədilə mütəmadi tədbirlər həyata keçirilmişdir.

2020-2021-ci tədris ilindən 15.12.2020-ci il tarixli 207/1/2020 nömrəli əmrə əsasən yaradılmış QKU monitorinq qrupu ilə yanaşı fakültə, məktəb və mərkəzlərdə də bu cür qruplar yaradılmışdır. Monitorinq qrupları tərəfindən hər semestr üzrə keçirilən dərslər üzrə monitorinqlər keçirilir. Monitorinq nəticələrinə əsasən aşkar edilmiş çatışmazlıqları aradan qaldırılması ilə əlaqədar müvafiq preventiv tədbirlər hazırlanır və nöqsanlar aradan qaldırılır. Monitorinq nəticələrinə əsasən ənənəvi tədrisi həyata keçirilən fənlərin də (2018-2022-ci illər üzrə 82 tədris olunan fənnin) tədris proqramları yenilənmişdir. Fənlərin yenilənmiş proqramları ilə yanaşı fənnin tədrisində vacib sayılan innovativ metodlar üzrə tədris prosesinin qurulması üzrə nümunəvi dərslər təşkil edilmişdir.

### *3.5 Təlim və tədris resursları*

#### *3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti*

QKU-da Elektron Tədris Platforması 2015-ci ildən etibarən mərhələli şəkildə tətbiq olunur. Sistemin alt sistemi olan müəllim və tələbə kabineti vasitəsilə tələbələrə dərs vəsaitləri, mühazirə mətnləri, təqdimatlar, test sualları, video və audio materiallar, müvafiq mövzuya dair əlavə materiallara keçid linklərinin əlçatanlığına şərait yaradılmışdır.

Bundan əlavə onlayn və hibrid keçirilmiş dərslərin video yazıları tələbə kabinetlərinə göndərilir. Dərs vəsaitlərinin yüklənməsi və keyfiyyətinin yoxlanması müvafiq monitorinq strukturu tərəfindən təmin edilir.

Elektron Tədris Platformasında mövcud olan müəllim (my.wcu.edu.az\) və tələbələrin şəxsi kabinetləri istifadəçi yönümlülüyü təmin etmək üçün hazırlanmış modullardır.

Pandemiya şəraitinin tələblərinə uyğun olaraq onlayn tədris materiallarının əlçatanlığı təmin edilmiş və təhsilalanların məlumatlandırılması maksimum təmin edilmişdir.

***3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti***

QKU-da 3 tədris binası üzrə 38 nömrəli laboratoriya (19 PC), 28 nömrəli laboratoriya (20 PC), 11 nömrəli laboratoriya (19 PC), 04 nömrəli laboratoriya (9 PC), 05 nömrəli laboratoriya (69 PC), 06 nömrəli laboratoriya (29 PC), 21 nömrəli İnkubasiya laboratoriyası (8 PC, 6 notebook), 03 nömrəli Robotexnika Mühəndislik laboratoriyası (4 PC), 02 nömrəli Hakaton laboratoriyası (1 PC, 7 robot) labaratoriya işlərinin görülməsi və təcrübənin artırılması ücün cihaz və avadanlıqlar ilə təchiz olunmuşdur.

***3.5.3.Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti***

QKU-da Elektron Tədris Platformasının 2015-ci ildən mərhələli şəkildə qurulması ilə birlikdə tələbələrin dərsdə iştirakının və aktivliyinin təmin edilməsi üçün elektron jurnal bölməsi fəaliyyət göstərməkdədir. Əyani dərslər zamanı tələbənin dərsdə olması onların qiymətləndirməsi müəllim tərəfindən elektron jurnalda müvafiq olaraq qaib, iştrak edir və ya bal yazılması ilə aparılır.

Hibrid və onlayn dərslərdə isə zoom platforması vasitəsilə dərsə qoşulan tələbənin dərsdə iştirak etməsi sistem tərəfindən həmin an müəyyən edilərək birbaşa elektron jurnalda genarasiyası aparılır, müəllim tərəfindən isə müvafiq balın yazılması ilə qeydiyyatı təmin edilir.

***3.5.4.Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu***

Universitetdə istifadə edilən Elektron Tədris Platforması mərhələli şəkildə sistemində mövcud olan fənn kataloqu, təqvim tematik plan bölməsi və digər mövcud bölmələr təhsil proqramlarına uyğunlaşdırılmışdır. Belə ki, fənn bölməsi vasitəsilə fənnin sillabusunun və mövzularının sistemə yüklənilməsi, təqvim tematik plan bölməsi vasitəsilə isə fənnin mövzularının ardıcıl keçirilməsi təmin edilir. Lakin proqramın tamamilə rəqəmsallaşdırılması 2024-cü ilin yay aylarında təhvil verilməsi nəzərdə tutulur, layihə texniki sənədlərin yazılması prosesi davam etdirilir.

***3.5.5.İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti***

Universitetdə ümumilikdə tədris binaları üzrə 8 kompüter laboratoriyası mövcuddur. Laboratoriyalar 205 ədəd kompüter ilə təchiz edilmiş və hamısı internetə qoşulmuşdur. Əlavə olaraq hər tədris binasında bütün auditoriyalar, oxu zalı, kitabxanalar və wi-fi zonaları hamısı internetlə təhciz olunmuş və tələbələrin istifadəsinə verilmişdir. QKU-nun kitabxana və oxu zalları ilə bərabər tələbə müzakirə otağı da internetlə təmin olunmuşdur.

| **Yüksək Texnologiyalar məktəbi** | | |
|---|---|---|
| **Otaq №** | **Adı** | **Kompüter sayı** |
| **03.fev** | İmtahan otağı | 27 |
| **5** | İmtahan otağı | 68 |
| **11** | Kompüter sinfi | 19 |
| **21** | İnkubasiya mərkəzi | 7 + 4 noutbuk |
| **28** | Kompüter sinfi | 20 |
| **38** | Kompüter sinfi | 20 |
| **İqtisadiyyat və biznes məktəbi** | | |
| **109** | Kitabxana | 19 |
| **Filologiya məktəbi** | | |
| **211** | Kompüter sinfi | 21 |

### 3.5.6. ATM-in auditoriya fondunun (kv.m.) onun tələbə sayına uyğunluğu

QKU-da bakalavriat səviyyəsi, əyani və qiyabi təhsilalma forması üzrə dərslər 2 növbədə, magistratura səviyyəsi üzrə isə axşam saatlarında (18.40-21.30) təşkil edilir.

Ümumilikdə auditoriya fondunun sahəsi 6989 kv.m. təşkil edir. Növbələr üzrə auditoriya fondunun tələbə sayına uyğunluğu cədvəldəki kimidir.

**I Korpurs**

| Növbələr | Tələbəyə düşən kv.m. |
|---|---|
| I növbə | 4.2 $m^2$ |
| II növbə | 4.17 $m^2$ |
| III növbə (magistratura) | - |
| Qiyabi | 6.2 $m^2$ |

**II Korpus**

| Növbələr | Tələbəyə düşən kv.m. |
|---|---|
| I növbə | 3.8 $m^2$ |
| II növbə | 2.69 $m^2$ |
| III növbə (magistratura) | 47.05 $m^2$ |
| Qiyabi | 10.92 $m^2$ |

**İçəri şəhər korpusu**

| Növbələr | Tələbəyə düşən kv.m. |
|---|---|
| I növbə | 5.3 $m^2$ |
| II növbə | 6.2 $m^2$ |
| III növbə (magistratura) | 6.9 $m^2$ |
| Qiyabi | - |

### 3.5.7.Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

Universitetdə ümumilikdə inzibati və akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun sahəsi 18993 kv.m-dir.. Bunun 2321 kv.m. inzibati heyətin, 1301 kv.m. isə akademik heyətin istifadəsi nəzərdə tutulmuşdur.

### 3.5.8.Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

Qərbi Kaspi Universitetinin Elmi Kitabxanası 1991-ci ildə yaradılmışdır və hazırda Universitetin informasiya və intellektual mərkəzi sayılır. Müxtəlif dillərdə çap, elektron və onlayn format olmaqla ümumilikdə 939078 kitab – dərslik, dərs vəsaiti, monoqrafiya, soraq-məlumat materialları və s. ibarət olan kitabxana fondunda 33318 çap, 15000 elektron, 890778 onlayn kitab, 11000 jurnala malik olan kitabxanaya son 6 il ərzində 2000-ə qədər müxtəlif dövri nəşrlər, tədris proqramları və digər materiallar daxil olmuşdur. Kitabxana hədiyyə, mübadilə yolu ilə, satınalma və illik abunə əsasında komplektləşdirilir. Əsasən universitetin tədris və elmi araşdırma apardığı istiqamətlərdə profilinə uyğun olaraq əldə etdiyi dərslik və elmi mənbələrlə xidmət imkanlarını genişləndirir.

Kitabxana istifadəçilərinə beynəlxalq elmmetrik bazalara, eləcə də onlayn informasiya resurslarına, illik abunə əsasında ən yeni nəşrlərin mövcud olduğu 1000-dən artıq mövzu və elm sahələrini geniş əhatə edən, mütəmadi sayı artmaqda olan kitab platformasına 24/7 giriş və istifadə imkanı təmin etməklə yanaşı, elmi jurnal məqalələri, konfrans materialları, dissertasiyalar, elmi-kütləvi dərgilər, dövri mətbuat nümunələri və digər informasiya resursları təqdim edir.

Hazırda kitabxana akademik heyət olaraq 156 nəfər, təhsilalanlardan isə 4341 nəfər (cari ilin məzunları da daxil olmaqla) qeydiyyatda olan oxucu sayına malikdir. Kitabxanada oxuculara göstərilən xidmət üzrə statistik məlumatlar aşağıdakı cədvəldə və qrafikdə göstərilmişdir:

| İllər üzrə | Kitabxanadan istifadə (çap və elektron daxil omaqla) |
|---|---|
| 2018 | 5745 |
| 2019 | 10800 |
| 2020 | 1143 |
| 2021 | 7535 |
| 2022 | 3327 |
| 2023 | 3696 |




**İllər üzrə kitabxanadan istifadənin dinamikası**

| İllər üzrə | Ənənəvi kitabxanadan istifadə | Elektron kitabxanadan istifadə |
|---|---|---|
| 2017 | 67400 | 15288 |
| 2018 | 68000 | 8726 |
| 2019 | 147520 | 49223 |
| 2020 | 26637 | 37007 |
| 2021 | 49459 | 24250 |
| 2022 | 271988 | 72554 |

### *3.5.9.ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası*

QKU-nun kitabxana fondunda illər üzrə müxtəlif dillərdə çap, elektron və onlayn olmaqla ümumilikdə 491029 dərslik və dərs vəsaiti mövcuddur. Dərslik və dərs vəsaiti ümumi mövcud kitab sayına nisbəti (491029/939078) 0.52 təşkil edir. Bu, ümumi ədəbiyyat sayının təxminən yarısına bərabərdir.Universitetin kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitlərinin (elektron və çap şəklində) artım dinamikası isə aşağıdakı cədvəldə göstərilmişdir.

| İllər üzrə | Kitabxanaya daxil olmuş ədəbiyyat sayı (çap formatında) | Daxil olan kitablar (elektron və onlayn formatda) | Dərslik və dərs vəsaiti (çap və elektron formatda) |
|---|---|---|---|
| **2018** | 4262 | 2008 | 2180 |
| **2019** | 2630 | 2355 | 1358 |
| **2020** | 812 | 3100 | 767 |
| **2021** | 639 | 2602 | 471 |
| **2022** | 1420 | 3435 | 904 |
| **2023** | 771 | 890778 | 491029 |
| **Cəmi** | **10534** | **904278** | **496709** |

Kitabxana 2023-cü ildən tələbə və müəllim heyətinə qabaqcıl beynəlxalq nəşriyyatların onlayn dərslik və kitab platforması üzərindən 890000 kitabdan 24/7 istifadə etmək imkanı yaratmışdır. Bunlardan 490000 dərslik son 6 ilin nəşrləridir:




**Kitabxanaya daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası**




**Kitabxanaya daxil olmuş ümumi ədəbiyyat sayı (çap formatında)**




**Kitabxanaya daxil olan kitablar (elektron və onlayn formatda)**

### 3.5.10.Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

Universitetdə tədris Azərbaycan, ingilis və rus dillərində aparılır. Kitabxana fondu komplektləşdirilərkən müvafiq olaraq tədris dilləri nəzərə alınır. Hazırda kitabxana çap formatında Azərbaycan dilində 10268, rus dilində 12317, ingilis dilində 9015 kitab, rus və ingilis dilində 8550 elektron, ingilis dilində onlayn formatda 730778 kitab sayına malikdir:

| İllər üzrə | Çap formatda kitabların sayı | Elektron və onlayn formatda kitabların sayı | Bədii ədəbiyyatın sayı (çap və elektron) | Monoqrafiyaların sayı | Digər tədris dillərində olan ədəbiyyatın sayı (rus, ingilis) |
|---|---|---|---|---|---|
| **2018** | 27046 | 3508 | 3160 | 2750 | 20195 |
| **2019** | 29676 | 5863 | 3310 | 2988 | 20551 |
| **2020** | 30488 | 8963 | 3694 | 3176 | 20758 |
| **2021** | 31127 | 11565 | 3824 | 3262 | 20950 |
| **2022** | 32547 | 15000 | 4139 | 3459 | 21165 |
| **2023** | 33318 | 890778 | 9375 | 3580 | 21332 |

### 3.5.11.ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

QKU-da dərsliklər, elmi ədəbiyyatlar və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası aşağıdakı qrafikdə əks olunmuşdur.




**QKU-də dərsliklər, elmi ədəbiyyatlar və elmi bazalardan istifadə üçün illər üzrə ayırılan vəsaitin həcminin artım dinamikası**

### 3.5.12.Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

QKU-da tədrisin keyfiyyətinin yüksəldilməsi ilə bağlı həyata keçirilməli olan tədbirlərin istiqamətlərini müəyyən etmək üçün hər tədris ilində Monitorinq bölməsi tərəfindən tədbirlər həyata keçirilir. Monitorinqlər tədris prosesinin təşkili ilə yanaşı, tədris resurslarının istifadəsi və yenilənməsi üzrə də keçirilir. Monitorinq zamanı aşkar edilmiş çatışmazlıqlar üzrə tədbirlər - fənlər üzrə proqramlarının kompetensiya əsaslı qurulması, müasir dərsliklərin yenilənməsi, müasir təlim metod və texnologiyalar üzrə aparılır.

Monitorinq nəticəsində ki, 2019/2020-ci tədris ilində ənənəvi dərslər üçün 19 fənn proqramının yenilənməsi ehtiyacı müəyyən edilmiş və həyata keçirilmişdir.

### 3.5.13.Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

QKU-da bütün fənlər üzrə tədris materialları (sillabus, mühazirə mətnləri, təqdimatları və dərsliklər) mövcuddur. Qeyd edilən tədris materialları elektronlaşdırılaraq tələbələrin şəxsi kabinetinə yerləşdirilir. Hər tədris ilində tədris materiallarının tələbələr üçün əlçatanlığını təmin etmək üçün monitorinqlər həyata keçirilir, monitorinq nəticələrinə uyğun aidiyyəti üzrə kafedralara məlumatlar təqdim edilir və bütün tədris materialllarının tələbələrin şəxsi kabinetlərinə yerləşdirilməsi təmin edilir.

### *3.5.14. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti*

QKU-nun əsas məqsədlərindən biri sağlamlıq imkanları məhdud tələbələrin təhsil imkanlarının artırılmasından və təhsilə tam inteqrasiya edilməsindən ibarətdir. Dekanlıqlar və digər struktur bölmələr fiziki məhdudiyyətli insanların ali təhsilə cəlb olunması, onların təhsilinə mane olan məhdudiyyətlərinin aradan qaldırılması və həmin tələbələrin cəmiyyətə inteqrasiyasının gücləndirilməsi istiqamətində maarifləndirmə işlərini həyata keçirir və bu zaman sağlamlıq imkanı məhdud şəxslər üçün tədrisin təşkilinə müasir tələbləri də ön plana çəkirlər.

### *3.5.15. Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti*

Tədris ilinin hər semestri üzrə keçirilən dərslər üzrə monitorinqlər aparılır. Hər semestr üzrə keçirilən monitorinq nəticələri ümumləşdirilməklə tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində aidiyyəti üzrə tədbirlər görülür. Müxtəlif tədris illərində monitoriq nəticələrinə əsasən təlim və tədris resurlarının təkmilləşdirilməsi məqsədilə aşağıdakı təlim və tədbirlər görülmüşdür:

| № | Tədris ili | Tədbir və ya təlimin adı | Akademik heyətinin iştirakı (fazilə) |
|---|---|---|---|
| 1 | 2017/2018 | Tədris materiallarının keyfiyyətinin yüksəldilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması | 43 % |
| | | Tədqiqat dizaynı və metodları, ədəbiyyatın nəzərdən keçirilməsi və tədqiqat suallarının inkişaf etdirilməsi | |
| 2 | 2018/2019 | Elmi məqalələrin yazılması qaydaları. | 42 % |
| | | Beynəlxalq jurnallara məqalələrin göndərilməsi qaydaları | |
| | | Tələbə nəaliyyətlərinin artırılması yönümlü müasir tədris metodları | |
| | | Tələbələrin biliyinin qiymətləndirilməsində müasir və motivasiya əsaslı metodlardan istifadə | |
| | | Sərbəst işlərin (tapşırıqların) müəyyən edilməsi və qiymətləndirilməsinin effektiv metodları | 40% |
| | | Seminar dərslərində tələbələrin bilik və bacarıqlarını qiymətləndirmə metodları | 32% |
| | | Tədris prosesində motivasiyanı təmin edən üsullar və onların tətbiqi | |
| | | Auditoriyalarda liderlik və komandalarla işləmə bacarıqlarının tətbiq edilməsi | |
| 3 | 2019/2020 | İKT sahəsində istifadəçi bacarıqlarının təkmilləşdirilməsi | 44% |
| | | Distant dərslərin evdən keçirilməsi qaydaları üzrə | 100% |
| | | Tədris və attestasiya materiallarının tərtibində müasir yanaşmalar | 29% |
| | | Sillabusun tərtib edilməsi, məzmunu və strukturuna qarşı tələblər | 90% |
| | | Distant təhsildə tədrisin təşkili və metodik təminatı | 92% |
| | | Professor - müəllim heyətinin elmi və metodik fəaliyyətinin təkmilləşməsi | 41% |
| | | Mühazirə mətnlərinin hazırlanması qaydaları | 90% |
| 4 | 2020/2021 | Pedaqoji fəaliyyətdə müasir tədris üsulları | 24% |
| | | Məşğələ dərslərində biliyin qiymətləndirilməsi metodları | 72% |
| 5 | 2021/2022 | İngilis dilinin tədrisinin təkmilləşdirilməsi istiqamətində | 30 % |
| 6 | 2022/2023 | Əmək qanunverciliyinin Karyera Mərkəzində rolu-pramida effekti | 42% |

### *3.5.16. Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu*

QKU-da tələbələrin sosial, mədəni və idman fəaliyyətlərinin təmin edilməsi üçün hazırda 11 sayda tələbə təşkilatları fəaliyyət göstərir:

- Tələbə Gənclər Təşkilatı;
- QKU Könüllüləri Təşkilatı;
- Tələbə Həmkarlar İttifaqı Komitəsi;

- Tələbə Elmi Cəmiyyəti;
- “Gənc Filosoflar Klubu”;

Bundan əlavə QKU idman klubunda Futbol, Voleybol, Basketbol, Badminton, Şahmat, Dama, Stolüstü tennis, Gimnastika, Sərbəst güləş, Fitness, Səmti müəyyənetmə idman növləri üzrə komandalar mövcuddur və respublika səviyyəli yarışlarda iştirak edirlər:
https://www.facebook.com/photo/?fbid=4356856271028380&set=pcb.4356866407694033
https://www.facebook.com/photo/?fbid=4360370600676947&set=pcb.4360381880675819
https://www.facebook.com/photo/?fbid=4572196519494353&set=pcb.4572199102827428
https://www.facebook.com/photo/?fbid=4597736203607051&set=pcb.459773740694026

### *3.5.17. Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti*

16.09.2022-ci il tarixdə QKU-nun akt zalında "imtahan qabağı stress və onun aradan qaldırılma yolları" Psixoloji xidmət mövzusunda təlim keçirmişdir.18.05.2023-cü ildə isə CBİS psixoloji mərkəzi tərəfindən “Yumşaq qabiliyyət” mövzusunda təlim keçirilmişdir.

## *3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

### *3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti.*

QKU-da təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi sistemi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili” Qaydalarının tələbləri əsasında formalaşdırılmışdır. Qiymətləndirmə sistemi formalaşdırılarkən effektivlik,  obyektivlik və şəffaflıq prinsiplərinə istinad olunmuşdur. Bu yanaşmada başlıca məqsəd təhsilalanlarda nəzəri biliklərlə yanaşı praktiki bacarıqların formalaşdırılmasıdır. Qiymətləndirmə sisteminin əsasını formalaşdıran qaydalar Elmi Şuranın qərarları ilə müəyyən edilir. Ümumulikdə Universitetdə qiymətləndirmə cari və aralıq qiymətləndirmə mərhələlərindən ibarət olmaqla 100 ballıq sistemə əsaslanır. Semestr ərzində həyata keçirilən cari qiymətləndirmə fənlərin spesifik tədrisi formalarına müvafiq olaraq fərqli attestasiya üsullarından istifadə etməklə həyata keçirilir və ümumilikdə 50 balın formalaşdırılmasını təmin edir. Qalan 50 balın formalaşdırılması isə aralıq qiymətləndirmə mərhələsində -  sessiya imtahanları əsasında formalaşdırılır.

### *3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti*

QKU-da təhsilalanların bilik və bacarıqlarının  qiymətləndirilməsi müxtəlif attestasiyalardan -  test və yazılı üsullarından istifadə edilməklə, habelə qabiliyyət imtahanları vasitəsilə 100 ballıq şkala üzrə həyata keçirilir. Magistratura səviyyəsində də qiymətləndirmə yazılı və test üsulda həyata keçirilir. Bakalavriat səviyyəsində qeyd olunan üsullarla yanaşı, xarici dil fənləri üzrə qiymətləndirmə üçün müxtəlif bacarıqları ehtiva edən qiymətləndirmə (danışıq, yazı, dinləmə, qrammatıka, oxu) - “kombinə olunmuş üsul” tətbiq edilir.

Ümumilikdə qiymətləndirmə zamanı “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında ƏSASNAMƏ” ilə müəyyən edilən meyarlara istinad olunur.

### *3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti*

QKU-da təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsinin üz-üzə və məsafədən keçirilməsi üçün müvafiq texniki imkanlar mövcuddur. Qiymətləndirmə əsasən mərkəzləşdirilmiş

formada imtahan zallarında keçirilir. Qabiliyyət imtahanları bütünlüklə, xarici dil fənlərində isə danışıq bacarığı üzrə qiymətləndirmə üz-üzə keçirilir. Zərurət yarandığı hallarda qiymətləndirmə məsafədən də həyata keçirilir. Belə ki, pandemiya dövründə qiymətləndirmələr bütünlüklə məsafədən keçirilmişdir. Hal-hazırda pandemiya məhdudiyyətləri ilə əlaqədar ölkəyə gəlməsinə icazə verilməyən əcnəbi təhsilalanlar üçün imtahanların məsafədən keçirilməsi davam etdirirlir. Qeyd olunanlarla yanaşı cari qiymətləndirmə üzrə bəzi attestasiyalar onlayn formada keçirilir. Ümumilikdə təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsinin imtahan zallarında və bu məqsədlə nəzərdə tutulmuş auditoriyalarda keçirilməsinə üstünlük verilir.

### *3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti*

Bakalavriat səviyyəsində fənlər üzrə attestasiyalar Elmi Şuranın müvafiq qərarı əsasında təsdiq edilən fənn siyahılarına müvafiq olaraq test, yazılı və şifahi üsullarda, magistratura səviyyəsində isə yazılı və test üsullarında keçirilir. Test üsulunda attestasiya olunan fənlər üzrə imtahanlar mərkəzləşdirilmiş qaydada elektron formada keçirilir. Bu imtahanlar zamanı ədalətliliyin təmin olunması üçün tələbələrə təqdim edilən testlərin kompyuter tərəfindən seçimi tətbiq edilir. Belə ki, elektron imtahan sisteminə imtahan vermək məqsədilə daxil olan hər bir tələbəyə proqramın alqoritminə uyğun olaraq kompüter tərəfindən 50 test seçilməklə təqdim edilir. Bu imtahanlarda insan faktorunun olmaması subyektivliyi tam aradan qaldırmaqla obyektivliyin tam təmin edilməsinə imkan yaradır. İmtahanların xüsusi zallarda qruplar şəklində keçirilməsi və nəticənin imtahan bitdikdən sonra dərhal bilinməsi, imtahan nəticəsinin isə tələbənin şəxsi kabinetinə göndərilərək arxivləşdirilməsi şəfaflığı təmin edir. Qiymətin əsaslandırılması kompüter tərəfindən məhz standart bilik və bacarıq əsaslı nəticələrlə müqayisə edilir və yekun bal formalaşdırılır.

Bakalavriat səviyyəsində baza ixtisas fənləri üzrə yazılı üsulda attestasiya olunan fənlər üzrə imtahanlar kağız üzərində cavablandırma əsasında mərkəzləşdirilmiş qaydada, digər fənlər habelə magistarura səviyyəsində isə aidiyyəti struktur bölmələr tərəfindən, həyata keçirilir. Həm bakalavriat, həm də magistratura səviyyəsində imtahan sualları təhsilalanlara təqdim edilir. Bununla imtahanlar zamanı ədalətliliyin təmin olunması üçün təhsilalanlara təqdim edilən imtahan sual variantlarının məxfiliyi təmin edilir. Fənn üzrə imtahanların eyni saatda keçirilməsi mümkün olduğu halda imtahanda iştirak edən tələbələrin hamısına eyni imtahan sual variantı təqdim edilir. İmtahanlar fərqli növbələrdə keçirildiyi zaman isə hər bir növbə üzrə fərqli imtahan sual variantı təqdim olunur. Bununla yanaşı olaraq təhsilalanlara eyni imtahan saatında bir neçə imtahan sual variantının təqdim edilməsi təcrübəsindən də istifadə edilir.

İmtahan zalına daxil olan tələbələrə nəzarətçilər tərəfindən qaydalar izah olunur. Belə ki, imtahan verən tələbə aşağıdakı qaydalara əməl etməlidir:

❖ tələbə imtahan otağına daxil olub kompüterdə olan müvafiq pəncərədə öz tələbə biletinin nömrəsini və şifrəsini yızaraq “daxil ol” düyməsi ilə təsdiq edir;

❖ imtahana ayrılan vaxt sualların monitorun ekranına çıxdığı andan başlayır (vaxtı göstərən sayğac ekranın sol tərəfində yerləşdirilib);

❖ tələbə imtahan suallarının doğru hesab etdiyi variantını ekranın sağ tərəfində yerləşdirlmiş “a”, “b”, “c”, “d” və “e” hərfləri ilə işarələnmiş cavab variantlarından birini seçir və qeyd edir (cavablar təsdiq olunana qədər dəyişdirilə bilər), eyni vaxtı ona verilmiş vərəqdə həmin qeydləri aparır (imtahahdan sonra həmin vərəq tələbədə qalır).

❖ cavablarının düzgünlüyünü təsdiq etmək və imtahanı bitirmək üçün kursorla axırıncı sualdan sonra yerləşən “təsdiq etmək” düyməsini sıxır. Bu zaman “Hə” və “Yox” düymələri ekranda görünür. İmtahanı bitirmək üçün “Hə”, əgər tələbə qeyd etdiyi cavabların doğru olduğunu bir daha yoxlamaq və ya düzəliş etmək istəyirsə “Yox” düyməsini sıxıb geri qayıdır;

❖ imtahana ayrılmış vaxt bitdikdə tələbə məcburi qaydada “imtahanı bitirmək” düyməsini

basmalıdır;

❖ aldığı qiyməti monitorda gördükdən sonra tələbə imtahan otağını tərk etməlidir;

❖ qiymətindən razı qalmayan tələbə imtahan otağından çıxmadan cavabların qeyd olunduğu vərəq ilə imtahanı keçirən məsul şəxsə müraciət edə bilər.

Pandemiya dövründə təhsilalanların attestasiyası test üsulunda (qabiliyyət fənləri istisna olmaqla yalnız) distant formada həyata keçirilmişdir. Pandemiya bitdikdən sonra isə ixtisaslar üzrə baza fənlərin kağız üzərində cavablandırma əsasında ənənəvi formada (imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda) yazılı attestasiyası bərpa edilmişdir. Bununla paralel olaraq yazılı üsulda keçirilən imtahanların elektronlaşdırılması istiqamətində tədbirlər görülmüş və proqram təminatının hazırlanmasının 2022/2023-cü tədris ilində yekunlaşdırılması planlaşdırılmışdır. Proqram istifadəyə verildikdən sonra imtahanlar eyni prinsiplər əsasında kompüterlər vasitəsilə keçirilməklə kağızdan istifadə edilməsi aradan qaldırılacaqdır.

### *3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti.*

QKU-da təhsilalanların özünü qiymətləndirmə bacarığının formalaşdırılması seminar məşğələlərinin keçirilməsi zamanı baş verir. Belə ki, seminar məşğələlərində qrup daxilində bir neçə alt qrup yaradılır. Həmin alt qruplara müəllim tərəfindən suallar ünvanlanır və onlar həm müəllim tərəfindən, həm də quplar tərəfindən bir - birilərini qiymətləndirirlər. Tədris planlarında təhsil alanlar üçün audutoriyadan kənar saatların səmərəliliyini artırmaq, onların özünüqiymətləndirmə bacarıqlarının aşılanması məqsədilə fərdi tapşırıqlar verilir və bunun əsasında hazırlanmış materiallar müdafiə olunur.

### *3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti*

QKU-da 2015/2016-cı tədris ilindən fəaliyyət göstərən təhsilin elektron idarəetmə sistemi – Elektron Təhsil platforması mərhələli şəkildə fəaliyyət göstərir. Qiymətləndirmə prosesi həmin platformanın modulları əsasında təşkil edilir, keçirilir və nəticələrin qeydiyyatı aparılır.

İmtahanın gedişində kompüterdə hər hansı texniki problem (nasazlıq) yarandığı halda, imtahan verən şəxs dərhal nəzarətçiyə müraciət etməlidir. Ümumilkdə təhsilalanların cari və aralıq qiymətləndirmə üzrə bütün nəticələri vahid elektron bazada olmaqla QKU-in serverlərində saxlanılır.

### *3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti*

Sağlamlıq imkanları məhdud şəxslərə imtahan xüsusi üsullarla təşkil olunur. Görmə qabiliyyəti zəif olan tələbələrə test imtahanları zamanı şriftin böyüdülüb kağız şəkilində verilməsi, yazı qabiliyyəti məhdud olan tələbədən imtahanın şifahi şəkildə keçirilməsi, əlil (serebal iflic) tələbəyə imtahan onlayn şəkildə aparılır.

### *3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti*

Universitetdə şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsiplərinə nail olmaq məqsədilə spesifik fənlər üzrə cari və aralıq qiymətləndirmələrin keçirilməsi qaydası semestrin əvvəlində təhsilalanlara təqdim edilir. Bu qaydalar rəqabətlilik baxımından bütün təhsilalanlar üçün eyni şəraitin yaradılmasını təmin edir. Cari qiymətləndirmə üzrə qabiliyyət tələb edən fənlər fərdi iş

tapşırıqlarının yerinə yetrilməsi, aktivlik balının formalaşdırılması və kollegial qərar əsasında təmin olunur. Bu məqsədlə hər tədris ili üzrə müvafiq qiymətləndirmə komissiyası təsis olunur. Bununla yanaşı olaraq obyektivliyin təmin edilməsi baxımından apellyasiya müraciətlərinin qəbulu və cavablandırılması ümumi tələblər nəzərə alınmaqla həyata keçirilir.

### 3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 iyun 2010-cu il 117 saylı qərarı ilə təsdiqlənmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili" Qaydalarına uyğun tənzimlənir. Bakalavriat səviyyəsində yekun dövlət attestasiyası "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr səviyyəsində dövlət attestasiyası haqqında əsasnamə" ilə müəyyən edilən prosedur və tələblər əsasında dövlət imtahanı və buraxılış işlərinin müdafiəsi vasitəsilə təmin olunur. Magistratura səviyyəsində yekun dövlət attestasiyası isə "Magistr dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları" ilə müəyyən edilən tələblər əsasında yerinə yetirilir və magistr dissertasiya işlərinin müdafiəsi ilə yekunlaşır.

### 3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi nəticələri ilə bağlı hər tədris ilində 2 dəfə Elmi Şuranın iclaslarında hesabat verilir, müzakirələr keçirilir və müvafiq qərarlar qəbul edilir. Qəbul edilən qərarlar tədrisin keyfiyyət parametrlərini yüksəldilməsi və qiymətləndirmənin üsul və vasitələrinin təkmilləşdirilməsi məqsədini daşıyır. Həmçinin, sessiyanın yekunlarına dair Elm və Təhsil Nazirliyinə müvafiq keyfiyyət və müvəffəqiyyət göstəriciləri barədə hesabatlar təqdim edilir.

### 3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

Tələbələrin məlumatlandırılması məqsədi ilə Elektron Təhsil Platforması sistemi və həmin sistemin tərkibində tələbənin şəxsi kabineti yaradılmışdır. Tələbələr bütün məlumatları tələbə kabinetlərindən əldə etməklə yanaşı tələbə-müəllim kommunikasiya imkanlarından da istifadə edə bilirlər. Bununla yanaşı onlar bütün məlumatların əldə edilməsinin əlçatan olması üçün fakültə və məktəblərdə daim yenilənən elan lövhələrindən və elektron formada QKU-nun rəsmi internet saytından da faydalana bilirlər.

Bundan başqa universitetdə akademik məsləhətçilərin, tyutorların fəaliyyəti və onların tələbələrlə mütamadi əlaqələri bu məsələlərin həllini daha da əlçatan edir.

### 3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

QKU-nu bitirən məzunlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.04.2010-cu il tarixli 82 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və

onların verilməsi Qaydaları"nda qeyd edildiyi kimi bakalavr və magistr diplomları, eləcə də diploma əlavələr verilir. Diplom və əlavələr müraciət məktubu ilə Elm və Təhsil Nazirliyindən məzunların sayına uyğun təhvil alınır. QKU-da təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə Nazirlər Kabinetinin 21.01.2010-cu il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi "Qaydası"nın 1 nömrəli əlavəsində verilmiş formaya uyğun müvafiq arayış verilir. Arayışlar müraciət məktubu ilə Elm və Təhsil Nazirliyindən təhvil alınır.

## 3.7 Professor-müəllim heyəti

### 3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinatı "Ali təhsil müəssisəsində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tətbiqi barədə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 №-li əmri və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 07.08.1996-cı il tarixli 401 №-li əmrinin 1 №-li Əlavəsi ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun və eyni zamanda elmi-pedaqoji fəaliyyətlə məşğul olmaq istəyən gənclər üçün QKU-nun gənc müəllim layihələri və təhsil standartlarının yeni modelinin, eləcə də ingilis dilli tədrisə yeni yanaşmanın tətbiq edilməsi ilə əlaqədar müəllimlər üçün isə yaradılmış komissiyalarda müsahibə və açıq dərslərin keçirilməsi vasitəsilə həyata keçirilir.

### 3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

QKU-da professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan və SCOPUS bazasında yerləşən yüksək reytinqli jurnallarda Universitet adından məqalə çap etdirən professor-müəllim heyətinə birdəfəlik mükafatların verilməsi sistemi tədbiq edilir (Research & İnnovation Center, Western Caspian University. https://ric.wcu.edu.az/)

Dünyada yayılmış və həyati təhlükə yaradan koronavirus pandemiyasının insan fəaliyyətinin bütün sahələrinə, xüsusən də elm-tədris prosesinə etdiyi mənfi təsir göz önündədir. Yaranmış qlobal problemin həlli üçün müxtəlif alternativ yollar işlənir. Tədris prosesinin dayanması və xüsusi karantin tədbirləri təbii ki, təhsilin plan üzrə həyata keçirilməsinə məhdudiyyətlər yaradır. Lakin onlayn tədris və distant təhsil proqramları gənc nəslin təhsildən qalmaması üçün bir fürsətdir. Bu mənada müxtəlif fənlərin distant tədrisi üsulları, veb seminarların aparılma texnikaları, laboratoriyalardan virtual istifadə, tələbə-müəllim heyətinin psixoloji vəziyyəti və sağlamlıq göstəriciləri, elektron kitabxananın yaranmış izolyasiya şəraitində rolu və s barədə akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsi barədə təlimlər keçirilib. (wcuonline@outlook.com).

### 3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

*Akademik heyətə 2019-2021-ci illər 8 adda interaktiv və aktiv tədris metodlarının onlayn tədris proseslərinin tətbiqinə yönəlmiş təlimlər təşkil edilmişdir. Təlimlərdə təlimçi qismətində Kanadadan Dr.Feridun Hamdullahpur, Dr. Hasrat Arjjumend, Almaniyadan Dr. URS.Unkauf, pr, Floran Ruqq, Jurgen Geinen Hart, dr, Massoud Efendiyev, pr.Laszlo Jozsu, Macarıstandan, İtaliyadan Mirensu Sardina və İnmaculada Alegre cəlb edilmişdilər.*

### *3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti*

Akademik heyətdə çalışan mütəxəssislər öz ixtisas sahələrinə aid qısa və orta müddətli kurslarda iştirak etmişlər. Professor-müəllim heyətinə öz ixtisasları üzrə tədrisin metodlarının təkmilləşdiriləsi və innovativ təlimlər keçirilmişdir. Təlim proqramlarında universitetin 30-dan artıq əməkdaşı iştirak etmişdir. Eyni zamanda beynəlxalq keyfiyyət sertifikatlarının əldə etmək üçün Türk standartları inistitutu tərəfindən 12 əməkdaşa təlim keçirilərək sertifikatlaşdırılmışdır.

https://wcu.edu.az/az/news/times-higher-education-teshkilatinin-birge-teshkilatchiligi-
https://wcu.edu.az/az/news/qerbi-kaspi-universiteti-keyfiyyet-standartlari-sertifikatla

### *3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti*

Universitet akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak etməsində həm cəlbedici, həm də dəstəkləyici rol oynayır. Belə ki, müvafiq mexanizm əsasında akademik heyətin 2018-2023-cü illəri əhatə edən dövrlərdə Beynəlxalq proqram və tədbirlərdə iştirakı aşağıdakı kimi olmuşdur:

**2018-2019-cu tədris ili:**

1. Universitetimizin Tətbiqi və təbiət elmləri Məktəbinin müəllimləri - Elnarə Cəfərova, Günel Bahəddinova və Nərmin Fərzəliyeva Gürcüstanın Kaxeti vilayətində keçirilən “Ekosistem xidmətlərinin inkişaf planlamasına inteqrasiyası” adlı treyninqlərdə iştirak ediblər. 5 gün ərzində davam edən təlimlər Harvard metodologiyası ilə həyata keçirilib və əsasən dərslərin interaktiv, praktiki yolla tədrisi metodologiyalarını diqqətə çatdırıb. Təlim “Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) GmbH"-ın Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə həyata keçirilib.

2. “Türkiyənin qərb sahillərində makrobentik onurğasızların müxtəlifliyində mövsümi dəyişikliklər və ekoloji keyfiyyətin göstəriciləri” adlı elmi tədqiqat işi Türkiyənin Rəcəb Tayib Ərdoğan Universitetində aparılıb. Tədqiqatda Qərbi Kaspi və Rəcəb Tayib Ərdoğan Universitetləri ilə yanaşı Mərkəzi Balıqçılıq Elmi Tədqiqat İnstitutunun, Katib Çələbi, Egey və İstanbul Universitetlərinin mütəxəssisləri iştirak ediblər.

3. Qərbi Kaspi Universitetinin Dağ Mədəniyyətləri və Landşaftları Tədqiqat İnstitutunun nümayəndə heyəti Türkiyənin Ankara Universitetində keçirilən beynəlxalq “Qafqaz dağları forumu-2019”da iştirak edib. Forum çərçivəsində "Qafqaz tədqiqatları gündəliyi", dağların dayanıqlı inkişafı sahəsi ilə bağlı tədqiqatlar, dağlıq regionların inkişafı və s. məsələlər müzakirə olunub. Qərbi Kaspi Universitetinin Qəyyumlar Şurasının sədri, professor Hüseyn Bağırov Forumda “Qafqaz dağlarının ekoloji problemləri: onların həlli perspektivləri” mövzusunda çıxış edib, tədqiqatçıları maraqlandıran sualları cavablandırıb.

Forumda dünyanın müxtəlif ölkələrinin elm və tədqiqat mərkəzlərinin nüfuzlu alim və tədqiqatçıları iştirak edirlər. Forum bu sahənin mövcud problemlərinin müzakirəsi, həlli yollarının təhlili baxımından əhəmiyyətli platforma kimi qiymətləndirilir. Xatırladaq ki, Qərbi Kaspi Universitetində Beynəlxalq Dağçılıq Federasiyası ilə birgə yaradılmış Dağ Mədəniyyətləri və Landşaftları Tədqiqat İnstitutu fəaliyyət göstərir. Məhz bu İnstitutun təşkilatçılığı ilə bu ilin may ayında Qərbi Kaspi Universitetində “Dağlar: Mədəniyyətlər, Landşaftlar və Biomüxtəliflik” adlı 3 günlük Beynəlxalq konfrans keçirilib, dünyanın 40-dək ölkəsindən tanınmış alim və tədqiqatçılar konfransda iştirak ediblər.

**2021-2022-ci tədris ili:**

1. Qərbi Kaspi Universitetinin Yüksək Texnologiyalar və İnnovativ Mühəndislik Məktəbinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru Elnarə Cəfərova Türkiyənin Antalya şəhərində keçirilən "Balıqların sağlamlığı və xəstəliklərinin idarə olunması" adlı regional konfransda iştirak edib. E.Cəfərova seminarda "Azərbaycanda balıqların sağlamlığı və xəstəliklərinin idarə olunması" mövzusunda mühazirə ilə çıxış edib.

2. İspaniyanın Barselona şəhərində UNESCO Ümumdünya Ali Təhsil Konfransı (WHEC2022) keçirilib. Konfransa Qərbi Kaspi Universitetinin professoru Hüseyn Bağırov da dəvət olunub və konfransda çıxış edib. Konfrans bəşəriyyət üçün davamlı inkişafı təmin etmək məqsədilə ali təhsildə ideya və təcrübələri yenidən formalaşdırmaq məqsədi daşıyıb. Müzakirələrdə təhsil qarşısında dayanan yeni çağırışlar, yeni texnologiyaların ali təhsil müəssisələrinin tədris keyfiyyətinə təsiri və təhsil ocaqlarının beynəlxalq səviyyədə işlənmiş müqayisəli qiymətləndirmə sistemindən necə faydalana biləcəyi nəzərdən keçirilib.

**2022-2023-cü tədris ili:**

1. Qərbi Kaspi Universitetinin müəllimi, "Ekologiya və ətraf mühit" kafedrasının müdiri kimya üzrə fəlsəfə doktoru dos. Təranə Poladova Türkiyənin Antalya şəhərində keçirilmiş “4th İnternational Enviromental Chemistry Congress” (ENVİROCHEM 2022) Beynəlxalq Konqresdə iştirak edib. T.Poladova “Synthesis of new surface - active catanionic salt for removing thin petroleum films from water surface” adlı məruzə ilə cıxış edib, mövzu ilə bağlı sualları cavablandırıb.

2. Qərbi Kaspi Universitetinin ingilis dilinin tətbiqi və tədrisdə struktur islahatı üzrə prorektoru Kəklik Gözəlova Polşanın Mikolayki şəhərində keçirilən Avropa Yerli Hökumətlər Konqresində iştirak edib. Konqresə müxtəlif ölkələrdən 1600-ə qədər iştirakçı qatılıb. K.Gözəlova bu gün "Regional inkişaf üçün Universitetlərin potensialından necə istifadə etmək olar" (How to use the Potential of Universities for Regional Development) mövzusunda çıxış edib.

3. Qərbi Kaspi Universitetinin professoru Hüseyn Bağırov Beynəlxalq Dırmanma və Dağçılıq Federasiyasının (UIAA) toplantısında iştirak edib. Toplantı UIAA Baş Assambleyası tərəfindən Kanadanın Banff şəhərində Kanada Alp Klubunun (ACC) ev sahibliyi ilə baş tutub. İştirakçılar Assambleyanın fəaliyyəti, prioritetlərini müzakirə edib, növbəti il üçün proqramı nəzərdən keçiriblər, eyni zamanda federasiyanın komissiyalarının üzvlüyünə seçkilər keçirilib.

4. Dünyanın reytinq təşkilatı "Times Higher Education" (THE) dəvəti ilə Qərbi Kaspi Universitetinin professoru Hüseyn Bağırov 31.10.2022-02.11.2022-ci il tarixlərində - Qlobal Davamlı İnkişaf Konfransına qatılıb Şotlandiyanın Qlazqo Universitetinin ev sahibliyi etdiyi konfrans “Davamlı gələcək üçün ali təhsil, sənaye və cəmiyyətin birləşdirilməsi” mövzusuna həsr olunub.

### *3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti*

QKU-da professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan və SCOPUS bazasında yerləşən yüksək reytinqli jurnallarda Universitet adından məqalə çap etdirən professor-müəllim heyətinə birdəfəlik mükafatların verilməsi sistemi tədbiq edilir. QKU-nun professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan Nüfuzlu elmi nəşrlərdə əsərləri dərc edilən QKU əməkdaşlarının mükafatlandırılması Qaydaları vasitəsilə akademik heyətin yaradıcı və innovativ tədris bacarıqları qiymətləndirilir.

Bundan başqa 15.12.2020-ci il tarixli 207/1/2020 nömrəli əmrə əsasən yaradılmış QKU monitorinq qrupu ilə yanaşı fakültə, məktəb və mərkəzlərdə də bu cür qruplar yaradılmışdır.

Yaradılmış bu nəzarət qrupları tərəfindən hər semestr üzrə keçirilən dərslər üzrə monitorinqlər keçirilir. Monitorinq nəticələrinə əsasən aşkar edilmiş çatışmazlıqlarının aradan qaldırılması ilə əlaqədar müvafiq preventiv tədbirlər hazırlanır və nöqsanlar aradan qaldırılır. Monitorinq nəticələrinə əsasən ənənəvi tədrisi həyata keçirilən fənlərin də (2021/2022-ci tədris ili üzrə 30 ənənəvi tədris olunan fənnin) tədris proqramları yenilənmişdir.

Fənlərin yenilənmiş proqramları ilə yanaşı fənnin tədrisində vacib sayılan innovativ metodlar üzrə tədris prosesinin qurulması üzrə  masterclasslar təşkil edilmişdir.

#### *3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti*

QKU-da dərs yüklərinin bölgüsü Azərbaycan Respublikasinin Nazirlər Kabinetinin 24 noyabr 2010-cu il 215 saylı qərarı ilə təsdiqlənmiş "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" normativlərə yəni bir ştat professor-müəllim heyətinə 500 saatdan az olmamaqla o cümlədən minimum 60 faiz aktiv 40 faiz passiv yük olmaqla həyata keçirilir.

#### *3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)*

QKU üzrə əsas iş yeri ATM olan professor-müəllim heyətinin sayının (158) tələbə sayına 3020 nisbəti 1/11, əsas iş yeri ATM olan və əvəzçiliklə cəlb olunmuş professor-müəllim heyətinin sayının (177) tələbə sayına (3020) nisbəti 1/12, əsas iş yeri ATM olan, əvəzçiliklə və saat hesabı qaydada tədrisə cəlb olunmuş professor-müəllim heyətinin sayının (243) tələbə sayına (3020) nisbəti isə 1/16 təşkil edir.

#### *3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti*

Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 65 % QKU əməkdaşıdır. Belə ki, QKU-da 158 nəfər ştatda və 66 nəfər saathesabı qaydada pedaqoji fəaliyyətlə məşğul olur.

#### *3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi*

Yeni təhsil proqramlarının tətbiqi ilə əlaqədar olaraq tədrisi nəzərdə tutulmuş yeni fənlər üzrə mütəxəssislərə və praktik biliklərə malik kadrlara olan ehtiyac ölkənin əmək bazarından professor-müəllim heyətinin cəlb edilməsini zəruri edir. Bu məqsədlə də müvafiq qaydada kənardan professor-müəllim heyəti cəlb olunur.

#### *3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti*

Akademik heyətə qiymətləndirmə meyarları elmi fəaliyyət (nüfuzlu elmi nəşrlərdə dərc olunan məqalələr, məqalələrə verilmiş istinadlar və s.) və tədris fəaliyyəti (dərslik, dərs vəsaiti, tələbələrin məmnunluq anketi və s.) əsasında mükafatlandırma sistemi tətbiq edilir.

#### *3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti*

Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin sayı 7 nəfərdir.

### *3.8 Tələbəyönümlü tədris*

#### *3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi*

QKU-da təhsilalanlar birinci təhsil ili istisna olmaqla yuxarı təhsil ilində təhsil alanlar fərdi tədris planlarının tərtib edilməsində iştirak edirlər. Növbəti tədris ili üçün tələbələrin fərdi tədris planı tərtib olunarkən, akademik təqvimdə qeyd edildiyi kimi ilk növbədə əvvəlki ildən akademik borcu qalan fənlər FTP-ə daxil edilir. Tələbələr sentyabrın 10-dək həmin fərdi tədris planını əldə edirlər. Fərdi tədris planında tələbə sentyabrın 10-dək düzəlişlər edə bilər. Növbəti tədris ilində isə

tələbələr öz fərdi tədris planını hazırlayır və iyulun 5-dən 15-dək fakültəyə təqdim edir. Tələbənin fərdi tədris planında sonradan dəyişiklik edilməsinə icazə verilmir. Yalnız payız semestrindən akademik borcu qalanlar qış tətilinin ilk həftəsində növbəti semestr üçün fərdi tədris planlarında ali təhsil müəssisəsi tərəfindən müəyyən olunmuş qaydada müvafiq düzəlişlər edə bilərlər. Fərdi tədris planı təhsil müəssisəsi tərəfindən tədris ilinin başlanğıcına qədər təsdiq edilir və bu tədris planının bir nüsxəsi tələbədə, bir nüsxəsi isə ali təhsil müəssisəsinin müəyyən etdiyi qurumda saxlanılır.

### *3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi*

QKU-da təhsilalanlar seçmə fənlərin müəyyənləşdirilməsində sərbəstdirlər. Belə ki, akademik məsləhətçilər tələbələrə fərdi tədris planlarını tərtib edərkən ona həm fənn, həm də yüksəkixtisaslı müəllimlərin seçilməsində öz təkliflərini verir. Növbəti tədris ili üçün tələbənin fərdi tədris planı tərtib olunarkən, bura ilk növbədə əvvəlki ildən akademik borcu qalan fənlər daxil edilir. Onu da qeyd etmək istərdik ki, Təhsil proqramlarının planlarında iqtisadiyyat və idarəetmə ixtisaslarında, Dizayn, Cihaz mühəndisliyi və Kompüter mühəndisliyi ixtisasında konkret istiqamətlər müəyyənləşdirilmiş və həmin istiqamətlər üzrə fənlər qeyd edilmişdir. Tələbələr ixtisasın ixtisaslaşmaları istiqamətində fənləri öz seçimləri əsasında həyata keçirirlər. Bu da onların gələcəkdə ixtisaslaşmalarına böyük töhvə verir.

### *3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsiplərinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi*

Təsdiqlənmiş Fərdi Tədris Planlarına əsasən fənn üzrə qrupların tədris planlarına uyğun olaraq yaradılması, tələbələrin tədris ili üzrə fənn seçimi, fənn üzrə qrupa uyğun olaraq müəllim seçimi (müəllim seçimi zamanı dərs cədvəlinin seçimi də aparılır), formalaşdırılır. QKU-da eyni zamanda təhsilalanlar üçün akademik məsləhətçilərin də seçilməsinə şərait yaradılmışdır. Təhsil verənlərin və akademik məsləhətçilərin seçilməsi üçün müvafiq informasiyalar QKU-nun wcu.edu.az saytında yerləşdirilir və tələbələr üçün bu namizədlərin əlçatanlığı və seçim sərbəstliyi təmin edilir.

### *3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası*

QKU-da tələbələr arasında mütamadi olaraq hər semestrdə tədrisin təşkili, tədris prosesində tətbiq edilən innovativ metodlarla bağlı məmunluq, xarici dil dərslərinin keçirilməsinin effektivliyi və sair bu kimi istiqamətlərdə rəy sorğuları təşkil edilir. Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğuları aşağıdakı istiqamətlərdə həyata keçirilmişdir. Bunlardan Fənlər üzrə məmnunluq, Karyera xidmətlərindən məmnunluq, Təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq, Qazanılmış peşə kompetensiyalarının əmək bazarının tələblərinə uyğunluğu, Qazanılmış ümumi kompetensiyaların əmək bazarının tələblərinə uyğunluğu, Akademik fəaliyyətin qiymətləndirilməsi mexanizmindən məmnunluq, Peşəkar inkişafın dəstəklənməsi fəaliyyətlərindən məmnunluq, Fəaliyyətin qiymətləndirilməsi mexanizmindən məmnunluq sorğularını misal göstərmək olar. Keçirilən sorğular nəticəsində əldə edilən məlumatlar emal edilərək bu istiqamətdə təkmilləşdirmə işləri aparılır.

### *3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası*

Məlumat olaraq bildiririk ki, QKU-nun Tələbə Məlumat Mərkəzi, tələbə təşkilatlarının

rəhbərləri (TEC, TGT, THİK) tələbələrin maraqlarını əhatə edən məsələlərin müzakirəsində və qərarların qəbul edilməsi prosesində iştirak edirlər. Bu proseslərdə iştirak edən Tələbə Məlumat Mərkəzi və tələbə təşkilatlarının rəhbərləri tələbələr tərəfindən bildirilmiş təklifləri, rəyləri, və.s səsləndirirlər. Bu dövrə qədər tələbələrin (eyni zamanda məzunlar) təklifləri əsasında bir çox yeniliyə imza atılmış, onların fikirləri əsasında müəyyən proseslərdə müvafiq qərarlar verilmişdir. Bütün qeyd edilənlərin nəticəsində tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası müsbət göstərici ilə xarakterizə olunur və daimi olaraq daha da müsbət aspektə doğru inkişaf edir.

### *3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti*

QKU-da tələbə rəylərinin sistemli şəkildə toplanması məqsədi ilə onların “Şəxsi kabinet” lərində “Tələbə Anket Sorğusu” yaradılmışdır. Onların buradan təqdim edilmiş suallar əsasında “Tələbə Anket Sorğusu” dolduraraq, öz müəllimlərindən, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsindən nə qədər məmnun olduqlarını ifadə etmək imkanları var. Toplanmış sorğuların nəticəsi mütəmadi olaraq təhlil edilir, sistemdə daimi olaraq təkmilləşdirmələr (suallar, sorğu formatları yenilənir) aparılır, ümumi olaraq sorğu nəticələri QKU -da aparılan qərarvermə prosesində istifadə edilir və nəzərə alınır.

### *3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti*

Tələbələr QKU-da şikayət və təkliflərini aşağıdakı üsullarla rəhbərliyə çatdırırlar. QKU@QKU.edu.az, rəsmi sosial şəbəkə hesabları (facebook, instagram, teleqram və s.) fakültələrin rəhbərlərinə isə yazılı formada ərizə və elektron poçt vasitəsilə müraciət edirlər.

### *3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutorlar) mövcudluğu vəziyyəti*

QKU-da akademik məsləhətçilərin fəaliyyəti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili” Qaydalarının 5 bəndinə əsasən təşkil edilmişdir. Ali təhsil müəssisələrində Bolonya prosesinin təşviqi, kredit sistemi ilə tədrisin təşkili, AKTS sisteminin tətbiq edilməsi və tələbələrə kömək göstərilməsi məqsədi ilə ali təhsil müəssisələrində akademik məsləhətçilər (tyutorlar) xidməti təşkil edilir. Tyutorlar bu vəzifəyə rektorun əmri ilə təyin olunur və tələbələrin hüquqlarını və akademik maraqlarını qoruyurlar. Tyutorlar tələbələrə fərdi tədris planlarının tərtib edilməsində və onlara dəyişikliklər aparmasına yardım göstərirlər.

### *3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti*

QKU-da Tələbələrin məlumatlandırılması məqsədi ilə Elektron Təhsil Platforması sistemi və həmin sistemin tərkibində tələbənin şəxsi kabineti yaradılmışdır.Kabinet vasitəsilə müəllim - tələbə arasında, tələbə-tələbə arasında və əməkdaş-əməkdaş arasında kommunikasiya prosesi təmin edilməkdədir. QKU-da hər qrupa mentor təyin edilmişdir. Mentorlar mütəmadi olaraq tələbələrlə görüşlər keçirilir. Görüşlər nəticəsində əldə olunan məlumatlar kafedra iclaslarında müzakirə edilir.

İmtahanlardan öncə tələbələrə məsləhət saatları təşkil edilir. Tədris ilinin əvvəlində I təhsil ili tələbələrinə tyutorlarla görüş təyin olunur və onlara tədrisin kredit sistemi ilə təşkili haqqında məlumatlar verilir.

### *3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti*

QKU-da sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası aşağıda qeyd edilənlər nəzərə alınmaqla həyata keçirilir:

- ❖ Əlilliyi olan və sağlamlıq imkanları məhdud gənclərin ali təhsilə cəlb etmək və onaların cəmiyyətə tam inteqrasiyası üçün mütəmadi olaraq müxtəlif mövzuları üzrə il ərzində maarifləndirmə görüşləri təşkil olunur.
- ❖ QKU-nun əsas məqsədi sağlamlıq imkanları məhdud tələbələrin təhsil imkanlarının artırılmasından və təhsilə tam inteqrasiya edilməsindən ibarətdir. Dekanlıqlar və digər struktur bölmələr fiziki məhdudiyyətli insanların ali təhsilə cəlb olunması, onların təhsilinə mane olan məhdudiyyətlərin aradan qaldırılması və həmin tələbələrin cəmiyyətə inteqrasiyasının gücləndirilməsi istiqamətində maarifləndirmə işlərini həyata keçirir və bu zaman sağlamlıq imkanı məhdud şəxslər üçün tədrisin təşkilinə müasir tələbləri də ön plana çəkirlər .
- ❖ Sağlamlıq imkanları məhdud şəxslərə imtahan xüsusi üsullarla təşkil olunur. Görmə qabiliyyəti zəif olan tələbələrə test imtahanları zamanı şriftin böyüdülüb kağız şəkilində verilməsi Yazı qabiliyyəti məhdud olan tələbədən imtahanın şifahi şəkildə keçirilməsi Əlil (serebral iflic) tələbəyə imtahan online şəkildə təşkil olunur.

### *3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti*

QKU-da sosial həssas qrupa aid edilən tələbələrin təhsil haqları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 aprel 2020-ci il tarixli 138 saylı qərarına əsasən həyata keçirilir. Yəni, QKU-də narmativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan (təkrar ali və orta ixtisas təhsili istisna olmaqla) və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin 2020-ci ildə tədris semestrləri (yarımillikləri) üçün təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi təşkil olunmuşdur.

Bunlara aşağıda qeyd edilən tələbə kontingenti aiddir:

1. ünvanlı dövlət sosial yardımı alanlar;

2. hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) və ya qanuni nümayəndələri aşağıdakı kateqoriyaların hər hansı birinə aid olanlar:

2.1. I və II dərəcə əlilliyi olan şəxslər;

2.2. işsiz kimi qeydiyyatda olanlar;

2.3. yaşa görə əmək pensiyaçıları;

2.4. yaşa görə sosial müavinət alanlar.

2020-ci ildən II Qarabağ müharibəsi  iştirakçıları və qazilərinin təhsil haqları QKU-nun hesabına ödənilir.

### *3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti*

QKU-da təqaüd imkanın yaradılması Azərbaycan Respublikası Nazirlər kabinetinin 2016-ci il 5 fevral tarixli 38 saylı qərarı ilə təsdiq edilmiş  “Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi qaydasına müvafiq həyata keçirilir.

Həmçinin 500 baldan yuxarı nəticə göstərərək və QKU-ya qəbul olmuş tələbələr təhsil

haqqından azad edilir.

400-500 bal toplayan tələbələr üçün 55%, 300-400 bal toplayan tələbələr isə 50 % təhsil haqqından azad edilir.

## 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi

### 3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi ilə əlaqədar QKU-da Universitet üzrə umumi və hər fakültə üzrə isə ayrı-ayrılıqda təhsilin keyfiyyət parametrləri üzrə işçi qrupları yaradılmışdır. Həmin işci qrupları fənn proqramlarının və tədris vəsaitlərinin hazırlanması, təkmilləşdirilməsi və müvafiq rəsmiləşdirmələrin aparılması, ixtisasın tədris və elmi fəaliyyətlərlə bağlı problemləri haqqında müvafiq hesabatların hazırlanması, hər bir ixtisas üzrə qiymətləndirmə və keyfiyyət təminatı fəaliyyətlərinin həyata keçirilməsi, bunlarla bağlı müvafiq hesabatların hazırlanması və sair bu kimi məsələləri həll edir.

### 3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

QKU-da  Təhsil proqramlarında yeni fənlər üzrə xarici və yerli mütəxəssislərin iştirakı ilə təlimlər təşkil edilir. Təlimin nəticəsi olaraq Təhsil proqramında olan təlim nəticələri nəzərə alınmaqla nümunəvi fənn proqramları və fənlər üzrə sillabuslar hazırlanmışdır. Hazırlanmış nümunəvi fənn proqramlarında peşə kompetensiyalarını da özündə əks etdirir. QKU-də yaradılmış təhsilin keyfiyyət parametrləri üzrə işçi qrupları təhsilalanların akademik məsələləri ilə bağlı müvafiq qərarların alınması, dərsliklər, dərs vəsaitləri və digər tədris-metodiki vəsaitlərin hazırlanması ilə bağlı müvafiq qərarların və rəsmiləşdirmələrin aparılması məsələlərini həll edir.

### 3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

QKU-da daxili keyfiyyət təminatı sistemi Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlara (ESG 2015) əsaslanır. Belə ki, təlimatlarda qeyd olunan 1.2 Proqramların tərtib və təsdiq olunması standartının tələblərinə uyğun olaraq təhsil proqramının tərtib olunması və seçmə fənlərin təyin olunmasında sənaye ehtiyacları və dünya təhsil sahəsindəki qabaqcıl təcrübələrdən faydalanması və tələbələrin və digər maraqlı tərəflərin iştirakı ilə hazırlanması üçün əsası qoyulmuş sistem mövcuddur. Əlavə olaraq proqramlar tərtib olunarkən gözlənilən təlim nəticələri nəzərə alınmaqdadır.

Qeyd olunduğu kimi Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatların (ESG 2015) “1.9. Proqramların daimi monitorinqinin aparılması və vaxtaşırı yoxlanılması” ilə bağlı hissədə qeyd olunan tələblərin ödənməsi üçün, habelə tələbələrin və sənaye ehtiyaclarının təmin edilməsi məqsədi ilə proqramlar mütəmadi olaraq yoxlanılır.

Qeyd olunan daxili keyfiyyət təminatı elementlərinə proqramların monitorinqinin faydası tədris edilən proqramın müvafiq sahə üzrə aparılan ən son tədqiqat nəticələrini əks etdirməsi, cəmiyyətin dəyişən ehtiyaclarının müəyyən edilməsi baxımından əvəzsizdir.

QKU-da təhsil proqramlarının tərtibi və seçmə fənlərin seçimi həmçinin bu prosesin monitorinqi maraqlı tərəflərin iştirakı ilə həyata keçirilir və onlara müvafiq düzəlişlər edilir. Prosesdə araşdırma zamanı əldə olunmuş məlumatların təhlili aparılır və proqramın müasir dövrün tələblərinə cavab verməsi üçün müvafiq düzəlişlər edilir və sonda ictimaiyyətə təqdim edilir.

### 3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

Təhsil proqramları üzrə təşkil edilən tədris prosesinin nəticələrinin qiymətləndirilməsi müvafiq struktur rəhbərlərinin universitetin Elmi Şurasında hesabatlarının dinlənilməsi və müzakirəsi əsasında aparılır. Belə ki, Elmi Şurada tədrisin təşkili və onun nəticələri haqqında hesabat QKU-nun Tədris işləri üzrə prorektoru, imtahan sesiyyasının nəticələri hər iki semestr üçün ayrı ayrılıqda İmtahan mərkəzinin direktoru tərəfindən məruzə edilir və Elmi Şuranın üzvləri tərəfindən müzakirə edilərək müvafiq qərarlar qəbul edilir.

### 3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

Tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi həyata keçirilir. Təhsil Proqramlarında ATM-lər üçün nəzərdə tutulmuş 60 kreditlik fənlər müəyyənləşdirilərkən əmək bazarının nümayəndələrinin məsələn: Azərbaycan Respublikası Mərkəzi Bankının, İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya publik hüquqi şəxsi, Azərbaycan Respublikaspı Kənd Təsərrüfatı Nazirliyi Tərəvəzçilik Elmi Tədqiqat İnstutu publik hüquqi şəxsi və Azərbaycan Respublikası Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabelyində "Dendrologiya Bağı" publik hüquqi şəxsin nümayəndələri kimi nüfuzlu təsərrüfat subyektlərinin təklifləri nəzərə alınmışdır.

Bu Təhsil Proqramlarında "Karyera planlaması", "Yumşaq bacarıqlar (Soft skills)", "Sərt bacarıqlar (Hard skills)" kimi fənlərin tədrisi nəzərdə tutulmuşdur ki, bu fənlərin tədrisinə əsasən əmək bazarının iştirakçıları olan müvafiq elmi dərəcəyə malik mütəxəssislərin cəlb edilməyi nəzərdə tutulmuşdur

## 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

### 3.10.1. Karyera mərkəzinin mövcudluğunun vəziyyəti

QKU-da Tələbə və Məzunların Təcrübə və İnkişaf Mərkəzi 2018-ci ilin 14 sentyabr tarixində 21/5/Ü saylı əmrlə yaradılmışdır. Tələbə və Məzunların Təcrübə və İnkişaf Mərkəzi verilən səlahiyyətlər çərçivəsində ali təhsilin bütün səviyyələrində təhsilalanların və məzunların karyera inkişafında və məşğulluqlarının tənzimlənməsində yardım göstərir.

Mərkəz öz fəaliyyətini mövcud qanunvericiliyə uyğun olaraq dövlət, özəl və xarici müəssisələrlə bağlanmış memorandum əsasında həyata keçirir. Mərkəz öz vəzifələrini yerinə yetirərkən təhsilalanlar və məzunlar üçün QKU-nun struktur bölmələri, universitet adından dövlət orqanları, elm və təhsil qurumları, korporativ sektor və digər təşkilatlarla qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

### 3.10.2. Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

QKU Tələbə və Məzunların Təcrübə və İnkişaf Mərkəzi 2018-ci ilin 14 sentyabr tarixində yaradılmış və məzunlara karyera məsləhət xidmətini həyata keçirir. Məsləhət xidmətində əsasən (CV hazırlanması, peşəkar iş həyatına hazırlıq, ixtisasyönümlü praktiki ustad dərslərə yönləndirilmə, uğurlu məzunlarla bağlı məlumatlandırma və görüşlərin təşkili, şirkətlərdə təqaüdlü təcrübə proqramına hazırlıq, cəlb olunma və digər fəaliyyətlər) aiddir.Bununla yanaşı QKU- nun Elmi şurasının 14 sentyabr 2018-ci il tarixli qərarı ilə və QKU Strateji İnkişaf Planına uyğun olaraq müasir əmək bazarının tələblərinə cavab verən yüksək ixtisaslı kadrların hazırlanması və peşəkar mütəxəssislərin tədris prosesinə cəlb olunması məqsədilə, işçi qrupu formalaşdırılmış və fəaliyyətə başlamışdır ki, bu işçi qrupu da tədris planlarında nəzərdə tutulan və yeni yanaşmanı özündə ehtiva edən "Karyera planlaması" ,"Yumşaq bacarıqlar" və "Sərt bacarıqlar" fənləri üzrə

tədrisin həyata keçirilməsini tamamlayacaqdır.

### *3.10.3. Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti*

QKU Tələbə və Məzunların Təcrübə və İnkişaf Mərkəzi məzunlarla əlaqəni bir neçə istiqamətdə qurur və gənclərin ən çox zaman keçirdiyi sosial şəbəkədir. Bu şəbəkə (facebook, instagram, linkedin, telegram) hesabları təhsilalanların və müxtəlif ixtisaslar üzrə ixtisaslaşan məzunların əmək bazarının tələbatına uyğun ixtisas profilləri üzrə dövlət və özəl sektorların, beynəlxalq şirkətlərin aktiv işçi vakansiyaları, təcrübə proqramları, işə yönəlikli təqaüd proqramları, yay məktəbləri haqqında məlumat xidməti göstərir və məzunların məşğulluğunun öyrənilməsi ilə bağlı sorğular keçirir.

https://wcu.edu.az/en/page/alumni

Platforma il boyu aktivdir və məzunların məşğulluğunun təmin olunması prosesi davam etdirilir. Platformanın əsas üstünlükləri vaxt itkisinə qənaət, daha çox məzun və şirkət əməkdaşlarının nəqliyyat və digər vəsaitlərə xərc sərf olunmadan karyera yarmarkasında virtual iştirakı və statistikanın zamanında bilinməsidir.

https://wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinde-emek-yarmarkasi-kechirilib

https://wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinde-emek-yarmarkasi-kechirilib-id-17

https://wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinde-mezun-assosiasiyasinin-teshkilat

Tələbə Elektron Platforması sistemində məzunların şəxsi məlumatları (qəbul olduğu və məzun olduğu il, qəbul balı, diplom üzrə ÜOMG, ad, soyad, e-mail, əlaqə nömrəsi, şəxsiyyət vəsiqəsinin fin kodu) qorunur. QKU Tələbə və Məzunların Təcrübə və İnkişaf Mərkəzi məzunların e-mail ünvanlarına QKU məzunlarının işsizlik sorğusu ilə bağlı email göndərərək onlardan geri dönüşü olan müraciətləri araşdırıb işsiz yaxud iş axtaran olduğunu müəyyənləşdirdikdən sonra uyğun vakansiyalar üzrə yönləndirmə və karyera məsləhəti xidmətini keçirir.



### *3.10.4.Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti*

Məzunların təhsil aldıqları müddətdə QKU-da təhsil proqramı çərçivəsində əldə etdikləri nəzəri biliklərin məzun olduqdan sonra karyera quruculuqlarındakı rolunun araşdırılması məqsədilə QKU Tələbə və Məzunların Təcrübə və İnkişaf Mərkəzi tərəfindən mütəmadi olaraq “Sorğu”lar keçirilir:

https://wuaz.sharepoint.com/sites/TestSite/Shared%20Documents/Forms/AllItems.aspx?id=%2Fsites%2FTestSite%2FShared%20Documents%2FT%C9%99l%C9%99b%C9%99%20M%C9%99lumat%20M%C9%99rk%C9%99zi%2FSor%C4%9Fular%2FATM-%

“Sorğu” (məzunların təhsil aldıqları müddətdə əldə etdikləri biliklərin cari iş həyatındakı rolu yaxud çatışmazlığı, fənlərlə bağlı rəylərin) öyrənilməsi üzrə sualları əhatə edir. Bununla yanaşı əməkdaşlıq edilən Fəxri məzunlara e-mail vasitəsilə “Sorğu” göndərilərək geri dönüş edənlərin sorğu cavabları təhlil edilir, məzunlarla mütəmadi olaraq görüşlər keçirilir.

https://wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinde-mezun-assosiasiyasinin-teshkilat

### *3.10.5.Məzunlarla davamlı əlaqə sisteminin mövcudluq vəziyyəti*

2022/2023-cü tədris ilindən QKU Məzunlarının Asossiasiyasının yaradılması və məzunlarla əlaqələrin koordinasiyanın genişləndirilməsi ilə əlaqədar olaraq məzun assosiassiyasi fəaliyyət göstərir və məzunlarla əlaqələrin koordinasiyasının genişləndirilməsi ilə əlaqədar işçi qrupu yaradılmışdır:

https://wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinde-mezun-assosiasiyasinin-teshkilat

İşçi qrupu məzunlarla əlaqələrin qurulması, uğurlu məzunlarla bağlı təhsil alanların məlumatlandırılması, onlarla görüşlərin keçirilməsi və məzunların təlim-tədris prosessinə cəlb olunması ilə bağlı ardıcıl və sistemli iş aparır.

## 4. ELMİ TƏDQİQAT

### *4.1 Elmi-tədqiqat strategiyası*

#### *4.1.1 ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti*

Qərbi Kaspi Universitetinin keçən akreditasiyadan sonra iki elmi-tədqiqat strategiyası işlənib hazırlanmışdır. 2018-2020-ci illəri əhatə edən ETS Elmi Şuranın 14 sentyabr 2018-ci il tarixli iclasında müzakirə edilmiş və təsdiq edilmişdir(protokol № 1). 2021-2025-ci illər üzrə ETS Elmi Şuranın 31 may 2021-ci il tarixli iclasında müzakirə edilmiş və təsdiq edilmişdir*(protokol № 10).*

#### *4.1.2.Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti*

ETS hazırlanarkən Universitetin Strateji planı və missiyasının uyğunluğu nəzərə alınmışdır. Belə ki, SİP-in 3-cü məqsədi "Tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması" adlanır və 5 hədəf nəzərdə tutulur. Həmçinin, universitetin missiyasında "Elmi tədqiqatlara həvəsləndirici və təkanverici qüvvə olmaq" nəzərdə tutulmuşdur https://wcu.edu.az/az/page/strategy

#### *4.1.3. ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexazimlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti*

Universitetin SİP Məqsəd 3, Hədəf 1-də deyilənləri rəhbər tutaraq ETS-də elmi fəaliyyəti, hədəflər, elmi fəaliyyətin idarə olunması mexanizmləri öz əksini tapmışdır. Qərbi Kaspi Universitetinin Elmi Şurasının 14 sentyabr 2022-ci il tarixli iclasının qərarı ilə (protokol № 1) elmi tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizmləri təsdiq edilmişdir.

#### *4.1.4. Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu*

Universitetin SİP-da 8 istiqamətdə məqsədlər və həmin məqsədlərin 24 Hədəfi müəyyən edilmişdir. Elmi Tədqiqat atrategiyasında həmin məsələlər nəzərə alınmışdır. Xüsusən də 3-cü məqsədin aşağıdakı hədəfləri ETS-də tam olaraq nəzərə alınmışdır:

1) 2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması və tədqiqat işlərinin keyfiyyətinin artırılması;
2) 2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması və "Tədqiqat universiteti" statusunun alınması;
3) 2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması, yüksək səviyyəli və təsirli tədqiqatların həyata keçirilməsi;
4) 2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırıması və elmi-pedaqoji kadr hazırlığının təkmilləşdirilməsi;
5) 2025-ci ilə qədər tədqiqat üçün yaradıcı, təşəbbüskar və beynəlxalq tələblərə cavab verən mühitin formalaşdırılması və beynəlxalq indeksli jurnalların tələblərinə uyğunlaşmaq.

#### *4.1.5. Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti*

QKU-da magistrant və doktorantların tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif seminar və təlimlərin keçirilməsi, "Elmi tədqiqat metodları", "Molekulyar biologiyanın tədqiqat metodları", "Elmi tədqiqatın metodologiyası" fənlərin sillabuslarının təkmilləşdirilməsi və digər məsələlər nəzərdə tutulmuş və həyata keçirilməkdədir. Tədqiqat nəticələrinin nəşr edilməsinə

dəstəyin göstərilməsi, tələbələrin müxtəlif yerli və beynəlxalq proqramlar çərçivəsində tədqiqat yönümlü start-up layihələrə, QKU-da magistrant və doktorantlar elmi-tədqiqat işlərinə və qrant layihələrinə, xarici ölkələrin nüfuzlu universitetlərində çalışan tədqiqatçı alimlərin kadr hazırlığına, doktorantların bakalavriat səviyyəsində tədris prosesinə cəlb edilmişdir.

#### *4.1.6. Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti*

QKU-da elmi-tədqiqatla məşğul olan professor-müəllim heyətinin ixtisas profilləri apardıqları elmi tədqiqat işləri ilə uyğunluq təşkil edir. Akademik heyətin tədqiqat bacarıqlarının təkmilləşdirilməsi və tədqiqat fəaliyyətlərinə dəstək verilməsi, beynəlxalq elektron resurslara çıxışın genişləndirilməsi, tədqiqatçılar üçün beynəlxalq elmmetrik bazalarda şəxsi səhifələrin yaradılması, SCOPUS və "Web of Science" indeksli jurnallarda elmi məqalələrin dərc olunmasının təşkili, beynəlxalq elmi konfransların keçirilməsinə texniki və maddi dəstəyin göstərilməsi, habelə məqaləsi dərc olunan tədqiqatçıların mükafatlandırılması ETS-da nəzərdə tutulmuşdur.

#### *4.1.7. Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti*

Elmi Tədqiqat Strateqiyası QKU-nun rəsmi internet səhifəsinə yerləşdirilib, e-kitabxana, korporativ e-mail https://wcu.edu.az/ ; https://library.wcu.edu.az/ ; teachers@wcu.edu.az vasitəsilə struktur rəhbərlərinə və müəllimlərə göndərilmişdir.

#### *4.1.8. Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti*

QKU-da ETS-nin hazırlanması üçün 20 aprel 2021-ci ildə keçirilmiş islasa AMEA İqtisadiyyat İnstitunun, Azərbaycan Dövlət Pedaqoji Universitetinin, AMEA Genetik Ehtiyatlar İnstitutunun əməkdaşları dəvət olunmuş, müzakirələrdə tövsiyələrini vermişdirdirlər. Bundan əlavə Elmi Şurada müzakirə olunarkən təhsilalanların nümayəndələri də iştirak etmişlər.

### *4.2 Tədqiqat resursları*

#### *4.2.1. ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti*

QKU elmi-tədqiqat işlərinin aparılması üçün təcrübə bazalarının, laboratoriyaların, infrastrukturun maddi-texniki bazası və texnoloji resurslarının təkmilləşməsi üçün büdcə vəsaitləri ayırmışdır.

***QKU 2018-2022- ci illərdə Elmi Tədqiqata ayrılan büdcə vəsaitinin hesabatı***

| İllər | Elmi Tədqiqata ayrılan büdcə vəsaitinin ümumibüdcədə payı (manatla) |
|---|---|
| **2018** | 228205,74 |
| **2019** | 82682 |
| **2020** | 38708 |
| **2021** | 162116 |
| **2022** | 300362 |
| | |

#### *4.2.2. Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti*

QKU aktiv elmi tədqiqatla məşğul olan professor müəllim heyyətinin sayını aşağıdakı qrafikdən görmək mümkündür:




### *4.2.3. Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti*

QKU-da elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması məqsədilə yaradılmış Gənc Tədqiqatçılar klubu Elm şöbəsinin, Doktorantura və Magistratura Şöbəsinin, Beynəlxalq Əlaqələr Şöbəsinin koordinasiyası ilə fəaliyyət göstərir. Klub üzvləri müxtəlif səviyyəli konfranslarda fəal iştirak edirlər

### *4.2.4. Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti*

Beynəlxalq elmi bazalara (SCOPUS, WoS bazalarına) girişin təmin edilməsi üçün korporativ E-mailləri təmin edilmiş və həmin tədqiqatçıların profilləri yaradılmışdır. Qeydiyyatdan keçən hər bir əməkdaş  istənilən məkandan daxil olaraq xidmətdən istifadə edə bilər.

Digər bazalar:

Qərbi Kaspi Universitetinin Kitabxanası tələbə və müəllim heyətinə Oxford University Press nəşriyyatının onlayn lüğət, ensiklopediya, soraq-məlumat bazası və qısa xülasələr bazasına 3 aylıq giriş və istifadə imkanı təqdim edir: Oxford Reference, Oxford Research Encyclopedias, Oxford English Dictionary, Very Short Introductions, What everyone needs to know.

https://library.wcu.edu.az/az/news/databases-of-oxford-university-press-are-accessible-to-wcu-s

Qərbi Kaspi Universiteti Perlego - online dərslik platformasına illik abunə olmuşdur. Bu platforma vasitəsilə tələbə və müəllim heyəti 24/7 istənilən yerdən müxtəlif dərslik və dərs vəsaitindən istifadə edə biləcək. IOS və Android dəstəkləyən mobil cihazlardan Perlego tətbiqini yükləməklə internetə qoşulmadan, oflayn rejimdə kitabları oxumaq da mümkündür.

https://library.wcu.edu.az/az/news/perlego-online-derslik-platformasi







### *4.2.5. Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti*

QKU-da fəaliyyət göstərən professor-müəllim heyətinin elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Belə ki, QKU Elmi Şurasının 17 noyabr 2022-ci il tarixli iclasında (protokol №3) qərar qəbul edilmiş nüfuzlu beynəlxalq jurnallarda dərc edilmiş elmi məqalələrə görə professor-müəllim heyətinin stimullaşdırılması barədə və aydın mexanizm müəyyənləşdirilmişdir.

Qərbi Kaspi Universitetinin Elmi Şurasının 02 noyabr 2023 – cü il tarixli qərarı ilə stimullaşdırma mexanizmlərinə yenidən baxılmış və mükafatlandırma səviyyəsi artırılmışdır.

### *4.2.6. Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası*

**Qərbi Kaspi Universitetinin 2018-2022 –cü illərdə Qrant layihələrinin büdcə vəsaitinin hesabatı**

| İllər | QRANT ( manatla) |
|---|---|
| **2018** | 0 |
| **2019** | 3780 |
| **2020** | 0 |
| **2021** | 13445 |
| **2022** | 42269 |




**Qərbi Kaspi Universitetinin 2018-2023 –ci illərdə Qrant layihələrinin büdcə vəsaitinin hesabatı**

### *4.2.7. Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti*

QKU 150-dən çox yerli və xarici ölkənin universitetləri ilə elmi-tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq edir. Bununla bağlı memorandumlar, müqavilələr imzalanmış, görüşlər olmuşdur.
[https://wcu.edu.az/az/news](https://wcu.edu.az/az/news)

**Tədqiqat sahəsində əməkdaşlıq edilən elmi müəssisə və təşkilatların payı**



**Tədqiqat sahəsində əməkdaşlıq edilən elmi müəssisə və təşkilatlar**[1]

| № | Təşkilatın adı | Sənəd |
|---|---|---|
| **1** | Institute of Physics | 21 |
| **2** | Azerbaijan State Oil and Industry University | 19 |
| **3** | Azerbaijan National Academy of Sciences | 13 |
| **4** | Azerbaijan State University of Economics UNEC | 13 |
| **5** | Joint Institute for Nuclear Research, Dubna | 12 |
| **6** | Azerbaijan State Pedagogical University | 9 |
| **7** | Baku State University | 8 |
| **8** | Institute for Nuclear Research and Nuclear Energy Bulgarian Academy of Sciences | 7 |
| **9** | The Bulgarian Academy of Sciences | 7 |
| **10** | Azerbaijan Technical University | 7 |
| **11** | Georgi Nadjakov Institute of Solid State Physics Bulgarian Academy of Sciences | 6 |
| **12** | Yeditepe University | 6 |
| **13** | Innovation and Digital Development Agency | 5 |
| **14** | Ministry of Science and Education Republic of Azerbaijan | 4 |
| **15** | National Institute of Research and Development for Optoelectronics | 4 |
| **16** | Khazar University | 4 |
| **17** | Institute of Economics of Ministry of Science and Education of the Republic of Azerbaijan | 3 |
| **18** | NC State University | 3 |
| **19** | Institute of Electronics Bulgarian Academy of Sciences | 3 |
| **20** | National Academy of Sciences of Ukraine | 3 |
| **21** | Dubna International University | 3 |
| **22** | Tomsk Polytechnic University | 3 |
| **23** | Azerbaijan Institute of Genetic Resources | 3 |
| **24** | Altai State University, Barnaul | 2 |
| **25** | Technion - Israel Institute of Technology | 2 |
| **26** | Sumgait State University | 2 |
| **27** | Odlar Yurdu University | 2 |
| **28** | PSNA College of Engineering and Technology | 2 |
| **29** | Azerbaijan University of Architecture and Construction | 2 |
| **30** | Institute of Radiation Problems | 2 |
| **31** | National Museum of Georgia | 1 |
| **32** | Economic Research Center | 1 |
| **33** | Azerbaijan State Agrarian University | 1 |
| **34** | Azerbaijan State Agricultural University | 1 |
| **35** | Ministry of Science and Education | 1 |
| **36** | Azerbaijan Veterinary Research Institute | 1 |
| **37** | T. Begeldinov Aktobe Aviation Institute | 1 |
| **38** | University of Technology of Azerbaijan | 1 |
| **39** | Academy of Applied Sciences – Academy of Management and Administration in Opole | 1 |
| **40** | Azerbaijan University of Technology UTECA | 1 |
| **41** | GyanSys Inc. | 1 |

[1] information about the organization Western Caspian University Baku. // https://www.scopus.com/affil/profile.uri?afid=60190589

| | | |
|---|---|---|
| **42** | 2Genetic Resources Institute of Ministry of Science and Education | 1 |
| **43** | Ministry of Digital Development and Transport of the Republic of Azerbaijan | 1 |
| **44** | Ganja State University | 1 |
| **45** | Bonam Venkata Chalamayya Engineering College | 1 |
| **46** | Finance and Business Technologies Institute of Public Service and Administration Odesa Polytechnic National University | 1 |
| **47** | Global business Studies | 1 |
| **48** | Ministry of Science and Education of the Republic of AzerbaijaInstitute of Geography Named After Academician H. A. Aliyev | 1 |
| **49** | UNEC Centre for Karabakh Economic Research | 1 |
| **50** | Dendrology Garden | 1 |
| **51** | Ministry of Science and Education of the Republic of Azerbaijan | 1 |
| **52** | Ministry of Science and Education Republic of Azerbaijan | 1 |
| **53** | Lusófona University | 1 |
| **54** | University of Bahrain | 1 |
| **55** | B. Verkin Institute for Low Temperature Physics and Engineering of the National Academy of Sciences of Ukraine | 1 |
| **56** | Indian Institute of Technology Indian School of Mines, Dhanbad | 1 |
| **57** | Sechenov First Moscow State Medical University | 1 |
| **58** | Czech Technical University in Prague | 1 |
| **59** | SRM Institute of Science and Technology | 1 |
| **60** | Slovak University of Agriculture in Nitra | 1 |
| **61** | National University of Life and Environmental Sciences of Ukraine | 1 |
| **62** | Universität Augsburg | 1 |
| **63** | International Crops Research Institute for the Semi-Arid Tropics | 1 |
| **64** | Russian Academy of Sciences | 1 |
| **65** | Centers for Disease Control and Prevention | 1 |
| **66** | University of Pretoria | 1 |
| **67** | Taras Shevchenko National University of Kyiv | 1 |
| **68** | Politecnico di Milano | 1 |
| **69** | Perm State University | 1 |
| **70** | Henryk Niewodniczanski Institute of Nuclear Physics of the Polish Academy of Sciences | 1 |
| **71** | Scientific Practical Materials Research Centre of NAS of Belarus | 1 |
| **72** | Institute of Biochemistry of Biologically Active Compounds of the National Academy of Sciences of Belarus | 1 |
| **73** | National Academy of Sciences of Belarus | 1 |
| **74** | National University of Science & Technology MISIS | 1 |
| **75** | Riga Technical University | 1 |
| **76** | Vietnam Academy of Science and Technology | 1 |
| **77** | Vietnamese Academy of Science and Technology Institute of Physics and Electronics | 1 |
| **78** | Academy of Sciences of the Republic of Uzbekistan | 1 |
| **79** | Institute of Nuclear Physics Uzbekistan Academy of Sciences | 1 |
| **80** | National University of Uzbekistan named after Mirzo Ulugbek | 1 |
| **81** | Institute of Mathematics and Mechanics | 1 |
| **82** | Institute of Petrochemical Processes Azerbaijan National Academy of Sciences | 1 |
| **83** | International Center for Agricultural Research in the Dry Areas Syria | 1 |
| **84** | K L Deemed to be University | 1 |
| **85** | Recep Tayyip Erdogan University | 1 |
| **86** | Su Ürünleri Merkez Arastirma Enstitüsü - Trabzon | 1 |
| **87** | Institute of Experimental and Applied Physics Czech Technical | 1 |

| | | |
|---|---|---|
| | University in Prague | |
| 88 | Paavai Engineering College | 1 |
| 89 | Zoological Institute of the Russian Academy of Sciences | 1 |
| 90 | Rostov State Economic University | 1 |
| 91 | L.N. Gumilyov Eurasian National University | 1 |
| 92 | Alfred Nobel University | 1 |
| 93 | Northern Arctic Federal University | 1 |
| 94 | Uman National University of Horticulture | 1 |
| 95 | Almaty Management University | 1 |
| 96 | Dayananda Sagar University | 1 |
| 97 | ADA University | 1 |
| 98 | Russian Presidential Academy of National Economy and Public Administration | 1 |
| 99 | Krasnoyarsk State Agrarian University | 1 |
| 100 | Amity University Dubai | 1 |
| 101 | State university of land use planning | 1 |
| 102 | Sumy State Pedagogical University named after A. S. Makarenko | 1 |
| 103 | State University of Telecommunication | 1 |
| 104 | K. Zhubanov Aktobe Regional University | 1 |
| 105 | RMK College of Engineering and Technology | 1 |
| 106 | Anjuman-i-Islam's Kalsekar Technical Campus | 1 |
| 107 | Graphic Era Hill University | 1 |
| 108 | Tashkent State University of Law | 1 |
| 109 | The National Defence University of Ukraine named after Ivan Cherniakhovskyi | 1 |
| 110 | Akaki Tsereteli State University | 1 |
| 111 | Ali Guliyev Institute of Chemistry of Additives of the Azerbaijan National Academy of Sciences | 1 |
| 112 | Institute of Economics of the Azerbaijan National Academy of Sciences | 1 |
| 113 | A.I. Karayev Institute of Physiology of the Azerbaijan National Academy of Sciences | 1 |
| 114 | State Biotechnological University | 1 |
| 115 | Armed Forces of Ukraine | 1 |
| 116 | Estonian Entrepreneurship University of Applied Sciences | 1 |
| 117 | Institute of Semiconductor Physics and Microelectronics | 1 |
| 118 | Azərbaycan Kooperasiya Universiteti | 1 |

## 4.3 Elmi-tədqiqat fəaliyyəti

### 4.3.1. Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

Elmi-tədqiqat fəaliyyətinin səmərəli idarə edilməsi məqsədilə QKU-da aşağıdakı struktur bölmələri fəaliyyət göstərir və hər bir struktur bölmənin təsdiq olunmuş əsasnamə və fəaliyyət planları mövcuddur.

- Elm şöbəsi;
- Magistratura, doktorantura şöbəsi;
- Texnopark;
- Laboratoriyalar;
- Xəzər Elmi-Tədqiqat Mərkəzi;
- Tədqiqat və İnnovasiyalar Mərkəzi.

Strateji Plan və Elmi-tədqiqat strategiyasına uyğun olaraq, hər tədris illi üçün fəaliyyət planları mövcuddur.

### 4.3.2. Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

QKU-da 2018-ci ildə 7 respublika, 2019-cu ildə 1 beynəlxalq, 7 respublika, 2020-ci ildə 1 beynəlxalq (onlayn), 8 respublika (onlayn), 2021-ci ildə 3 respublika, 1 beynəlxalq, 2022-ci ildə 2 respublika 1 beynəlxalq, 2023-cü ildə 1 beynəlxalq, 2 respublika konfransı, seminarlar və görüşlər, müxtəlif elmi-tədqiqat xarakterli tədbir təşkil olunmuşdur.
https://wcu.edu.az/az/news

### 4.3.3. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

QKU-da təşkil edilmiş elmi-tədqiqat xarakterli konfrans, seminar, görüş və s. tədbirlərdə ABŞ, Finlandiya, Türkiyə, Almaniya, İsveç, Böyük Britaniya, İsrail, Yaponiya, Rusiya, Çin və digər ölkələri təmsil edən tədqiqatçılar iştirak etmişdir.
https://wcu.edu.az/az/news

### 4.3.4. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

QKU hər tədris ilinin sonunda tələbə, magistr və doktorantlar üçün multidissiplinar Respublika elmi-praktik konfransı keçirilir. QKU-da təşkil edilmiş elmi-tədqiqat xarakterli konfrans, seminar, görüş və s. tədbirlərdə, pandemiya dövrü istisna olmaqla, gənc tələbə-tədqiqatçılar iştirak etmişdir.
https://wcu.edu.az/az/page/conferenceshttps://wcu.edu.az/az/page/conferences

### 4.3.5. Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

***Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrinin sayı (2018-2023)***

| İllər | Elm və təhsil sahəsində həyata keçirilən beynəlxalq qrant layihələrin sayı |
|---|---|
| **2023** | 1 |
| **2022** | 1 |
| **2021** | 1 |
| **2020** | 0 |
| **2019** | 1 |
| **2018** | 0 |
| Cəmi | **4** |

### 4.3.6. Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

QKU-nun professor müəllim heyətinin elmi-tədqiqat fəaliyyəti dövründə müxtəlif illər ərzində patentlər əldə etmişlər.

- k.ü.f.d. Nailə Quliyeva;
- t.e.d, dosent. Ələsgər Ağazadə;
- Prof. Xudayar Həsənov.

### 4.3.7. İnstitusional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti

Qərbi Kaspi Universitetində institusional əməkdaşlığın aparılması və birgə təşəbbüslərin həyata keçirilməsinə dəstək məqsədilə Gender Araşdırmaları Mərkəzi, Dağ mədəniyyətləri və landşaftları tədqiqat institutu, Xəzər Dənizi Problemləri Elmi-Tədqiqat Mərkəzi, Tədqiqat və

İnnovasiyalar Mərkəzi illik fəaliyyət planları, elmi tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizmləri əsasında fəaliyyət göstərir.

Qərbi Kaspi Universitetində institusional əməkdaşlığın aparılması və birgə təşəbbüslərin həyata keçirilməsinə dəstək məqsədilə Gender Araşdırmaları Mərkəzi, Dağ mədəniyyətləri və landşaftları tədqiqat institutu, Xəzər Dənizi Problemləri Elmi-Tədqiqat Mərkəzi, Tədqiqat və İnnovasiyalar Mərkəzi illik fəaliyyət planları, elmi tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizmləri əsasında fəaliyyət göstərir.

#### *4.3.8. Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti*

QKU əməkdaşlarının yerli və xarici ölkələrin ATM və elmi-tədqiqat müəssisələrinin tədqiqatçıları ilə birgə tədqiqat proqramları mövcuddur:

- Koreya Elm və Texnologiya Siyasəti İnstitutunda (STEPI);
- AMEA Yüksək Texnologiyalar Parkı.

#### *4.3.9. Tədqiqatçıların beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti*

Qərbi Kaspi Universitetinin əməkdaşlarının müxtəlif beynəlxalq elmi tədqiqat bazalarında müxtəlif yerli və xarici elmi müəssisələrlə birgə əməkdaşlığının nəticəsi olaraq dərc etdiyi elmi nəşrlər mövcuddur. Universitetin professor-müəllim heyətinin, tədqiqatçılarının elmmetrik bazalarda şəxsi profilləri yaradılmış, istinad dinamikaları göstərilmişdir.

QKU Scopus, Web of Sciences kimi nüfuzlu beynəlxalq elmi-tədqiqat şəbəkələrdə profili mövcuddur və həmin bazalara hər bir əməkdaşın girişi təmin olunmuşdur.

QKU elmi tədqiqat istiqamətli Beynəlxalq Dırmanma və Alpinizm Federasiyasının üzvüdür (UIAA) və davamlı olaraq birgə ekspedisiyalar, konfranslar təşkil olunur.
https://wcu.edu.az/az/page/mountain-culture-and-landscape-research-institute
https://wcu.edu.az/az/news/international-conference-on-andquotmountains-cultures-landsc

#### *4.3.10. Yerinə yetirilən elmi tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti*

QKU-nun elmi-tədqiqat işlərinin nəticəsi kimi monoqrafiya, dərs vəsaiti və metodik vəsaitlər nəşr olunmuşdur. Elmi tədqiqat işlərinin mövzuları tədris metodiki vasitələrdə, proqramlarda, sillabuslarda öz əksini tapmışdır.

#### *4.3.11. Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti*

Qərbi Kaspi Universitetində akademik heyət, magistrant və doktorantların elmi-tədqiqat nəticələrinin dərc etdirilmə imkanlarının yaxşılaşdırılması üçün müxtəlif sahələr üzrə aşağıdakı elmi jurnallar fəaliyyət göstərir:

Qərbi Kaspi Universitetinin Elmi Xəbərlər jurnalı müvafiq elm sahələri üzrə müstəqil və original məqalələri elmi ictimaiyyətin diqqətinə çatdırmaq məqsədi daşıyan, hər seriyası iki dəfə olmaqla, ildə dörd dəfə nəşr edilən elmi və resenziyalı jurnaldır (p-ISSN 2789-4606; e-ISSN 2789-4614). Elmi Xəbərlər jurnalı iki seriya halında fəaliyyət göstərir və AAK-nın bölmələrinin 5 sahəsində qəbul olunmuşdur: https://journal.wcu.edu.az/

“Elmi Xəbərlər” (Humanitar seriyası)
https://aak.gov.az/single/427 , https://aak.gov.az/single/429
“Elmi Xəbərlər” (İctimai və texniki seriyası);
https://aak.gov.az/single/425
https://aak.gov.az/single/423
https://aak.gov.az/single/421
“Reconstructing the Past: Journal of Historical Studies” jurnalı;

https://jhs.wcu.edu.az/
"Journal of Endemism: biodiversity & environment" jurnalı
https://ebe.wcu.edu.az/

### *4.3.12. Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin ("citation index") artım dinamikası*

2018-2023-cü illərdə Qərbi Kaspi Universitetinin əməkdaşlarının dərc olunmuş məqaləsinə ümumilikdə istinad dinamikası ayrı-ayrılıqda illər üzrə isə nəticələr aşağıdakı kimidir:

| İllər | İstinadların dinamikası |
|---|---|
| **2016** | 65 |
| **2017** | 54 |
| **2018** | 91 |
| **2019** | 101 |
| **2020** | 107 |
| **2021** | 115 |
| **2022** | 118 |
| **2023** | 152 |

***Qeyd:*** *məlumatlar Google Scholar ATM müəllimlərin profillərin əsasında tərtib olunmuşdur*




**İstinadların illər üzrə dinamikası**

ATM əməkdaşlarının məqalələri və istinadetmə indeksinin dinamikası artma üzrə dəyişmişdir.




**"Citation index" artım dinamikası**

### *4.3.13. Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti*

QKU-da magistrant və doktorantların tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif seminar və təlimlər keçirilir, "Elmi tədqiqat metodları", "Molekulyar biologiyanın tədqiqat metodları", "Elmi tədqiqatın metodologiyası" fənlərin sillabuslarının təkmilləşdirilməsi həyata keçirilmişdir.

### *4.3.14. Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti*

Qərbi Kaspi Universitetində Strateji İnkişaf Mərkəzi, Keyfiyyətə Nəzarət Mərkəzi, Tədris şöbəsi, Elm şöbəsi akademik heyətin tədqiqat bacarıqlarını inkişaf etdirmək məqsədilə müvafiq qaydada təlim və seminarlar təşkil edirlər.

### *4.3.15. Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu*

Qərbi Kaspi Universitetində doktorantura proqramlarına qəbul prosesi barədə məlumatlar universitetin rəsmi internet səhifəsi vasitəsilə paylaşılır (https://wcu.edu.az/).

14 nəfər məzun olmuş doktorant QKU-da işlə təmin olunmuşdur.

"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində prioritet sahələr üzrə xaricdə təhsilə dəstək verərək nüfuzlu xarici ali təhsil müəssisələrində doktoranturaya qəbul edilmiş bir çox doktorant ilə üç tərəfli müqavilə imzalanmışdır.

### *4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti*

Tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti

| İllər | Professorlar və elmlər doktorları | Akademik heyət sayı | Professorların ümumi akademik heyətdə payı (%) |
|---|---|---|---|
| 2018-2019 | 12 | 210 | 6% |
| 2019-2020 | 19 | 239 | 8% |
| 2020-2021 | 13 | 325 | 4% |
| 2021-2022 | 10 | 306 | 3,3 % |
| 2022-2023 | 20 | 151 | 13,2 % |
| 2023-2024 | 17 | 182 | 12,7 % |




**Elmlər doktoru və professorların sayının illər üzrə artım dinamikası (%)**

### 4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti




**Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti**

### 4.3.18. Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi tədqiqat hədəflərinə uyğunluğu

Qərbi Kaspi Universitetində təklif edilən doktorantura proqramlarını universitetin elmi-tədqiqat hədəfləri ilə uyğundur.

**Qərbi Kaspi Universitetində təklif edilən doktorantura proqramları**

| № | İxtisaslar | Şifrələr |
|---|---|---|
| 1 | Daxili fiskal siyasət və dövlət maliyyəsi | 5301.01 |
| 2 | Ümumi iqtisadiyyat | 5308.01 |
| 3 | Dünya iqtisadiyyatı | 5310.01 |
| 4 | Sahə iqtisadiyyatı | 5312.01 |
| 5 | German dilləri | 5708.01 |
| 6 | Dünya ədəbiyyatı | 5718.01 |
| 7 | Beynəlxalq münasibətlər | 5901.01 |
| 8 | Siyasi institutlar və sistemlər | 5904.01 |
| 9 | Texniki estetika və dizayn | 6217.01 |
| 10 | Sosial psixologiya | 6114.01 |
| 11 | Tibbi psixologiya | 6116.01 |
| 12 | Sisitemli analiz, idarəetmə və informasiyanın işlənilməsi | 3338.01 |

### 4.3.19. Elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

QKU elmi-tədqiqat fəaliyyətinin monitorinqi mexanizmi mövcuddur. Monitorinq mütəmadi olaraq ildə iki dəfə aparılır. Bundan əlavə Elm şöbəsi tərəfindən illik əsasda fəaliyyət planları və meyarlar vasitəsilə monitorinqlər aparılır.

### 4.3.20. Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili

Qərbi Kaspi Universitetində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün doktorant hazırlığı həyata keçirilir. Hər il müxtəlif ixtisaslar üzrə doktorant və dissertantların ilkin müzakirəsi təşkil edilərək sənədləri müdafiə üçün müvafiq dissertasiya şurasına təqdim edilir.

Qərbi Kaspi Universitetində doktorantura (dissertantura) dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili aşağıdakı hüquqi-normativ sənədlərə əsaslanaraq həyata keçirilir:

- Elm haqqında Azərbaycan Respublikasının Qanunu;
  https://e-qanun.az/framework/33488
- Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu;
  https://e-qanun.az/framework/18343

- Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli “Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə”; https://president.az/az/articles/view/33499
- Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarları; https://aak.gov.az/single/291

Eyni zamanda Magistratura və doktorantura, həmçinin Elm Şöbəsi magistrant, doktorant və dissertantların hazırlanmasına, tədris prosesinin keyfiyyətli təşkilinə, tezis və dissertasiya işlərinin yerinə yetirilməsinə nəzarət edir və sözügedən proseslərin təşkil olunmasına dəstək göstərir.

### *4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti*

#### *4.4.1. Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu*

Qərbi Kaspi Universiteti Strike Plagiarism və AntiPlagiarism.NET antiplagiat internet sisteminin xidmətlərindən istifadə edir. Akademik dürüstlük qaydalarının universitetin rəsmi internet səhifəsi vasitəsilə əlçatanlığı təmin olunmuşdur.

#### *4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu*

Bununla bağlı olaraq həm dissertasiya işlərində, həm elmi metodiki işlərdə, həm də məqalə qəbulu proseduralarında mövcud qaydalara uyğun şəkildə Universitet müvafiq qanunvericiliklə qabaqlayıcı tədbirlər həyata keçirir. Universitetin “İmtahan qaydaları haqqında Əsasnamə”sində köçürmə hallarının qarşısının alınması məsələləri ciddi qoyulmuş, imtahanların təşkil olunduğu auditoriyalar kameralarla təchiz edilmişdir.

#### *4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi*

Qərbi Kaspi Universitetində tədqiqat layihələri, kurs işləri, məqalələr, tezis və dissertasiya işləri Strike Plagiarism antiplagiat sistemi vasitəsilə yoxlanılır, müəllifə təqdim olunur.

## 5. İDARƏETMƏ SİSTEMİ

### *5.1 İdarəetmə orqanları*

***5.1.1. ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət/iş planlarının mövcudluğu vəziyyəti***

Qərbi Kaspi Universitetinin idarə olunması Azərbaycan Respublikası Konstitusiyasına, "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"na, digər Qanunlara, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Azərbaycan Respublikası Təhsil Nazirliyinin normativ-hüquqi aktlarına, universitetin Nizamnaməsinə və universitetin idarəetmə orqanlarının qərarlarına müvafiq olaraq həyata keçirilir.

Universitetin idarə olunmasında demokratikliyi və şəffaflığı təmin etmək məqsədilə aşağıdakı idarə və özünüidarə orqanları yaradılmışdır:

- Direktorlar Şurası
- Qəyyumlar Şurası
- Elmi Şura
- Elmi-metodik şura
- İcraçı Prorektor
- Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyəti

Direktorlar Şurası Universitetin idarə edilməsində şəffaflığı təmin etmək, təhsil müəssisəsinin, ali və ali təhsildən sonrakı təhsilin, tədris prosesinin, elmi işin inkişafı, elmi-pedaqoji və digər işçilərin ixtisasının artırılmasının və yenidən hazırlanmasının təşkili ilə bağlı müsbət təcrübənin ümumiləşdirilib yayılması, habelə təhsil müəssisəsinin kollektivinin sosial müdafiəsi, ali məktəbin respublikanın sosial iqtisadi və mədəni inkişafına təsirinin gücləndirilməsi istiqamətlərində fəaliyyətlərini əlaqələndirmək məqsədi ilə yaradılıb. Direktorlar Şurasının tərkibi 3 nəfərdən ibarətdir. Direktorlar Şurası Təsisçilər Şurasının (təsisçilərin ümumi yığıncağının) müstəsna səlahiyyətinə aid olan, eləcə də onun tərəfindən verilmiş cəmiyyətin icra orqanlarını yaratmaq, onları təyin etmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək, universitetin idarəetməsi üzrə ümumi nəzarəti həyata keçirmək və s. səlahiyyətləri həyata keçirir.

Universitetdə ali məşvərətçi orqan - Qəyyumlar Şurası fəaliyyət göstərir. Qəyyumlar Şurası Universitetin strateji fəaliyyəti və onun istiqamətləri barədə məsləhətlər verir. Qəyyumlar Şurasının yaradılması, tərkibi, səlahiyyətləri, fəaliyyət istiqamətləri və fəaliyyətinin təşkili qaydası Nizamnaməyə uyğun olaraq Təsisçilər Şurası tərəfindən təsdiq edilən Əsasnamə ilə müəyyən edilir. Qəyyumlar Şurasının tərkibinə maliyyə və digər yardımlar göstərən hüquqi və fiziki şəxslər, dövlət və qeyri-hökumət təşkilatları, ictimai təşkilatların (birliklərin) nümayəndələri və digər şəxslər daxil ola bilərlər. Qəyyumlar Şurası Universitetin yeni elmi yanaşmalara inteqrasiyası imkanlarının artırılmasına, bu istiqamətli tədris vəsaitlərinin hazırlanmasına dəstək verilməsi, müasir texnologiyalar və digər resursların cəlb edilməsi, təhsildə mütərəqqi dünya təcrübəsinə yiyələnməsinə yardım edilməsi məqsədi ilə yaradılıb.

Universitetin təlim-tədris prosesi üzrə ali idarəetmə orqanı Universitetin Elmi Şurasıdır (bundan sonra – Elmi Şura). Elmi Şuranın yaradılması, tərkibi, səlahiyyətləri, fəaliyyət istiqamətləri və fəaliyyətinin təşkili qaydası bu Nizamnamə və Təsisçilər Şurası tərəfindən təsdiq edilən Elmi Şura haqqında Əsasnamə ilə müəyyən edilir. Elmi Şura Təsisçilar Şurasının mövcud qanunvericiliyə uyğun olaraq hazırladığı əsasnamə ilə yaradılır və fəaliyyət göstərir. Elmi Şuranın tərkibi Təsisçilər Şurası tərəfindən təsdiq edilir. Elmi Şuranın tərkibi Elmi Şuranın tərkibinə tutduğu vəzifəyə görə daxil olanlardan və seçki yolu ilə seçilən üzvlərdən formalaşdırılır. Elmi Şuranın

iclası onun üzvlərinin üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Elmi Şuranın qərarları Elmi Şuranın iclasında iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Elmi Şuranın tərkibi 30 nəfərdən ibarətdir. Onlardan 5 nəfəri elmlər doktoru, professor, 1 nəfər elmlər doktoru, 10 nəfər fəlsəfə doktoru, dosent, 1 nəfər Tələbə Gənclər Təşkilatının sədri, 1 nəfər Tələbə Elmi Cəmiyyətinin sədridir.

Universitetin strukturu onun Elmi Şurası tərəfindən müəyyənləşdirilir və təhsil müəssisəsinin rəhbəri tərəfindən təsdiq edilir. Universitetin struktur bölmələrinin fəaliyyət dairəsi və funksiyaları Universitet Nizamnaməsində öz əksini tapır. Universitet həyatının vacib sahələrinə aid məsələlər Elmi Şurada müzakirə olunur və müvafiq qərarlar qəbul olunur. Elmi Şuranın iş planları və protokollarının təhlili göstərir ki, müzakirəyə çıxarılan məsələlər ümumilikdə universitetin cari və perspektiv inkişafının həllinə yönəlmişdir. Elmi Şura və İcraçı Prorektorluq universitetin fəaliyyətinin idarə edilməsini tədris-metodika şöbəsi, fakültələr, kafedralar və digər struktur bölmələr ilə birlikdə əlaqəli şəkildə həyata keçirir.

Universitetdə ilkin kadr hazırlığı ilə məşğul olan 5 fakültə fəaliyyət göstərir.

Universitetin tərkibində struktur bölmə kimi 15 kafedra, magistratura və doktorantura şöbəsi, tədris şöbəsi, hüquq şöbəsi, insan resursları şöbəsi, beynəlxalq əlaqələr şöbəsi, ümumi şöbə, dövlət nümunəli sənədlərlə və tələbələrlə iş şöbəsi, ictimaiyyətlə əlaqələr şöbəsi, mühasibatlıq, Kompyuter Mərkəzi, kitabxana, Karyera mərkəzi, Keyfiyyətin təminatı mərkəzi, İmtahan mərkəzi, mətbəə, gender araşdırmaları mərkəzi və digər şöbə və mərkəzlər fəaliyyət göstərir.

Universitetin struktur bölmələri tədris prosesi və elmi-tədqiqat işlərinin təşkilində, onun həyata keçirilməsində, bilavasitə iştirak edir. Universitetin Elmi Şurasının qərarlarını, İcraçı Prorektorun əmr və sərəncamlarını yerinə yetirirlər.

Qərbi Kaspi Universiteti işə qəbulda, vəzifələrə təyin olunmada və ya seçilmədə, əməyin stimullaşdırılmasında, universitetə qəbulda, təhsil alanların ixtisas seçimində, biliyin qiymətləndirilməsində, məzunların işlə təmin edilməsində, ali təhsilin növbəti səviyyəsində təhsillərinin davam etdirilməsində, ixtisasın artırılmasında və təhsil sahəsində digər məsələlərdə kişilər və qadınlar üçün bərabər imkanlar yaradır.

Bütün bunlarla yanaşı universitetin 2021-2025-ci illər üzrə strateji inkişaf planı hazırlanmış və bu plana əsasən kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, idarəetmənin, struktur bölmələr arasında əlaqələrin gücləndirilməsi üçün yeni struktur müəyyənləşdirilmiş və tətbiq edilməkdədir.

Universitetin nəzdində tam orta ümumtəhsil məktəbi fəaliyyət göstərir. 2017/2018-ci tədris ilindən Qərbi Kaspi Universitetinin kolleci fəaliyyətə başlamışdır.

### *5.1.2. İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti*

QKU-nin Elmi Şurasının tərkibində Tələbə Gənclər Təşkilatının sədri, Tələbə Elmi Cəmiyyətinin sədri təhsilalanları təmsil edirlər

### *5.1.3. İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti*

Universitetin Elmi Şurası tədris illəri üzrə təsdiq edilmiş İş Planları üzrə nəzərdə tutulmuş məsələlər ətrafında müvafiq müzakirələr təşkil edir.

Elmi Şuranın iş planı 2018-2023-cü illərdə aşağıdakı tarixlərdə təsdiq olunmuşdur:

1. 2018-2019-cu tədris ili üçün 7 iyul 2018-ci il tarixli 11 saylı iclas protokolu
2. 2019-2020-ci tədris ili üçün 5 iyul 2019-cu il tarixli 10 saylı iclas protokolu
3. 2020-2021-ci tədris ili üçün 10 iyul 2020-ci il tarixli 11 saylı iclas protokolu
4. 2021-2022-ci tədris ili üçün 31 may 2021-ci il tarixli 10 saylı iclas protokolu
5. 2022-2023-cü tədris ili üçün 30 iyun 2022-ci il tarixli 10 saylı iclas protokolu

6. 2023-2024-cü tədris ili üçün 30 iyun 2023-ci il tarixli 11 saylı iclas protokolu

Elmi Metodiki Şuranın iclasları əsasnamənin tələblərinə uyğun olaraq bir təqvim ilində 10 dəfədən az olmayaraq çağırılır. Növbədənkənar iclaslar Şuranın rəhbərliyinin və ya onun üzvlərinin təklifi ilə çağırıla bilər. Elmi metodiki şura İcraçı Prorektor tərəfindən təsdiq olunmuş iş planı və öz əsasnaməsi üzrə fəaliyyət göstərir. Onun əsas vəzifəsi mütəxəssis hazırlığının keyfiyyətini yaxşılaşdırmaqdan, tədris məşğələlərinin yüksək elmi və nəzəri səviyyədə keçirilməsini təmin etməkdən, tədris metodiki bölmələr vasitəsilə universitetin tədris şöbəsinə, fakültə və kafedralara metodik köməklik göstərməkdən ibarətdir.

Onun tərkibinə prorektorlar, dekanlar, kafedra müdirləri, struktur rəhbərləri, müəyyən pedaqoji və elmi-metodiki iş təcrübəsinə malik olan yüksək ixtisaslı müəllim və mütəxəssislər daxil edilir. Elmi Metodiki Şura tərkibində müvafiq bölmələr fəaliyyət göstərməkdədir. Hər bir bölmənin vəzifələri əsasnamə əsasında tənzimlənməkdədir. Əsasnamə, illik fəaliyyət planları mövcuddur.

Elmi Metodiki Şuranın iş planı 2018-2023-cü illərdə aşağıdakı tarixlərdə təsdiq olunmuşdur:

1. 2018-2019-cu tədris ili üçün 14 sentyabr 2018-ci il tarixli 01 saylı iclas protokolu
2. 2019-2020-ci tədris ili üçün 13 sentyabr 2019-cu il tarixli 01 saylı iclas protokolu
3. 2020-2021-ci tədris ili üçün 14 sentyabr 2020-ci il tarixli 01 saylı iclas protokolu
4. 2021-2022-ci tədris ili üçün 13 sentyabr 2021-ci il tarixli 01 saylı iclas protokolu
5. 2022-2023-cü tədris ili üçün 14 sentyabr 2022-ci il tarixli 01 saylı iclas protokolu
6. 2023-2024-cü tədris ili üçün 14 sentyabr 2023-ci il tarixli 01 saylı iclas protokolu

### *5.1.4. İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti*

QKU-nin Elmi Şurasının gündəliyi müvafiq tədris ili üzrə təsdiq edilmiş iş planına uyğun olaraq hazırlanır. Gündəlikdəki məsələlər üzrə məruzəçilər reqlamentə uyğun olaraq çıxış edir və Elmi Şuranın sədri tərəfindən məruzə ilə bağlı təkliflərin, müzakirələrin aparılması üçün Şura üzvlərinə müraciət edilir. Sonda müzakirəyə təqdim olunmuş məsələ Elmi Şura üzvlərinin səs çoxluğu ilə təsdiqolunduqdan sonra müvafiq məsələ barəsində qərar qəbul edilir. Elmi Şurada müzakirəyə çıxarılan, lakin müvafiq qaydada təsdiq olunmayan məsələlərin təkmilləşdirilməklə növbəti Elmi Şurada müzakirəyə çıxarılması barədə qərar qəbul olunur.

Elmi Şuranın bütün qərarları təsdiq olunduqdan sonra aidiyyəti struktur rəhbərlərinə təqdim olunur və müvafiq qaydada əmrlə rəsmiləşdirilir.

### *5.1.5. İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti*

Qərbi Kaspi Universitetində hazırlanan tədris sənədləri Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş mövcud qanunvericiliyin tələblərinə uyğun hazırlanır. *Universitetdə kargüzarlıq işi normativ-hüquqi aktlara uyğun yerinə yetirilir.*

Elmi Şurasının qərarları Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 10.11.1997-ci il tarixli 792 nömrəli əmri ilə təsdiqlənmiş "Ali təhsil müəssisəsinin Elmi Şurası" haqqında Əsasnaməsinə, Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa, ATM-in Nizamnaməsinə, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq əmr və qərarlarına, o cümlədən ölkənin digər normativ-hüquqi aktlarına uyğun şəkildə qəbul olunur, qərarlar dərhal struktur rəhbərlərə təqdim olunaraq icra edilir. Elmi Şuranın gündəliyi və müzakirəyə çıxarılacaq bütün məsələlər Elmi Şura üzvlərinin e-mail ünvanlarına göndərilir. Eyni zamanda qəbul olunmuş qərarlar aidiyyatı üzrə protokol qaydasında da göndərilir.

Elmi Metodiki Şura öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin əmrlərinə və kollegiya qərarlarına, təlimat və göstərişlərinə, eləcə də ATM-in Nizamnaməsinə, Elmi Şurasının qərarlarına və rektorun əmrlərinə əsaslanır.

### *5.1.6. İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti*

İdarəetmə orqanları arasında qarşlıqlı əlaqə korporativ emaillər vasitəsilə aparılır. Universitetin Ümumi şöbəsi bu məsələdə koordinator funksiyasını yerinə yetirir. Belə ki, strukturlar arasına sənəd dövriyyəsini sənədlərin scan edilərək emaillər vasitəsilə göndərilməsini həyata keçirir. Ümumi şöbə sənədlərin qəbulu, qeydiyyatı, icraçı prorektora dərkənar yazılması üçün təqdimi və müvafiq strukturlara paylanılmasını təmin edir, sənədlərin icra vəziyyəti ilə maraqlanır, icra prosesinin vaxtında təmin edilməsinə nəzarət edir.

Universitetdə struktur bölmələrinin qarşılıqlı fəaliyyəti əsas götürülür. İstər fakültələr və kafedralar, istərsə də mərkəzlər, şöbələr arasındakı qarşılıqlı fəaliyyət ümumilikdə universitetdə görüləcək hər bir işin operativ şəkildə həyata keçirilməsinə imkan verir.

### *5.1.7. İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti*

Universitetin daxilində səlahiyyət və vəzifə bölgüləri Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən 23 may 2017-ci tarixli 1700370951 saylı qeydiyyatı ilə təsdiq edilmiş Nizamnaməyə uyğun olaraq tənzimlənir.

İcraçı Prorektor Universitetin qanuni təmsilçisi olmaqla yanaşı onun cari fəaliyyətinə bilavasitə rəhbərliyi həyata keçirir. İcraçı Prorektor Universitetin fəaliyyətinə rəhbərliyi Direktorlar Şurası və Qəyyumlar Şurası ilə razılaşdırmaqla və Elmi Şuranın tövsiyyələrini nəzərə almaqla əlaqəli şəkildə həyata keçirir. İcraçı Prorektor universitetin inzibati-funksional idarəetmə strukturunu və ştat cədvəlini təsdiq edir. Mövcud qanunvericiliyə uyğun olaraq, İcraçı Prorektor universitet adından vəkalətsiz fəaliyyət göstərir, bütün orqanlarda, idarə və müəssisələrdə onu təmsil edir. Universitetin əmlakı barədə öz səlahiyyətləri çərçivəsində sərəncamlar verir, müqavilələr bağlayır, etibarnamələr verir, banklarda universitet üçün hesablar açır. İcraçı Prorektor səlahiyyətləri çərçivəsində universitetin bütün işçiləri, tələbələri və digər müdavimləri üçün məcburi əmrlər və göstərişlər verir, işçilərlə müqavilə bağlayır və onlara vəzifə maaşları təyin edir.

Universitetin Nizamnaməsinə, İcraçı Prorektorun əmr və sərəncamlarının tələblərinə müvafiq olaraq tədris və tədris-metodiki işlərlə əlaqədar fəaliyyətin koordinasiyası tədris işləri üzrə prorektor, elmi işlərin koordinasiyası elm və innovasiyalar üzrə prorektor, ümumi işlərin koordinasiyası ümumi işlər üzrə prorektor, xarici əlaqələrlə bağlı fəaliyyətin koordinasiyası isə beynəlxalq əlaqələr şöbəsi tərəfindən həyata keçirilir. Mal-material alınmasını, bina və avadanlıqların cari və əsaslı təmirini, həmçinin digər təsərrüfat işlərini ümumi işlər üzrə prorektor həyata keçirir. Prorektorlar İcraçı Prorektorun təqdimatı əsasında Direktorlar Şurası tərəfindən təyin edilirlər. Universitetin idarə edilməsi ilə bağlı məsələlərə təhsili idarəetmə orqanları istisna olmaqla, dövlət və yerli özünüidarəetmə orqanlarının və digər təşkilatların müdaxiləsinə yol verilmir. İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsü keçirilir və bu təsdiqlənmiş təşkilati struktur ilə həyata keçirilir.

### *5.1.8. İdarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti*

Universitetin Elmi Şurasının müvafiq illərə görə fəaliyyət planının icrası ilə əlaqədar olaraq məruzələr Elmi Şurada dinlənilir, müzakirə edilir və qərarlar qəbul edilir.

Universitetdə fəaliyyətlərin illik monitorinqləri müvafiq olaraq tədris ili üzrə daxili illik özünütəhlil vasitəsilə və aidiyyəti bölmənin dövri hesabatları ilə tənzimlənir.

**5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti**

Universitetin idarəetmə strukturları öz fəaliyyətlərini QKU-nun Nizamnaməsi və Əsasnamələri əsasında qururlar. İdarəetmə strukturlarının fəaliyyəti ilə bağlı illik hesabatlar Elmi Şura iclaslarında müzakirə edilir və protokollaşdırılır. Elmi Şurada qəbul olunmuş qərarlar idarəetmə strukturlarının şəffaf və səmərəli fəaliyyətlərinin təmin edilməsi məqsədilə daim təkmilləşdirilir.

## 5.2 İnsan resurslarının idarə edilməsi

**5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti**

Akademik heyətin işə qəbulu "Ali təhsil müəssisəsində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tətbiqi barədə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 nömrəli əmri və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 07.08.1996-cı il tarixli 401 nömrəli əmrinin 1 saylı Əlavəsi ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə və qeyri-akademik heyətin isə "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 29.06.2018-ci il tarixli 1196-V.Q. No-li Qanununa uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin "Məşğulluq Alt Sistemi"ndə universitet tərəfindən verilmişelana uyğun olaraq vakansiyaya göndəriş əsasında həyata keçirilir.

İşə qəbul üçün müraciətlər aidiyyatı şöbə və kafedralara göndərilir. Kafedralarda açıq dərslər keçirilir. Müraciət edənin sahəsi üzrə ən azından üç mütəxəssisin iştirakı ilə açıq dərsin nəticəsi qiymətləndirilir. Sonra rəhbərlik tərəfindən işə qəbul haqda qərar qəbul edilir. Bütün vəzifələrin tutulması üçün həyata keçirilən prosedur qanunvericiliyin tələblərinə uyğun reallaşdırılır.

**5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması**

Universitetin akademik və inzibati heyətinin Strategiyaya və maliyyə resurslarına uyğunluğu Strategiyanın Fəaliyyət planına və müvafiq ştat cədvəlinə əsasən tənzimlənir. Belə ki, Strategiyanın fəaliyyət planında icraçılar qismində bütün struktur vahidləri nəzərə alınmışdır.

**5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması**

QKU-nin Elmi Şurasının qərarı ilə Universitetdə tədrisin, elmi tədqiqatın səviyyəsinin yüksəldilməsi və işçilərin motivasiyasının gücləndirilməsi üçün differensiallaşmış əməkhaqqı sistemi formalaşdırılmışdır.

Həmçinin, Universitetin rəhbər və inzibati idarə heyətinin 2023-cü maliyyə ili üçün ştat cədvəlində şöbələrin və işçilərin səlahiyyət həcmindən və məsuliyyət dərəcəsindən asılı olaraq fərqli əmək haqları müəyyənləşdirilmişdir.

**5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması**

Hər il ştat cədvəli hazırlanarkən QKU-də işçilərin səlahiyyət həcmi, məsuliyyət dərəcəsi, peşəkarlıq səviyyəsi nəzərə alınır. Eyni zamanda vəzifə maaşlarına əmrlər ilə əlavələr müəyyən

edilmişdir. Əmək haqqı ödənişində hər bir işçiyə onun fərdi keyfiyyətlərindən asılı olaraq yanaşma mövcuddur.

### *5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti*

QKU-də İşçilərin motivasiyası və mükafatlandırma sistemi mövcuddur. Ayrı-ayrı göstəricilər üzrə nəticələr əldə olunmasından asılı olaraq mükafatlandırma aparılır (Scopus bazasında məqalələr üçün və s). Bu eyni zamanda fəaliyyətin səmərəliliyinin qiymətləndirilməsi üçün də tətbiq olunur.

### *5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti*

Universitetdə mütəmadi olaraq kurslar və peşəkarlıq səviyyəsinin artırılması istiqamətində təlimlər keçirilir, işçilər ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilirlər. Elektron universitet yaradılması istiqamətində aparılan tədbirlər çərçivəsində bir neçə dəfə belə təlimlər keçirilmişdir.

### *5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti*

Universitet daxilində hər il  Bayram və əlamətdar günlərdə əməkdaş və tələbələr üçün mədəni-kütləvi tədbirlər təşkil edilir. Belə ki, tələbələrlə şəhərin tarixi abidələrinə və müxtəlif rayonlara səfərlər təşkil olunur.Universitetin əməkdaşlarının ictimai fəallıqlarının təmin edilməsi məqsədilə müxtəlif mövzularda konfranslar, dəyirmi masalar, müsabiqələr və s. tədbirlər həyata keçirilir.

### *5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti*

QKU-də işə qəbul prosesinin əsas məqsədi təşkilati məqsədlərin həyata keçirilməsinə uyğun olan ixtisaslı kadrların vakant vəzifələrə cəlb edilməsidir. İşə qəbul metodu seçilərkən mədəni normalar, əmək bazarının vəziyyəti, vakant vəzifənin tələbləri, əməkhaqqı kimi bir çox amillər nəzərə alınır. Namizədlər həm universitetin daxilindən seçilə, həm də kənardan cəlb edilə bilərlər. Bununla bağlı prosedur 5.2.1-də qeyd olunub

### *5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti*

Kadrların qiymətləndirmə kartlarında onların fəaliyyəti ilə bağlı nəticələr qeyd olunur.

Universitetin qeyri-akademik heyətinin fəaliyyətinin qiymətləndirilməsi məqsədilə inzibati, texniki və köməkçi heyət üzvlərinin illik iş planı tərtib olunur. Əməkdaşların təhkim olunduğu struktur bölmələr müəyyən edilmiş müddətə görə hesabatları dinlənilir.  Onların fəaliyyəti struktur bölmə tərəfindən qiymətləndirilərək müvafiq qərarlar qəbul edilir.

### *5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti*

Əmək münasibətlərinin bağlanması və xitam verilməsi Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələblərinə uyğun aparılır (https://e-qanun.az/framework/46943). Bütün hallarda qanunvericiliyin tələbləri nəzərə alınır.

### *5.3 Maliyyə resurslarının idarə edilməsi*

***5.3.1 ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi-tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu***

QKU-un Nizamnaməsinin 7-ci bəndinə əsasən Universitetin əmlakı nizamnamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, o cümlədən, ödənişli təhsildən əldə edilən vəsaitdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan olunmayan digər vəsaitdən formalaşdırılır.

***5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi***

QKU-da qısa və orta müddətli dövr üçün maliyyə resurslarının planlaşdırılması sistemi mövcuddur. Belə ki, hər il ötən ilin faktiki göstəriciləri nəzərə alınmaqla, yeni büdcə ili və növbəti 3 il üçün fəaliyyət planına əsaslanan baza proqnoz göstəriciləri tərtib edilir və baxılması üçün QKU-nun Qəyyumlar Şurasına və müvafiq dövlət qurumlarına təqdim edilir.

***5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəsissənin SİP-ə uyğunlaşdırılması vəziyyəti.***

QKU-da maliyyə resurslarının planlaşdırılması prinsipləri və vəzifələri Universitetin strateji inkişaf istiqamətləri və hədəflərinə uyğundur. Planlaşdırmanın əsas prinsipləri: fasiləsizlik, dəqiqlik, effektivlik, ödəmə qabiliyyətlilik, risklərin balanslaşdırılması planlaşma zamanı nəzərə alınır. Bu istiqamətdə fəaliyyət Universitetin mövcud strateji inkişaf planına uyğunlaşdırılmışdır.

***5.3.4 Əlavə maliyyə resurslarının əldə etmək imkanlarının vəziyyəti***

Universitet əlavə maliyyə resursları əldə etmək istiqamətində iş aparır. Bu istiqamətdə nəzərdə tutulan mənbələr qrantlar və elmi-patentlərin hesabına formalaşa bilər. Universitet əlavə maliyyə resurslarının cəlb olunması və artırılması üzrə istiqamətləri müəyyən etmişdir. Bunlara Elmi-tədqiqat işlərinin nəticələrinin kommersiyalaşması, şəxsi ianələr, xeyriyyə vəsaitləri və digərləri aid edilə bilər.

***5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi***

Əldə olunan maliyyə resursları Azərbaycan Respublikasının "Təhsil haqqında", "Elm haqqında" qanunlarına və QKU-nin Nizamnaməsinə uyğundur.

***5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu***

Maliyyə resurslarından istifadə Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Elm haqqında" qanunlarında nəzərdə tutulmuş qaydada və QKU-nin nizamnaməsinə əsasən təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə yönəldilir.

***5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu***

QKU-nun Nizamnaməsinə görə Universitetin fəaliyyətindən əldə etdiyi vəsait yalnız təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə, habelə Təhsil Nazirliyinin müəyyən etdiyi məbləğdə Təhsilin İnkişafı Fonduna yönəldilməsi nəzərdə tutulmuşdur. Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetaları aidiyyatı şöbələr tərəfindən Universitetin Nizamnaməsinə uyğun olaraq hazırlanır və rəhbərlik tərəfindən təsdiq edilir.

### *5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi*

Universitet Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq normativlərə uyğun maliyyələşdirilir. Rektor - Universitetin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir. Universitetə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir və buna nəzarəti həyata keçirir. Universitet idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

Maliyyə resurslarının təyinatı üzrə istifadəsinə rəhbərlik tərəfindən mütəmadi nəzarət həyata keçirilir.

### *5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti*

Dövlət satınalmaları ilə bağlı münasibətlər dövlət satınalmaları haqqında AR Qanunu, Azərbaycan Respublikasının digər qanunları və normativ hüquq aktları ilə tənzimlənir.

Dövlət satınalmaları ilə bağlı münasibətlər dövlət satınalmaları haqqında AR Qanunu Azərbaycan Respublikasında dövlət müəssisə və təşkilatları (idarələri), nizamnamə fondunda dövlətin payı 30 faiz və daha çox olan müəssisə və təşkilatlar tərəfindən malların (işlərin və xidmətlərin) dövlət vəsaitləri, dövlətin aldıqları və dövlət zəmanəti ilə alınmış kreditlər və qrantlar hesabına satın alınmasına şamil edilir.

QKU malların alınması, işlərin görülməsi, xidmətlərin göstərilməsi üzrə satınalma prosedurların qanunvericiliyin tələblərinə uyğun olaraq təşkil edir və öz nizamnaməsinə əsasən sərbəst şəkildə müqavilələr bağlayır.

### *5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti*

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparılır, maliyyə hesabatları müvafiq qaydada tərtib və aidiyyəti üzrə təqdim edilir.

### *5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti*

"Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatlar, Azərbaycan Respublikası Vergi Məcəlləsinə müvafiq "Muzdlu və Qeyri Muzdlu İşlə əlaqədar Vahid Bəyyannamə", "Ödəmə mənbəyində tutulan vergi Bəyannaməsi”, "ƏDV Bəyannaməsi", "Mənfəət Vergisinin Bəyannaməsi”, "Əmlak Vergisinin Bəyannaməsi”, "Torpaq Vergisinin Bəyannaməsi” elektron qaydada tərtib və təqdim edilir.

### *5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti*

Nizamnaməyə əsasən QKU-da “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparılırr, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edilir. Müvafiq illik maliyyə hesabatları https://wcu.edu.az/ saytında dərc edilir.

***5.3.13 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu***

QKU-da daxili audit bölməsi fəaliyyət göstərir və bu bölmənin fəaliyyətinə Qəyyumlar Şurası nəzarət edir, onun fəaliyyətinə dair hesabatlar alır, habelə onun üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə qərar qəbul edir. Daxili audit dövrü olaraq tələblərə uyğun aparılır.

***5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu***

Qanunvericiliyin tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən hər il audit aparılır.

***5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti***

Universitetin Nizamnaməsində maliyyə resurlarının əldə edilməsi məqsədilə qrant layihələrində iştirak, müxtəlif istiqamətli ödənişli təlimlərin keçirilməsi, əcnəbi və əlavə təhsil üzrə tələbələrin cəlb edilməsi nəzərdə tutulmuşdur. Bu məsələ daima diqqətdə saxlanılır.

## *5.4 İnformasiya idarəetmə sistemi*

***5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, onun hüquqi əsaslarının və reqlamentinin mövcudluğu***

Azərbaycan Respublikası Prezidentinin "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" Fərmanının müvafiq bəndlərinin təmin edilməsi məqsədilə “Elektron jurnal” sistemlərinin tətbiqinə başlanılmışdır. Azərbaycan Respublikası Prezidentinin "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat”ın təsdiq edilməsi haqqında 27.09.2003-cü il tarixli 935 saylı Fərmanında dəyişikliklər edilməsi barədə "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14.07.2015-ci il tarixli 569 saylı Fərmanı ilə dəyişikliklər və əlavələrə əsasən işlərin bu sistem vasitəsilə aparılmasına başlanmışdır.

***5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti***

Bu sistemdə istifadəsi nəzərdə tutulan istiqamətlərdə fəaliyyət elektron daşıyıcılar vasitəsilə həyata keçirilir. Davamlı olaraq sistemdə məlumatlar yenilənir.

Universitetin İnformasiya idarəetmə sisteminə daxil olan Elektron jurnal, Elektron imtahan sistemi və tələbə kabineti proqram təminatı və verilənlər bazası səviyyəsində hər il mütəmadi olaraq yenilənir.Proqram təminatı üzrə Backup alınır.Serverdə yenilənmələr daxil edilir. Tələblərə uyğun olaraq mövcud olan elektron jurnal, tələbə kabineti və imtahan sisteminə əlavələr edilir. Hər yeni semestr üzrə sistemlərdə mövcud informasiya yenilənir. Proqram tərtibatçıları proqram təminatına müvafiq əlavələri edir, fakültələr üzrə təyin edilmiş məsul şəxslər sistemə yeni informasiyanı daxil edirlər.

***5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu***

EU platformasında səlahiyyət bölgüsü rollar əsasında həyata keçirilir. Belə ki, inzibatçı, fakültə dekanı, kafedra inzibatçısı rolları mövcuddur. Hər bir rol özünəməxsus imkan və məhdudiyyətlərlə fərqləndirilir. Yerində verifikasiya zamanı, səlahiyyət bölgüsü üzrə işlərin icrasına nəzarətin artırılması və sistemli xarakter daşımasının təmin edilməsi ehtiyacının olduğu müəyyən edilmişdir.

Əsas admin və admin olaraq səlahiyyət bölgüsü mövcuddur.Əsas admində sistemin baza və proqram təminatlarına idarəetmə, bütün informasiyaya tam nəzarət etmək səlahiyyəti var. Admin səlahiyyəti hər fakültə üzrə tyutor verilmişdir. Fakültə üzrə fənlərin, qrupların, jurnalların yaradılması, sillabuslara nəzarət edilməsi və s. kimi admində olan səlahiyyətlər daxildir.

### *5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti*

Universitetə qəbuldan etibarən tələbələrin bütün tədris fəaliyyətləri elektronlaşdırılmışdır. Tələbələrin qəbulu zamanı sənədlərin elektron versiyası sistemə daxil edildikdən sonra tələbələrin qəbulu sayt vasitəsilə aparılır. Qəbul müraciəti təsdiq olunur. Müraciəti təsdiq olunmuş tələbələrə avtomatik olaraq kabinet açılır. Kabinetin istifadəçi adı və şifrəsi qəbul prosesində tələbəyə təqdim edilir.

Pandemiya ərəfəsində bütün dərslərin elektronlaşdırılması təmin edilmiş, pandemiyadan sonra isə qeyri ixtisas fənləri onlayn formada, bəzi ixtisas fənləri isə hibrid formada təşkil edilməkdədir. Tələbələrin elektron sistemə əlçatanlılığının təmin edilməsi üçün tələbə kabinetlərindən link vasitəsilə dərslərə qoşulması asanlaşdırılmışdır. Bundan əlavə dövlət qurumları tərəfindən müəyyən edilmiş tələbləri qarşılamaq məqsədilə tədris binalarına quraşdırılmış giriş-çıxış sis vasitəsilə aparılır. Bu da öz növbəsində əmək haqlarının hesablanması zamanı istifadə olunan müvafiq sistema inteqrasiya olunur. Bundan əlavə turniketin tələbələrin elektron jurnallarına da müvafiq qaydada inteqrasiyası təmin edilmişdir.

Tədris prosesinin əsasını təşkil edən jurnal və imtahan prosesi tam olaraq rəqəmsallaşdırılmışdır.Universitetimizdə elektron jurnal, elektron imtahan sistemi və əlavə olaraq tələbələr üçün tələbə kabineti mövcuddur. Elektron jurnal və elektron imtahan sistemi təhlükəsizliyin təmin edilməsini əsas alaraq universitetin lokal serverində yerləşdirilmişdir. Sistemdən istifadə üçün İntranet şəbəkədən istifadə olunur.Universitetin bütün kompüterlərində domen sistemindən istifadə olunduğu üçün elektron sistemin ikiqat təhlükəsizliyi təmin olunmaqdadır.

**Elektron jurnal sistemi**

Qiymətlərin və davamiyyətin qeyd edilməsi üçün elektron jurnal sistemi yaradılmışdır. Jurnalda mövcud olan proseslər proqram təminatında nəzərə alınaraq avtomatlaşdırılmışdır.Sillabusun daxil edilməsi, qiymətlərin və davamiyyətin qeyd edilməsi, bal vərəqinin çapı kimi funksionallıqlar sistemdə öz əksini tapır.Jurnalda hər bir fakültədə məsul əməkdaş tərəfindən sistemdən istifadə üçün müəllim profilləri yaradılır,hər semestr yeni jurnallar,qruplar və fənlər sistemə daxil edilir. Hər bir müəllim öz fənni üzrə sillabusunu və həmin fənn üzrə elektron tədris məlumatlarını sistemə daxil edir.Dərs zamanı müəllim qiymətləndirmə və davamiyyəti qeyd edir, həmçinin istənilən sayda tədris fayllarını sistemə yükləmə imkanına malikdir.Semestr sonunda elektron jurnallar bağlanılır və bal vərəqi sistem vasitəsi ilə çap edilir. İntranet şəbəkədə istifadə olunur, yalnız universitet daxilində aşağıdakı link vasitəsi ilə giriş mümkündür. http://my.edu.wcu/

**Elektron imtahan sistemi**

Tələbələrə test imtahanı salındığı təqdirdə elektron imtahan sistemindən istifadə olunur.Hər bir tələbə imtahan otagında özünə məxsus e-mail və şifrə vasitəsi ilə elektron imtahan sisteminə daxil olur.Həmin günə təyin edilmiş imtahanı seçir və imtahan üzrə sualları cavablandırır. Təyin edilmiş vaxt limitində imtahanı bitirir.İmtahanı bitirdiyi təqdirdə imtahan balı ekranda görünür.İ mtahanda köçürmə hallarının qarşısının alınması üçün sistemdə ikinci pəncərəyə klik qadağası tətbiq edilmişdir. Ekrana üç dəfə xəbərdarlıq gəldiyi təqdirdə, əgər tələbə yenə də başqa pəncərəyə klik edərsə bu zaman imtahan avtomatik olaraq sistem tərəfindən sonlandırılır. İntranet

şəbəkədə istifadə olunur, yalnız universitet daxilində aşağıdakı link vasitəsi ilə giriş mümkündür. student.edu.wcu

**Tələbə kabineti**

Universitetimizin tələbələri üçün tələbə kabineti mövcuddur. Bu sistem vasitəsi ilə tələbələr təlim prosesi barədə məlumat ala bilirlər. Ətraflı 5.4.5 bəndində izah edilmişdir.

### *5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi*

İnformasiya idarəetmə sisteminə əlçatanlığı tələbə və müəllimlər üçün yaradılmış kabinetlər vasitəsi ilə təmin edilir. Belə ki, tələbələr daim cədvəllərinə, onlayn və ya hibrid dərslərin linklərinə, həmin dərslərin video yazısına, dinlədiyi fənlər üzrə müəllimlər tərəfindən yüklənmiş tədris materiallarına, tədris zamanı müəllimlər tərəfindən verilmiş tapşırıqlara baxış imkanı və həmin tapşırıqların vaxtında müəllimə təqdim edilmə imkanı, müəllim, kommunikasiya modulu vasitəsilə tələbə və ya əməkdaşlarla rahat ünsiyyətə girmə imkanı, akademik fəaliyyətinin sistem tərəfindən qiymətləndirilməsinə daimi baxma imkanı, tələbələr tərəfindən müəllimlərin qiymətləndirməsi sorğusunda iştirak imkanı, ölkə daxili, həmçinin beynəlxalq tədbirlər barədə elanlara çıxış imkanı təmin edilir.

Tələbər üçün veb səhifəmizdə tələbə kabineti bölməsi mövcuddur. Bu kabinet vasitəsi ilə tələbələr istənilən vaxt öz qiymətləri və keçdiyi fənlər barədə məlumat ala bilir və sistemə müəllim vasitəsi ilə yüklənmiş elektron tədris materiallarını əldə edə bilirlər.Tələbələrin bu elektron sistemdən yararlanması üçün universitetin informasiya idarəetmə sistemində hər bir tələbə üçün profil yaradılır, hər bir tələbəyə məxsus unikal olan email və parol vasitəsi ilə tələbə kabinetinə giriş edilir.Tələbə kabinetinə giriş universitetimizin veb səhifəsindən mümkündür https://wcu.edu.az/

### *5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi*

Avropa keyfiyyət standartı təlimatları (ESG 2015) və qaydalarına əsasən daxili keyfiyyət təminatı sisteminin tələbəyönümlü olması nəzərə alınaraq qurulmuş informasiya idarəetmə sistemində tələbələrin məlumatlara, tədris materiallarına əlçatanlığının təmin edilməsi üçün tələbə və müəllim kabinetləri yaradılmışdır. Kabinetlər vasitəsilə xəbər və elanlar, tədris materiallarına daim əlçatanlığı təmin edilmişdir. Bundan əlavə tələbənin imtahan nəticəsi ilə tanışlığı və nəticədən narazı qaldığı halda dərhal müvafiq komissiyaya müraciət etməsi üçün müvafiq imkan yaradılmışdır. Müvəffəqiyyətinin ölçülməsi üçün qaydalara uyğun olaraq ÜOMG-nin avtomatik hesablanması və ona nəzarət etmə imkanı mövcuddur. Həmçinin yaradılmış Bir Pəncərə vasitəsilə tələb olunan yerə lazımi sənədin hazırlanması üçün günün istənilən saatında müvafiq müraciətin olunma imkanı tələbələrə təqdim edilmişdir. Eyni zamanda onlayn dərslər üçün yaradılmış imkan vasitəsilə dərsi yenidən dinləmə imkanının təmin edilməsi üçün video yazılara baxış imkanı da yaradılmışdır.

İnformasiya idarəetmə sistemi Keyfiyyətin idarə olunmasına əhəmiyyətli dərəcədə təsir göstərir. İnformasiya idarəetmə sistemik vasitəsi ilə Davamiyyətə, tədris materiallarının sistemdə mövcudluğuna daimi nəzarət olunur.Universitetimizdə fəaliyyət göstərən keyfiyyətə nəzarət şöbəsinin əməkdaşları da bu elektron sistemdən istifadə edirlər. Elektron sistemdə müvafiq şöbə əməkdaşları üçün profillər yaradılır və müəllimlərin və tələbələrin fəaliyyətinə nəzarət edilir.Sistem imkan yaradır ki, keyfiyyətə nəzarət şöbəsinin əməkdaşları tərəfindən tələbələrin davamiyyəti, aktivliyi izlənilsin, müəllimlərin sistemdə sillabus və elektron tədris vasitələrinin yüklənilməsinə nəzarət edilir.

### *5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və*

***Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi***

Universitetdə olan informasiya idarəetmə sistemlərinin təkmilləşdirilməsi, aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarının informasiya idarəetmə sistemlərinə inteqrasiyası istiqamətində işlər aparılır. Zəruri informasiyalar mütəmadi olaraq Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Mərkəzləşdirilmiş İnformasiya Sisteminin Ali və Orta İxtisas Təhsili Alt Sistemi (ATIS), Tələbə Məzun Dövlət Elektron Məlumat Sistemi (TMMS), Diplom Təsdiq Sisteminə (DTS) daxil edilir.

Universitetimizin İnformasiya idarəetmə sisteminin Relm və Təhsil nazirliyinin Təhsil mərkəzləşdirilmiş informasiya sisteminə inteqrasiyası nəzərdə tutulmuşdur. Digər universitetlərin də təcrübəsi araşdırılaraq və bu prosesin tətbiq olunması yaxın zamanda planlaşdırılır. Sistemlərin təhlükəsizliyini əsas götürərək, inteqrasiya prosesinə cox ehtiyatla yanaşılmaqdadır ki, bu da öz növbəsində bir az vaxt tələb etməkdədir.

#### *5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti*

İnformasiya idarəetmə sistemlərinin təhlükəsizliyi QKU-nun İnformasiya Texnologiyaları Mərkəzi tərəfindən təmin edilir. İnformasiya idarəetmə sistemləri Universitetin serverlərində və AzCloud-da saxlanılır. Fortigate, Cisco avadanlıqları vasitəsilə Firewall sistemi aktiv edilməsilə sistemlərin təhlükəsizliyi yüksək səviyyədə təşkil edilmişdir. Şəbəkə təhlükəsizliyi (Firewall) avadanlıqları üzərindən Web Filter, IPS, Application filter, Spam Filter kimi təhlükəsizlik sistemləri tətbiq edilmişdir.

Universitetimizin İnformasiya idarəetmə sistemi təhlükəsizliyinin təmin olunması baxımından universitetin daxili lokal serverində yerləşdirilmişdir. Təhlükəsizlik əsas alınaraq sistemlərə giriş universitetimizin daxilində intranet şəbəkədə mümkündür.Elektron jurnal və elektron imtahan sistemləri lokal serverdə yerləşdirilmiş və yalniz universitet daxilində intranet şəbəkədən istifadə etməklə giriş mümkündür. Sistemlərdə əsas admin və admin səlahiyyətləri var. Əsas admin it şöbədə proqram tərtibatçıları tərəfindən idarə edilir.Admin səlahiyyəti hər fakültə üzrə məsul əməkdaşa verilir.

### *5.5 İctimaiyyətlə əlaqələr*

#### *5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti*

ATM-in rəsmi saytı 2017-ci ildə yaradılmışdır. Saytın yaradılmasının məqsədi universitetdə baş verən bütün yenilikləri ictimaiyyətə operativ şəkildə çatdırmaq olub. Burada universitetdəki yeniliklərlə yanaşı, universitetin peşəkar ekspertlərinin rəyləri, tələbə, məzun və abituriyentlərə yönəlik layihələr, uğur hekayələri, müsahibələr və digər mövzuları əhatə edən məlumatlar, eləcə də müxtəlif məzmunlu elanlar yer alır.

https://wcu.edu.az/ saytında rəhbərlik, inzibati struktur, fakültə, kafedralar, universitetlə əlaqə, filiallar, tədris binaları, akademik heyət və digər istiqamətlər üzrə məlumatlar əks olunmuşdur.

#### *5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti*

https://wcu.edu.az/ saytındakı məlumatlar həmin saytdakı bölmələr üzrə hər hansı dəyişiklik baş verdikdə yenilənir. Sayta mütəmadi olaraq yeni məlumatlar verilir.

#### *5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə*

***üsullarından istifadə vəziyyəti***

ATM barədə məlumatlar universitetin saytı ilə yanaşı, rəsmi sosial şəbəkələrimizdə - Facebook, İnstaqram, Teleqram, Youtube, Twitterdə paylaşılır. Eləcə də fakültə, inzibati struktur və tələbə təşkilatlarının sosial şəbəkələrində də paylaşılaraq geniş ictimaiyyətə çatdırılır. Eyni zamanda əməkdaşlıq etdiyimiz KIV-də işıqlandırılır.

***5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti***

Fəaliyyət planı illik olaraq hazırlanır və yenilənir, fəaliyyətlər həmin istiqamətdə aparılır.

***5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanı verməsi vəziyyəti***

Xarici maraqlı tərəflər universitetdə tətbiq olunan yenilikləri rəsmi saytdan, KİV-dən və sosial şəbəkələrdən mütəmadi olaraq izlədiklərini bildirirlər. ATM-lə əlaqəli məlumat paylaşıldıqdan sonra hər hansı sualı, təklifi, iradı olanlar Qaynar Xətt, eləcə də müvafiq struktur bölməsi ilə əlaqə saxlayaraq və rəsmi social şəbəkələrimizə yazaraq ətraflı məlumat əldə edirlər.

***5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti***

Məlumatlar paylaşıldıqdan sonra müvafiq qaydada monitorinqlər aparılır. Eləcə də şöbə tərəfindən həftəlik olaraq, universitet barədə çıxan xəbərlərin monitorinqinin hesabatı rektorun göstərişi əsasında müvafiq struktur bölmələrə göndərilir.

# 6. İNFRASTRUKTUR

## 6.1 Tədris infrastrukturu

### 6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

QKU-nun tədris binaları və tədris otaqları dövlət standartlarına uyğundur. Belə ki, Universitetdə tədrisin təşkil olunduğu müxtəlif ünvanlarda yerləşən 5 binası və 9 təlim, tədris və istehsalat təcrübə bazaları vardır. Bu binalarda cəmi 145 auditoriya mövcuddur. Olardan 37-si mühazirə, 108-i isə məşğələ otağıdır. Mühazirə otaqlarının faydalı sahəsi 2682,5 $m^2$ , məşğələ otaqlarının sahəsi isə 4306,3 $m^{2-}$dir. İnzibati heyətin fəaliyyətini təmin edən zəruri otaqların sayı 45, sahəsi is 2320,5 $m^2$-dir. Akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq sayı 22, sahəsi isə 1301,2 $m^2$-dir. Elmi tədqiqatların aparılmasına imkan verən avadanlıqlarla təchiz olunmuş müasir və digər laboratoriyaların sayı 25, sahəsi isə 1151,5 $m^2$-dir.

### 6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti

QKU-da geniş məlumat və biblioqrafik avadanlıqlarla təmin olunmuş zəngin elmi kitabxana və elektron kitabxana mövcuddur. Universitetin iki ünvanda yerləşən binalarında kitabxana fəaliyyət göstərir : Əsas korpus adlanan Səbayıl rayonu İstiqlaliyyət küçəsi 27 ünvanında və Əhməd Rəcəbli küçəsi 3/21 ünvanında yerləşən 2-ci korpusda. Əsas korpusda kitabxana 441 $m^2$, 2-ci korpusda isə 253 $m^2$ sahəni əhatə edir. Hər təhsil alana düşən faydalı sahə 1.5 $m^2$-dir. Kitabxanada mövcud olan kompyüterlərin sayı əsas korpusda 4, 2-ci korpusda isə 21 ədəddir. Onların hamısı internetə qoşulmuşdur. Hər iki kitabxanada mövcud olan kitab sayı 939078 ədəddir. Kitabxanaların ümumi fonduna daxil olan dərslik və dərs vəsaitlərinin sayı 1213 çap formatında 600000-dən atıqdır. Elektron kitabların sayı 15000, onlayn kitabların sayı 890778-dir. Çap şəklində olan kitabların sayı 33300-dür. Bədii ədəbiyyatların say 4388 çap formatında 80000 onlayn kitabdan ibarətdir. Monoqrafiyaların sayı 312-dir. Digər tədris dillərində mövcud olan ədəbiyyat sayı çap formatında rus dilində 12317, ingilis dilində 9015, elektron və onlayn kitablar rus dilində 2500, ingilis dilində 730000-dir.

Kitabxanada daimi qeydiyyatda olan oxucuları sayı akademik heyət 156, təhsil alanlar 4341-dir. Oxu zalında oxuyucular üçün ayrılmış yerlərin sayı 132-dir. Kitabxana vasitəsilə çıxışın mümkün olduğu beynəlxalq elmmetrik bazalar aşağıdakılardır:

- SCOPUS məlumat bazası
- PERLEGO onlayn kitab platforması
- EBSCO məlumat bazası

Eləcə də açıq olmayan informasiya resursları mövcuddur: DOAB, DOAJ, EconBiz, Poerperty, CORE, PubMED, Forced, Miqration

### 6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti

QKU-da kadr hazırlığı aparıldığı ixtisasların xüsusiyyətlərinə uyğun olaraq müasir səviyyədə təchiz olunmuş təlim-tədris bazası vardır. Bunlara laboratoriyalar, fənn otaqları, linqafon kabinetləri və s. aiddir. Bunlarla yanaşı Quba rayonu ərazisində Eksperimental Bağçılıq Landşaft Poliqonu, Pirəkəşkül qəsəbəsində İdman bazası və Salyan rayonu ərazisində Xəzər Dənizi Problemləri Elmi Tədqiqat Mərkəzinin Təcrübə bazası mövcuddur.

### 6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

Universitetdə əksər auditoriya və tədris laboratoriyalarında mərkəzləşdirilmiş sistemlə izləmə mümkündür. İxtisaslara uyğun təcrübə otaqları və tədris laboratoriyaları mövcuddur. Kadr hazırlığının yüksək səviyyədə aparılması üçün zəruri əyani vasitələr, qurğu və avadanlıqlarla

təchiz edilmiş tədris laboratoriyaları ilə yanaşı, elmi-tədqiqat laboratoriyalarının, Tədqiqat, İnkişaf və Ətraf mühitin mühafizəsi elmi-tədqiqat laboratoriyalarının, Tələbə elmi-texniki yaradıcılıq mərkəzinin, elmi-tədqiqat mərkəzlərinin, tədris-təcrübə mərkəzlərinin maddi-texniki bazasından səmərəli istifadə olunur.

### *6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti*

QKU-da aşağıdakı istehsalat təcrübə bazaları mövcuddur.

1. "Qərbi Kaspi Universitetinin Xəzər Dənizi Problemləri Elmi Tədqiqat Mərkəzi"nin Təcrübə bazası-Salyan rayonu, Şirvan Milli Park ərazisi
2. "Qərbi Kaspi Universitetinin Davamlı İnsan İnkişafı İnstitutu"-nun Kənd Təsərrüfatı Məhsulların İstehsalı və Emalı Mərkəzi- Xızı rayonu, Giləzi qəsəbəsi
3. "Qərbi Kaspi Universitetinin Ekoloji Tədqiqat Mərkəzi"nin Ekoturizm və Davamlı İnkişaf Mərkəzi- Xızı rayonu, Giləzi qəsəbəsi
4. Qərbi Kaspi Universitetinin İnsan İnkişafı İnstitutunun Eksperimental Bağçılıq Landşaft Poliqonu-Quba rayonu, Quba şəhəri
5. Qərbi Kaspi Universitetinin və Beynəlxalq Dırmanma və Dağçılıq Federasiyası- Dağ Mədəniyyətləri və Landşaftları Tədqiqat İnstitutu/Dağ bazası – Quba rayonu, Buduq kəndi
6. Qərbi Kaspi Universitetinin İdman Bazası -Abşeron rayonu, Pirəkəşkül qəsəbəsi
7. Qərbi Kaspi Universitetinin Texnoparkın İstehsalat Təcrübə Bazası- Abşeron rayonu, Pirəkəşkül qəsəbəsi
8. Qərbi Kaspi Universitetinin Dağçılıq Bazası-Quba rayonu, Xınalıq kəndi

### *6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti*

Pandemiya dövründə QKU-da ZOOM və TEAMS tədris platformaları üzərindən distant təhsil təşkil edilmişdir. Hal-hazırda da bu platformalar vasitəsilə zəruri hallarda tədris aparılır.

### *6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti*

Universitetdə nəqliyyat xidməti mövcuddur. Nəqliyyat xidmətlərindən kütləvi tədbirlər, istehsalat təcrübəsi və s. zamanı professor- müəllim heyətinin və tələbələrin fəaliyyətinin reallaşdırılması üçün geniş istifadə edilir. Universitetin balansında aşağıdakı nəqliyyat vasitələri vardır: 2 ədəd Hyundai Country markalı avtobus, 1 ədəd QAZ 322131-14 markalı və 1 ədəd Ford Transit markalı yük avtomobili, 1 ədəd Nissan Altima və 1 ədəd Nissan Qaşqay markalı minik avtomobilləri.

### *6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti*

QKU-nun tədris infrastrukturunun professor- müəllim heyəti, eləcə də tələbələr və inzibati heyət üçün əlçatanlığı təmin edilmişdir. 6.1.1. və 6.1.2. bəndlərində qeyd olunanlar tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyətini əks etdirir.

### *6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti*

Universitetdə sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturu qismən mövcuddur. Bununla belə, mövcud infrastrukturun müvafiq kateqoriyadan olan şəxslər üçün əlçatanlığının təmin edilməsi istiqamətində işlər görülməkdədir. Binalar liftlərlə təchiz olunmuş, pantuslar mövcuddur, görmə qabiliyyəti zəif olan şəxslər üçün hərəkət yolları təmin edilmişdir.

### 6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti

QKU-da ümumi sahəsi 1386, 5 $m^2$ olan 7 yeməkxana vardır. Professor- müəllim heyətinə, həmçinin tələbələrə göstərilən iaşə xidmətinin yüksəldilməsi məqsədilə də həmin yeməkxanalarda zərurət olduqca təmir işləri aparılaraq yenidən qurulur. Son illərdə tədris korpuslarında yerləşən həmin yeməkxanalar əsaslı təmir edilmiş, müasir standartlara cavab verən vəziyyətə gətirilmiş və müasir iaşə avadanlıqları ilə təmin olunmuşdur.

### 6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti

01 Sentyabr 2003-cü il tarixində bağlanan icarə müqaviləsi əsasında QKU İçəri Şəhər Memarlıq Qoruğu ərazisində yataqxana yaradılması məqsədilə Qəsr döngəsi, 57 və 2-ci Kiçik Qala döngəsi, 8 ünvanlarında yerləşən iki bina (10 və 20 nəfərlik) istifadəyə götürülmüşdür. Hər iki bina xidmət göstərməyə hazırdır. Eyni zamanda yataqxanaların tikilməsi ilə bağlı olaraq əlaqədar təşkilatlarla danışıqlara start verilmişdir.

### 6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti

Universitetin tədris binalarında 90-cı illərin əvvəllərindən başlayaraq təhsilalanlara və professor- müəllim heyətinə tibbi xidmət göstərilməsi məqsədilə ümumi sahəsi 112 $m^2$ olan 6 tibbi məntəqə fəaliyyət göstərir. Bu məntəqələrdə ilkin tibbi xidmət göstərilməsi üçün şərait yaradılmışdır.

### 6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti

Universitetdə Elektron tədris platformasında mövcud olan İT xidmətinin zəruri səviyyəsi mövcuddur. Bununla yanaşı tədris laboratoriya innovativ təlim prosesini təmin etmək üçün müvafiq texnoloji vasitələrlə təminat səviyyəsini yüksəltməyə ehtiyac vardır.

### 6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti

Tədris infrastrukturundan istifadənin monitorinqi QKU-nun uyğun struktur bölmələri və Keyfiyyətin təminatı və monitorinq şöbəsi tərəfindən aparılır. Prosesin dövrü və sistemli aparılması tövsiyə edilәndir. İnfrastrukturdan istifadənin monitorinqinin nəticələrinin sistemli analizinin aparılması da tövsiyəedilən digər məsələlərdəndir.

## 6.2 Elmi-tədqiqat infrastrukturu

### 6.2.1. Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

QKU-da 7 elmi-tədqiqat mərkəzi var. QKU-nun partnyor universitetlər və beynəlxalq təşkilatlarla əlaqələri mövcuddur. Bu istiqamətdə fəaliyyət davam etdirilir. Universitetin beynəlxalq səviyyədə müasir elmi-tədqiqat və innovasiya mərkəzinə çevrilməsi prosesinin sürətləndirilməsi istiqamətində əsaslı fəaliyyətlərinin və tədbirlər planının olduğunu qeyd etmək lazımdır.

### 6.2.2. Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

QKU-da akademik heyət və tədqiqatçıların təcrübəsinin artırılmasına və tədqiqatların aparılmasına imkan verən mərkəz və laboratoriyalar mövcuddur. Uyğun olaraq qeyd edilən infrastruktur innovativ tədqiqatların aparılması üçün müvafiq göstəricilərə uyğundur.

# 7. BEYNƏLMİLƏLLƏŞMƏ

## *7.1 Beynəlmiləlləşmə siyasəti*

### *7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğunun vəziyyəti*

Universitetin beynəlmiləlləşmə siyasəti onun fəaliyyətində mühüm yer tutur. SİP-də qarşıya qoyulan hədəflər, öhdəliklər və strateji vəzifələrlə yanaşı, Qərbi Kaspi Universitetinin elm sahəsində əldə etdiyi nailiyyətlər də qeyd olunmuşdur. Universitetin Azərbaycan Respublikasının "Elm Haqqında" və "Təhsil Haqqında" qanunlara əsaslanaraq öz fəaliyyəti çərçivəsində elmin müxtəlif sahələri və istiqamətləri üzrə yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanmasını həyata keçirdiyi siyasətdə aydın görünür. Bunu, sənəddə adı çəkilən qanunlara edilən istinadlardan müəyyən etmək olar. Sənədin beynəlmiləlləşmə siyasətinin hədəfləri hissəsində Universitetin daxili beynəlmiləlləşməyə nail olma məqsədi qeyd olunmuşdur. Qeyd etmək lazımdır ki, beynəmiləlləşmə sahəsində görülən bütün işlər mərkəzləşdirilmiş formada həyata keçirilir.

### *7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti*

Universitet Erasmus, Mevlana, ikitərəfli müqavilələrə əsaslanan mübadilə proqramları ilə uzun illər məşğul olmuş, qazandığı təcrübələrini beynəlmiləlləşmə siyasətində əks etdirmişdir. Sənəddə mübadilə proqramlarının təşviq olunma vəziyyəti haqqında ətraflı məlumat verilmişdir. Sənəddə təşviqat prosesinin necə aparılması ətraflı şəkildə öz əksini tapmışdır. Alt sənəd olaraq, mübadilə proqramlarının təşviq olunma prosesi, eyni zamanda Universitetin rəsmi saytı və sosial media hesablarında bu sahə üzrə yayımlanan xəbər və elanlar mövcuddur. Siyasətdə qeyd olunur ki, mübadilə proqramlarının təşviq olunma prosesi aşağıdakı mərhələlərlə icra olunur:

1. Mübadilə proqramında iştirak üçün tərəfdaş universitetlərdən dəvət məktubu göndərilir.
2. Universitetin rəsmi saytında və sosial media hesablarında dəvətlə bağlı elan paylaşılır.
3. Şöbəyə proqramda iştirak etmək istəyən tələbələrin müraciətləri daxil olur.
4. Namizədlərin ingilis dili səviyyəsi Universitetdaxili test yoxlaması ilə müəyyən olunur.
5. Yüksək nəticə toplamış namizədlərin Ümumi Orta Müvəffəqiyyət Göstəricisinə baxılır.
6. Yüksək akademik nailiyyətlərə və dil biliyinə sahib namizədlərlə görüş keçirilir.
7. Görüş haqqında məlumat Universitetin rəsmi saytında və sosial media hesablarında yayımlanır.
8. Seçim prosesi tamamlandıqdan sonra mübadilə proqramında iştirak edəcək tələbənin adı Universitetin rəsmi saytında və sosial media hesablarında açıqlanır.

Məlumatlar qeyd olunan keçidlərlə zənginləşdirilir:

https://wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinin-telebeleri-uchunalmaniyadateqa
https://wcu.edu.az/az/news/telebemiz-tehsini-polshada-davam-etdirecek
https://wcu.edu.az/az/news/musabiqe-sona-chatdi-almaniyada-tehsil-alacaq-telebelerimiz-
https://wcu.edu.az/az/news/qerbi-kaspi-universitetinin-telebeleri-uchun-polshada-teqaud
https://wcu.edu.az/az/news/mevlana-exchange-program-the-opportunity-of-having-free-educ

### *7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasının təşviq olunması vəziyyəti*

Universitetdə 2018-2019 və 2019-20-ci tədris illəri ərzində qaneedici sayda əcnəbi tələbələr təhsil almışdır, lakin bu rəqəm Koronavirus pandemiyası dövründə və post Pandemiya dövründə, yəni 2020-2021 və 2021-2022-ci tədris illərində kəskin azalmışdır. 2022-2023-cü tədris ilində isə əcnəbi tələbələrin sayında artım müşahidə olunmuşdur. Qeyd olunan məsələlər əcnəbi tələbələrin illər üzrə hazırlanan siyahılarında, Universitetin ümumi tələbə kontingentinin

siyahılarında, eyni zamanda diaqramda öz əksini tapmışdır.




**Qəbul olan əcnəbi tələbələrin dinamikası**

Əcnəbi tələbələrin Universitetə cəlb olunması prosesi müxtəlif platformalar vasitəsilə həyata keçirilir və onlar haqqında məlumat beynəlmiləlləşmə siyasətində öz əksini tapır. Əcnəbi müraciətçi Universitet haqqında məlumatı aşağıda qeyd olunan mənbələrdən əldə edə bilərlər:

- ✓ Universitetin veb səhifəsindən (https://international.wcu.edu.az/az/page/online-application)
- ✓ Elm və Təhsil Nazirliyinin yaratdığı məlumat veb-səhifəsi - Study in Azerbaijan https://studyinazerbaijan.edu.az/
- ✓ Free-apply.com və Keystone Group təhsil platformalarında məlumatların və sorğuların cavablandırılması
- ✓ GoOverseas (https://www.gooverseas.com/study-abroad/azerbaijan/program/274748) və StudyAbroad.pk platformalarında məlumatları
- ✓ Times Higher Education və QS kimi beynəlxalq reytinq agentliklərinin səhifəsində və sistemində profilinin olması -(https://www.timeshighereducation.com/world-university-rankings/western-caspian-university, https://www.topuniversities.com/universities/western-caspian-university )
- ✓ Təşkilatlar və agentər vasitəsi ilə tələbələrin cəlb edilməsi

### *7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti*

Universitetin akademik həyatında əcnəbi professor-müəllim heyətinin əhəmiyyətli rolu var və bu, beynəlmiləlləşmə siyasətində qeyd olunmuşdur. Son 5 ildə əcnəbi müəllimlərin sayı demək olar ki, sabit qalmışdır. Beynəlxalq akademik heyətin əksəriyyətinin Xarici dillər kafedrasında fəaliyyət göstərməsi alt sənədlərlə sübut olunur.

### *7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti*

Müxtəlif illərdə Universitetin tədqiqatçıları beynəlxalq tədqiqatçılarla ortaq tədqiqat işləri aparmışlar. Tədqiqatlar haqqında məlumatlar ictimaiyyətlə paylaşılmışdır. Unviersitetin bu sahədə olan fəaliyyəti beynəlmiləlləşmə siyasətində əks olunmuşdur.

### *7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti*

Universitet yarandığı ilk illərdən beynəlxalq təhsil şəbəkələrinə və təşkilatlarına üzv olmuşdur. Üzvlük çərçivəsində bir çox işlər görülmüş, layihə və tədbirlrdə iştirak etmişdir. Universitetin adı çəkilən qurumlara üzvlüyünü imzalanan müqavilələr təsdiq edir. Universitetin adları qeyd olunan beynəlxalq təhsil şəbəkələrinə və beynəlxalq təhsil təşkilatlarına üzv olması

barədə məlumat qeyd olunmuşdur:

- Beynəlxalq Təhsil Administratorları Assosiasiyası (AIEA);
- Beynəlxalq Universitetlər Assosiasiyası (IAU);
- Açıq və Distant Təhsil üzrə Beynəlxalq Şura (ICDE);
- Kollec Biznes Məktəblərini İnkişaf etdirmə Assosiasiyası (AACSB);
- Avropa Elm Fəlsəfəsi Assosiasiyası (EPSA);
- Qara Dəniz Universitetləri Şəbəkəsi (BSUN);
- Siyasi Araşdırmalar Dərnəyi (PSA);
- Universitet Prezidentlərinin Beynəlxalq Assosiasiyası (IAUP);
- Qafqaz üzrə Avropa Araşdırmaları Assosiasiyası (AESC);
- Məsuliyyətli İdarəetmə Təhsili Prinsipləri (PRME);
- Avropa Universitetlər Birliyi (EUA);
- Beynəlxalq Dırmanma və Alpinizm Federasiyası (UIAA).

#### *7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti*

Universitetin ikili diplom proqramları üzrə fəaliyyəti son illər üzrə artmışdır. Amerika Birləşmiş Ştatlarının UBIS və Almaniya Federativ Respublikasının FOM Universitetləri ilə müqavilələr bağlanmışdır.

UBIS Universitetində təhsil alan tələbələrin sənədləri qeyd olunanları təsdiq edir. Universitetin ikili diplom proqramları üzrə fəaliyyəti beynəlmiləlləşmə siyasətində qeyd olunmuşdur.

#### *7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti*

Universitetin beynəlmiləlləşmə siyasəti 2022-2023-cü tədris ilində hazırlanmış, Elmi Şuranın iclasında təsdiqlənmişdir. Elmi Şura siyasətə 2023-2024-cü tədris ilində yenidən baxılmasını uyğun hesab etmişdir.

### *7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu*

#### *7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilatı strukturun mövcud olması vəziyyəti*

Qərbi Kaspi Universitetinin Beynəlmiləlləşmə proseslərinin statusu, fəaliyyəti və idarəetməsi Azərbaycan Respublikasının təhsil qanunvericiliyi, Universitetin Nizamnaməsi və Əsasnamə ilə müəyyən edilir.

Təşkilatı struktura Beynəlxalq əlaqələr və Əcnəbi tələbələr ilə iş şöbələri daxildir. Şöbələr fəaliyyəti zamanı Azərbaycan Respublikasının qanunlarını, o cümlədən, "Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu"nu, AR Miqrasiya Məcəlləsini, təhsillə bağlı qanunvericilik aktlarını, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq əmr, sərəncam və göstərişlərini, Universitetin Təsisçilər Şurası, Qəyyumlar Şurası, Böyük Şura və Elmi Şurasının qərarlarını, Universitet rəhbərliyinin əmr və göstərişlərini, idarəetmədə, elmi fəaliyyətdə, təhsil və tədrisdə keyfiyyət standartlarını və bu sahədə beynəlxalq təcrübəni, öz vəzifə funksiyaları çərçivəsində milli və beynəlxalq tədqiqatların nəticələrini, həmçinin təhsilə dair əmək qanunvericiliyinin tələblərini əsas götürür.

#### *7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti*

Beynəlmiləlləşmə siyasəti Beynəlxalq əlaqələr və Əcnəbi tələbələr ilə iş şöbələrinin Əsanaməsi və əməkdaşların vəzifə təlimatlarında öz əksini tapmışdır.

Şöbələrin qarşısında duran vəzifələr Siyasətdə əksini tapan hədəflərə uyğunlaşdırılmışdır.

### *7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti*

Qərbi Kaspi Universitetinin mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında 24 dekabr 2013-cü il № 348 qanuna əsaslanaraq və "Kreditlərin transferi (köçürülməsi) haqqında" daxili əsasnamə vasitəsilə tənzimlənir.

### *7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti*

Qərbi Kaspi Universiteti professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsini Strateji İnkişaf planın 6-ci məqsədi, 2-ci hədəfində öz əksini tapır. Professor-müəllim heyətinin cəlb edilməsi mexanizmi aşağıda qeyd olunmuş istiqamətlər vasitəsi ilə təmin olunur:

- Əmək müqaviləsi əsasında;
- Konfutsi İnstitutun vasitəsilə;
- Dəvət olunmuş professor-müəllim;
- Mübadilə proqramları çərçivəsində;
- Beynəlxalq tərəfdaş müqavilələrində mövcud olan imkanlar çərçivəsində.

### *7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti*

Universitetin Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyi Monitorinq Şöbəsi tərəfindən qiymətləndirilir.

### *7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti*

"Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında 24 dekabr 2013-cü il № 348 qanuna , "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisas proqramlarının və təhsil səviyyələrinin seçim Qaydaları"nın təsdiq edilməsi haqqında 20 noyabr 2019-cu il № 451 qanuna əsaslanaraq və "Kreditlərin transferi (köçürülməsi) haqqında" daxili əsasnamə vasitəsilə tənzimlənir.

### *7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası*

Strateji Planın 4-cü məqsədin 2-ci hədəfində qeyd edildiyi kimi "Mübadilə proqramlarını üzrə göndərilmiş və digər universitetlərdən cəlb edilmiş müəllimlərin sayının artırılması" əsasən tənzimlənir. İllər üzrə tədricən sayda artım görülsə də, rəqəmlər Koronavirus pandemiyası və Post-Pandemiya müddəti ərzində mübadilə programında iştirak edən professor-müəllim heyəti sayında azalma muşahidə olunmuşdur. 2021-2022-ci və 2022-2023-cü tədris illərində sayda artım qeydə alınmışdır. İllər üzrə dinamika aşağıda kimi qeyd olunub:




**Mübadilə proqramı çərçivəsində Universiteti ziyarət edən əcnəbi professor-müəlim heyətinin qrafiki**




**Mübadilə proqramında iştirak edən Universitetin professor-müəllim heyətinin qrafiki**

### *7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti*

Qərbi Kaspi Universitetində akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və əlçatanlıq prinsipləri əsasında təşkil edilməsi məqsədi ilə müvafiq komitə yaradılmışdır. Komitənin təşkilatçılığı ilə məlumat müvafiq şöbə, fakültə və kafedralarla paylaşılır. Akademik və inzibati heyətin arasından səlis ingilis dili biliyinə sahib olan əməkdaşların tədris prosesinə və Universitetin ümumi işinə verdiyi töhfələr öyrənilir. İş fəaliyyəti və xarici dil biliyi üzrə üstünlük əldə edən müəllim və ya inzibati işçi mübadilə proqramında iştiraka haqq qazanır. Əvvəllər mübadilə proqramlarında iştirak etməmiş müəllim və inzibati işçilərin seçiminə üstünlük verilir. Mübadilədən öncə iştirakçılara sənəd dəstəyi , viza proseduru və yerləşdirmə ilə bağlı müvafiq məlumatlar verilir.

### *7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti*

Qərbi Kaspi Universitetinin mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında 24 dekabr 2013-cü il № 348 qanuna əsaslanaraq və “Kreditlərin transferi (köçürülməsi) haqqında” daxili əsasnamə vasitəsilə tənzimlənir.

Mübadilə proqramı çərçivəsində iştirak edəcək tələbələrin seçimi aparılması üçün, Qərbi Kaspi Universiteti ilk öncə əməkdaşlıq etdiyi universitetlər ilə birgə təhsil proqramlarının bakalavr və magistr təhsil proqramlarına uyğunluğu təhlil edilir və buna əsasən müqavilələr imzalanır.

Proses aşağıdakı mərhələləri əhatə edir:

▪ Mübadilədən öncə tərəfdaş Universitet və Qərbi Kaspi Universiteti arasında institusional müqavilə imzalanır;

▪ Tələbənin Öyrənmə Müqaviləsində (Learning Agreement) tərəfdaş Universitetdə tədris olunacaq fənlər və AKTS kreditləri qeyd olunur;

▪ Mübadilə yekunlaşdıqdan sonra tələbələrin kreditləri imzalanmış Öyrənmə müqaviləsi (Learning Agreement) tanınılır.

#### *7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti*

Qərbi Kaspi Universiteti dünya nüfüzlu reytinqlərdə aktiv iştirak edir və Universitet göstəricilərinə əsasən qabaqcıl ali təhsil müəssisələri arasında yer qazanmışdır.

1. Dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan Times Higher Education (THE) təşkilatının "THE Impact Ranking" 2023 üzrə dünyanın ən yaxşı 601–800 universiteti arasında yer almışdır. Times Higher Education World University 2023 və Ranking Young University Rankings 2023 reporter qismində iştirak etmişdir.

2. QS (Quacquarelli Symonds) Stars reytinqində 2021-ci il üçün yüksək nəticələr göstərib. Belə ki, universitet reytinqi təhsil keyfiyyəti üzrə mümkün 5 ulduz üzrə 5, onlayn tədris üzrə 4, məzunların iş tapması üzrə 4 və inklüzivlik üzrə 4 ulduzla qiymətləndirilib.

3. Avropa birliyi tərəfindən təsis edilən ən böyük beynəlxalq reytinq sistemlərindən biri olan "U-Multirank" beynəlxalq reytinq sisteminə daxil edilib və ən yaxşı 202 universitet arasında göstərilib. Təhsilin keyfiyyətini səciyyələndirən əsas göstəricilər (təhsil, beynəlmilliləşmə, elmi-tədqiqat, elm mübadiləsi, regional əməkdaşlıq və s.) üzrə dünyanın 2068 Ali təhsil müəssisəsi iştirak etdiyi reytinqdə Qərbi Kaspi Universiteti 8 göstərici üzrə "A" (çox yaxşı), 4 göstərici üzrə "B" (yaxşı) nəticəsi əldə edib. Universitetimiz bu istiqamətlər üzrə "A" (çox yaxşı) göstəricisinə layiq görülüb: Rəqəmsal təhsildə investisiya, gender bərabərliyi, dərəcəli müəllimlər, öz şirkətləri məzunlar, xarici dil bakalavr proqramları, xarici dil magistr proqramları, regionlar üzrə çalışan bakalavr məzunları, regionlar üzrə çalışan magistr məzunları.

4. UI GreenMetric World University Rankings 2022 Avropa üzrə 170-ci yer, UI GreenMetric World University Rankings 2021 Avropa üzrə 198-ci yer tutmuşdur.

5. AASHE Stars Reytinqi: "Gold Stars" - təhsil kateqoriyasındakı qiymətləndirmədə müəyyən edilmiş mümkün 40 baldan 33.52, elmi tədqiqat üzrə mümkün 18 baldan 16,33, ictimaiyyətlə əlaqələr üzrə mümkün 20 baldan 18,48 bal.

6. "Round University Ranking" 2022: təhsilin keyfiyyətinə görə ölkə üzrə 1-ci, dünya üzrə isə ilk 500-lükdə yer almışdır.

### *7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

#### *7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti*

Universitetin maliyyələşdirilməsi "Təhsil Haqqında" qanunun 40-cı maddəsi ilə tənzimlənir. Universitet maliyə resurslarının artırılması müxtəlif qrantlar, təqaüdlər və digər mənbələrin cəlb olunması ilə həyata keçirilir. Buraya, həmçinin təhsil haqları, əməkaşlıqlıq çərçivəsində ayrılan qrantlar, beynəlxalq layihələrdən daxil olan vəsaitlər daxildir. Beynəlxalq təşkilatlara üzvlük haqqı, Universitet əməkdaşlarının ezamiyyət xərcləri, xarici qonaqların ezamiyyət xərcləri, və s. Universitet tərəfindən qarşılanır. Bütün məlumatlar siyasətdə öz əksini tapır.

#### *7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti*

Beynəlmiləlləşmə siyasətinin icrasını keyfiyyətli və uğurlu həyata keçirilməsində müvafiq şöbələr ilə yanaşı, digər şöbələr, fakültələr və bölmələrdə yer alır. Siyasətinin icrasının effektiv

şəkildə yerinə yetirilməsi məqsədi ilə şöbələrarası əlaqəli fəaliyyət aparılır. Bütün məlumatlar siyasətdə öz əksini tapır.

#### *7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti*

Universitetdə fəaliyətini effektiv həyata keçirilməsi üçün tələb olunan maddi-texniki baza və təhsil infrastrukturu movcüddur. Beynəlxalq əlaqələr və Əcnəbi tələbələr ilə iş şöbəsinə 2 otaq ayrılıb. Şöbə əməkdaşları bütün zəruri infrastruktur və avadanlıqlarla təmin olunur. Əcnəbi tələbələrin tədris prosesinin təşkili müasir avadanlıqlar ilə təchiz olunmuş auditoriyalarda həyata keçirilir. Əcnəbi tələbələrin tədris prosesi təyin olunmuş cədvəl üzrə Universitetin bütün korpuslarında müxtəlif auditoriyalarda həyata keçirilir. Auditoriyalar kompüterlər, proyektor və ağıllı lövhələr ilə təchiz olunub. Universitetin hər iki binasında kitabxana mövcüddur və daima açıqdır. Tələbə və müəllimlərin kitabxanada elmi araşdırma aparması və informasiya əldə etməsi üçün rahat və geniş oxu zalları mövcuddur. Tələbələr istədikləri zaman kitabxanaya daxil olub, oxu zalında kitablardan və kompüterlərdən istifadə edə bilirlər. Həmçinin tələbələr Universitetin yeməkxanasından və idman zalında istifadə edə bilərlər. Tələbələr öz asüdə vaxtlarını mövcüd dərnəklərə yazılma və iştirak edə bilərlər.

#### *7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti*

Universitetdə tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi Monitorinq Şöbəsi tərəfindən xüsusi meyarlar üzrə aparılır. Hər tədris ilinin əvvəlində iş planı hazırlanır və ilin sonunda iş planına uyğun olaraq qiymətləndirilir. Plana uyğun olaraq mövcud vəziyyət müzakirə olunur, qeydlər və rəhbərliyin tövsiyələri nəzərə alınmaqla növbəti il üzrə iş planı hazırlanır. Siyasətin həyata keçirilməsində əhəmiyyətli məsələlərin müzakirəsi QKU Elmi Şurasında edilir və müvafiq qərarlar qəbul edilir.

### *7.4 Beynəlmiləlləşmə performansı*

#### *7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti*

Universitetdə Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət Monitorinq Şöbəsi tərəfindən xüsusi meyarlar üzrə aparılır.

#### *7.4.2 Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti*

QKU-da beynəlmiləlləşmə siyasətinin prosesi çərçivəsində ehtiyac əsaslı fəaliyyətin tənzimlənməsi və lazımi dəyişikliklərin edillməsi və eyni zamanda Strategiyada qeyd olunan hədəflərə istiqamətlənmiş və təkmilləşdirilmiş siyasət üzrə hədəflərə nail olmaq üçün mütəmadi olaraq Beynəlxalq Əlaqələr şöbəsi və Əcnəbi tələbələr ilə iş şöbəsi tərəfindən izlənilir. İş planları və fəaliyyət planları dövründə yeni məqsədəuyğun hesab edilən qeydlərin növbəti dövrdə tətbiqinin həyata keçirilməsi əsaslılıq təşkil edir. Yeni hədəflərin seçimi zamanı rəhbərliyin yanaşması və struktur rəhbərləri ilə təkmilləşdirilmə üzrə proses üzərində problem, həllinə gedən yolda təkliflər, məqsəd, məqsədə çatmaq üçün fəaliyyət planı, planın icrası üçün iş bölgüsü, həll variantları, insan və maliyyə resursları zərurilik təşkil edir. Daha sonra nəzarət və hesabat dövründə qiymətləndirilmə aparılır.

## 5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri

| İstiqamətlər və meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| **1. Strateji inkişaf** | | | | | |
| 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri | 39 | | | | + |
| 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi | 12 | | | + | |
| **İstiqamət üzrə yekun bal** | **51** | | | + | |
| **2. Keyfiyyət təminatı** | | | | | |
| 2.1 Keyfiyyət təminatı siyasəti | 12 | | | | + |
| 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri | 31 | | | | + |
| 2.3 Keyfiyyət təminatı mədəniyyəti | 11 | | | | + |
| **İstiqamət üzrə yekun bal** | **54** | | | | + |
| **3.Təlim və tədris** | | | | | |
| 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması | 11 | | | | + |
| 3.2 Təhsil proqramları | 28 | | | | + |
| 3.3 Tədrisin təşkili | 62 | | | | + |
| 3.4 Tədris metodları və üsulları | 22 | | | | + |
| 3.5 Təlim və tədris resursları | 47 | | | | + |
| 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 34 | | | | + |
| 3.7 Professor-müəllim heyəti | 30 | | | + | |
| 3.8 Tələbəyönümlü tədris | 33 | | | | + |
| 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 12 | | | + | |
| 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 14 | | | | + |
| **İstiqamət üzrə yekun bal** | **293** | | | | + |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4. Elmi tədqiqat** | | | | | |
| 4.1 Elmi-tədqiqat strategiyası | 22 | | | | + |
| 4.2 Tədqiqat resursları | 20 | | | | + |
| 4.3 Elmi-tədqiqat fəaliyyəti | 55 | | | | + |
| 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 9 | | | | + |
| **İstiqamət üzrə yekun bal** | **106** | | | | + |
| **5. İdarəetmə sistemi** | | | | | |
| 5.1 İdarəetmə orqanları | 26 | | | | + |
| 5.2 İnsan resurslarının idarə edilməsi | 26 | | | + | |
| 5.3 Maliyyə resusrlarının idarə ediləsi | 43 | | | | + |
| 5.4 İnformasiya idarəetmə sistemi | 24 | | | | + |
| 5.5 İctimaiyyətlə əlaqələr | 16 | | | + | |
| **İstiqamət üzrə yekun bal** | **135** | | | | + |
| **6. İnfrastruktur** | | | | | |
| 6.1 Tədris infrastrukturu | 39 | | | | + |
| 6.2 Elmi-tədqiqat infrastrukturu | 6 | | | | + |
| **İstiqamət üzrə yekun bal** | **45** | | | | + |
| **7. Beynəlmiləlləşmə** | | | | | |
| 7.1 Beynəlmiləlləşmə siyasəti | 24 | | | | + |
| 7.2 Beynəlmiləlləşmə prosesinin idarə edilməsi və təşkilati strukturu | 29 | | | | + |
| 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar | 11 | | | | + |
| 7.4 Beynəlmiləlləşmə performansı | 5 | | | + | |
| **İstiqamət üzrə yekun bal** | **69** | | | | + |
| **Təhsil müəssisəsi üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | **753** | | | | + |

## 6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər

### *I istiqamət – Strateji inkişaf*

Qərbi Kaspi Universitetinin 2018-2020-ci illəri əhatə edən qısamüddətli Strateji İnkişaf Planı Universitetin Elmi Şurasının 27 dekabr 2017 – ci il tarixli (Protokol №3) iclasının qərarı ilə təsdiq edilmişdir. Qərbi Kaspi Univeristetinin 2021-2025-ci illər üzrə ortamüddətli Starteji İnkişaf Planı Universitetin Elmi Şurasının 2020-ci il 25 dekabr tarixli iclasının (Protokol № 05) qərarıına əsasən təsdiq olunmuşdur. Bu sənəd Qərbi Kaspi Universitetinin 2021-2025-ci illər üzrə İnkişaf strategiyasını əhatə edir. 2021-2025–ci illər üzrə SİP hazırlanması zamanı ali təhsilin idarə olunması üzrə beynəlxalq təcrübədən, "2019- 2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"ndan, o cümlədən dövlət və özəl müəssisələrdə tələbə və müəllimlər arasında keçirilmiş sorğu nəticələrindən istifadə olunmuşdur. Qərbi Kaspi Universitetinin 2021-2025-ci illər üzrə Strateji İnkişaf Planında müəyyən edilmiş missiyası – qlobal çağırışlara, müasir, innovativ, təhsil və tədris infrastrukturuna malik olmaqla, humanitar, sosial, mühəndislik sahələri üzrə təhsil və tədqiqatlar yolu ilə yüksəkixtisaslı mütəxəssislər hazırlamaqdır. Universitetin Strateji İnkişaf Planında müəyyən edilmiş missiyası bu missiyaya əsaslanan 8 məqsəd və bu məqsədlərdən doğan 26 hədəfə uyğun müəyyən edilmişdir. Universitetin 2021-2025-ci illər üzrə Strateji İnkişaf Planında strateji baxış - Regionda əmək bazarının tələblərinə cavab verən ən müasir və keyfiyyətli təhsilin və tədqiqatın mövcud olduğu universitet olmaq – kimi müəyyənləşdirilmişdir.

2021-2025-ci illər üzrə Strateji İnkişaf Planının icra edilməsi üçün görüləcək tədbirlər və məsul icraçılar Elmi Şuranın 25.12.2020-ci il tarixli iclasında (Protokol №5) təsdiq edilmiş fəaliyyət planında əks olunmuşdur. Qərbi Kaspi Universitetinin 2021-2025-ci illəri əhatə edən Strateji İnkişaf Planının icrası üzrə Fəaliyyət Planına əsasən Universitetin məsul struktur bölmələri tərəfindən hesabatlar hazırlanır. Strateji İnkişaf Planın icrası üzrə illik hesabatlar hər tədris ilinin sonu Strateji İnkişaf Mərkəzinə təqdim olunur. Hesabatlara müvafiq olaraq icra olunmayan məsələlərlə bağlı tədbirlər planı hazırlanır və ya onların icrası növbəti dövr üçün fəaliyyət planına əlavə edilir. Universitetdə SİP-in icra vəziyyəti ilə bağlı monitorinqlər Strateji İnkişaf Mərkəzi və Keyfiyyətə Nəzarət Mərkəzi tərəfindən aparılır. SİP-in icrasının monitorinqi təsdiqlənmiş Monitorinq qaydalarına müvafiq olaraq aparılır. Bu zaman mövcud fəaliyyət planının əsasında monitorinq planı qurulur və strukturlar üzrə SİP-də nəzərdə tutulan məsələlərin icrası vəziyyəti yoxlanılır. Bununla monitorinqlə yanaşı, SİP-in icra vəziyyətinin izlənilməsi vəziyyəti təmin edilir.

**<u>I istiqamət üzrə Təşkilat Komissiyasının verdiyi tövsiyyələr:</u>**

- SİP-in fəaliyyət planının əlçatanlığının təmin edilməsi (rəsmi sayt, e-maillər və s. vasitəsilə)
- SİP-in monitorinq mexanizmi təkmilləşdirilsin

### *II istiqamət – Keyfiyyət təminatı*

QKU-nun Keyfiyyət Təminatı Siyasəti sənədinin hazırlanması məqsədi ilə Elmi Şuranın 31.05.2022-ci il tarixli, 9 nömrəli iclas protokoluna əsasən işçi qrupu yaradılmış və tərkibi təsdiq edilmişdir. Elmi Şuranın 12.10.2022-ci il tarixli, 2 nömrəli iclasının protokoluna əsasən "Keyfiyyət Təminatı Siyasəti" sənədi təsdiq edilmişdir. Keyfiyyət Təminatı Siyasət" sənədi ümumi müddəalar, siyasətin məqsədi, əhatə dairəsi və prinsipləri, siyasət təlimatları, daxili keyfiyyət təminatı üçün müəyyən edilən 9 standartı əhatə edir və "Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı üzrə Standartlar və Təlimatlar" sənədinin müddəalarını özündə ehtiva edir. "Keyfiyyət təminatı siyasəti"

sənədi ATM-in bütün struktur bölmələri ilə paylaşılmış və müvafiq struktur bölmələrin əməkdaşlarının keyfiyyət siyasəti barədə məlumatlı olması təmin edilmişdir. “Keyfiyyət təminatı siyasəti” sənədinin əhatə dairəsi müəssisənin bütün fəaliyyət və əməliyyatlarını, o cümlədən proqramların tərtib və təsdiq edilməsi, tələbəyönümlü təlim, tədris və qiymətləndirmə, tələbələrin qəbulu, təhsil alması, tanınma və attestasiyası, professor-müəllim heyəti, tədris resursları və tələbə dəstəyi, informasiyanın idarə edilməsi, ictimai məlumatlılıq, proqramların davamlı monitorinqi və vaxtaşırı nəzərdən keçirilməsi və dövrü olaraq xarici keyfiyyət təminatını ehtiva edir. QKU-nun Elmi Şurasının 11.09.2017-ci il tarxili, 01 nömrəli iclasının protokoluna əsasən “İmtahan və Keyfiyyətə Nəzarət Mərkəzi” yaradılmış və əsasnaməsi təsdiq edilmişdir. Universitetin Elmi Şurasının 31.01.2020-ci il tarixli, 06 nömrəli protokoluna əsasən isə “İmtahan mərkəzi” və “Keyfiyyətə nəzarət Mərkəzi” ayrılıqda fəaliyyətə davam etməkdədir. 2021-ci ildən etibarən Mərkəz “Keyfiyyət Təminatı Mərkəzi” adlandırıldı və yenilənmiş əsasnaməsi qəbul edildi. Universitetin daxili keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi məqsədilə 2022-ci ildə (EŞ-nın 12.10.2022-ci il tarixli iclası, protokol № 02) “Keyfiyyətə Nəzarət Komisiyası” yaradılmışdır. Komissiya Universitetin daxili keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində təkliflərin hazırlanması və həyata keçirilməsini izləyən orqandır. QKU-nun Strateji Planında müəyyən olunmuş hədəfləri əsas tutaraq 2022/2023-cü tədris ili üçün Komissiyanın təsdiq edilmiş fəaliyyət planı hazırlanmışdır.

Bununla yanaşı, heyətin daxili və xarici keyfiyyət təminatına dair bilik və bacarıqlarının artırılması üçün vaxtaşırı təlimlər təşkil edilir. Keyfiyyətin yüksəldilməsi məqsədilə 2022-ci il, 12 oktyabr tarixli, 15/3/ü nömrəli əmrlə “Keyfiyyətə Nəzarət Komissiyası”, tələbələrlə daimi, operativ əlaqənin səmərəli qurulması üçün 2022-ci ildə “Tələbə Məlumat Mərkəzi” yaradılmışdır. Eyni zamanda təhlil və qiymətləndirmənin aparılması prosesi auditlər şəklində keçirilir. QKU keyfiyyət sisteminin təkmilləşdirilməsi məqsədilə daxili auditlər keçirir, onun hesabatlılığını təmin edir.

Həmçinin, 2023-cü ilin sentyabr ayında TSE tərəfindən universitetdə xarici audit təşkil olunmuş və auditin nəticələrinə uyğun olaraq QKU İSO - 9001, İSO-45001, İSO- 14001” Beynəlxalq keyfiyyət standartları Sertifikatlarına layiq görülmüşdür. Daxili və xarici auditlərlə yanaşı, QKU-da tədris prosesinin izlənilməsi məqsədi Monitorinqin təşkili qaydalarına müvafiq olaraq monitorinqlər keçirilir. “Keyfiyyət təminatı siyasəti” QKU-nun veb-saytında yerləşdirilir və keyfiyyət təminatı sahəsində prioriet istiqamətlərin müəyyənləşdirilməsi məqsədilə əks-əlaqə təmin edilir. Təkliflər və iradlar elektron tədris platforması vasitəsilə qa@wcu.edu.az ünvanına göndərilir. Onlayn müraciətlə daxil olan irad və təkliflər təhlil edilərək veb-saytda yerləşdirilir və maraqlı tərəflərin keyfiyyət təminatı posesinə cəlb edilməsini təmin etməklə təkliflər hazırlanır. Bu təkliflər müzakirə edilərək müvafiq qərarlar qəbul edilir və icraya yönəldilir. Keyfiyyət təminatı sahəsində əks-əlaqənin və keyfiyyət mədəniyyətinin yüksəldilməsi istqamətində mütəmadi işlər aparılır. Keyfiyyətin təmin olunması və inkişaf etdirilməsində universitet rəhbərliyi bilavasitə iştirak edir. Keyfiyyət Təminatı Mərkəzi tədris, elm, beynəlxalq əlaqələr, informasiya-texniki təminat məsələləri üzrə aidiyyatı strukturlarla qarşılıqlı əməkdaşlıq edir. Mərkəzin aidiyyatı strukturlardan məlumat əldə etmə imkanı mövcuddur. Universitetdə strukturlararası əlaqə Microsoft Outlook üzərindən (Share Pointda paylaşımlar etməklə və korporativ e-mail vasitəsilə) həyata keçirilir. Digər tərəfdən keyfiyyət mədəniyyətinin təkmilləşdirilməsi üçün heyət arasın Ehtiyacların müəyyələşdirilməsi sorğusu keçirilir və nəticələrinə müvafiq tədbirlər görülür.

**II istiqamət üzrə Təşkilat Komissiyası verdiyi tövsiyyələr:**

- Daxili keyfiyyət təminatı mexanizmlərinin (monitorinq, audit, sorğu və s.) təkmilləşdirilməsi;
- Bütün strukturlar keyfiyyət mədəniyyətinin formalaşmasına cəlb edilməsi.

### *III istiqamət – Təlim və tədris*

QKU-da tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı bakalavriat və magistratura səviyyələrində qəbul planı yerlərinə müvafiq ixtisaslar üzrə həm Universitetdə, həm də digər ATM-lərin illər üzrə faktiki qəbul nəzərə alınmaqla hazırlanmış məlumatlar bazası Tədrisin Təşkili və İdarə Olunması Mərkəzi tərəfindən təhlil edilir və fakültələrə göndərilir. Tələbə qəbulu sifarişlərinin əmək bazarının tələblərinə uyğun hazırlanması üçün QKU öz tərəfindən iş dünyasının tələblərini öyrənmək məqsədilə əmək bazarının aktiv iştirakçılarını universitetə dəvət edir və Əmək yarmarkaları keçirir.

QKU-da tələbələrin əvvəlki təhsillərində qazandıqları kreditlələrin tanınması və QKU-də ayrı-ayrı ixtisasların tədris planlarında mövcud olan fənlərlə uyğunlaşdırılması rektorun 15.09.2018-ci il tarixində 15/2/2/ü saylı əmri ilə yaradılmış "Fənlərin uyğunlaşdırılması" üzrə işci komissiyası tərəfindən həyata keçirilir.

Universitetdə "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"ndə qeyd edilmiş 4-cü səviyyə – tam orta təhsil, 5-ci səviyyə – orta ixtisas, 6-cı səviyyə – bakalavr, 7-ci səviyyə – magistr, 8-ci səviyyə – fəlsəfə doktoru, elmlər doktoru və təkrar ali təhsil üzrə mütəxəssis hazırlığı həyata keçirilir. Belə ki, bakalavriat səviyyəsi üzrə 28 ixtisas, magistr səviyyəsi üzrə 16 ixtisas 23 ixtisaslaşma, MBA proqramı üzrə "Biznesin idarə edilməsi" ixtisası, Biznesin təşkili və idarə edilməsi (turizm və otelçiliyin idarə edilməsi) ixtisaslaşması üzrə mütəxəssis hazırlığı həyata keçirilir. Təhsil proqramları və onlara müvafiq tədris planları üzrə nəzərdə tutulmuş fənlərin təlim nəticələri akademik heyətin sillabuslarında öz əksini tapmış və FTN-lər proqramın təlim nəticələri (PTN) ilə uyğunlaşdırılmış, eləcə də dərs saatlarının bölgüsü mövcud qanunvericiliyinin tələblərinə uyğun tənzimlənmişdir.

Tədrisin təşkili ilə bağlı Təhsil Qanunvericiliyində yer alan və ETN-in təsdiq etdiyi formalar üzrə tədris sənədləri hazırlanmış və maraqlı tərəflər üçün əlçatanlığı təmin edilmişdir. Tədris planları üzrə nəzərdə tutulan fənlərin qiymətləndirilməsi mövcud attestasiya və qiymətləndirmə Qaydalarına uyğun aparılır, təcrübələr isə əmək bazarının tələblərinə uyğun müəssisələrdə təşkil edilir. Müvafiq proqramlar üzrə tələbələrin bilik, bacarıq və səriştələrinin artırılması, fənlərin müasir, innovativ və yaradıcı metodlarla təşkili, təhsilverənlərin texnoloji avadanlıqlarla işləmə bacarıqlarının yüksəldilməsi məqsədilə kvalifikasiyalarının artırılması istiqamətində akademik heyətin təlim ehtiyacları araşdırılır və uyğun istiqamətdə onların stajkeçmələri, ixtisasartırmaları, müxtəlif təlim və kurslarda, peşəkar inkişaf proqramlarında iştirakı dəstəklənir.

Universitettdə tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi əsasən Təhsil qanunverciliyi aktlarına və Elmi Şurada təsdiqlənmiş daxili prosedurlara əsasən tənzimlənir.

Müvafiq prosedurların təsdiqi əsasən tələbəyönümlü və tələbəmərkəzli tədris prosesinin təşkilinə hesablanmış, onların Universitet tərəfindən verilən təhsil xidmətlərindən məmnunluq səviyyəsinin ölçülməsi istiqamətində müxtəlif sorğular və monitorinqlər təşkil edilir. Tələbələrə və məzunlara karyera xidmətinin verilməsi sahəsində ayrıca struktur bölmənin mövcudluğu onların əmək bazarında izlənilməsi, eləcə də, əldə etdikləri peşə kompetensiyalarının iş dünyasının tələblərinə uyğunluğunun ölçülməsi istiqamətində böyük töhvə verir.

**III istiqamət üzrə Təşkilat Komissiyası verdiyi tövsiyyələr:**

- Təhsil proqramlarının monitorinqi istiqamətində daxili prosedur mexanizminin təşkil edilməsi;
- Təhsil proqramlarının qiymətləndirilməsində beynəlxalq səviyyəli kənar auditdən istifadə imkanlarının araşdırılması.

## *IV istiqamət – Elmi tədqiqat*

Qərbi Kaspi Universitetinin keçən akreditasiyadan sonra iki elmi-tədqiqat strategiyası işlənib hazırlanmışdır. ETS hazırlanərkən Universitetin Strateji planı və missiyasının uyğunluğu nəzərə alınmışdır. Universitetin SİP Məqsəd 3, Hədəf 1-də deyilənləri rəhbər tutaraq ETS-da elmi fəaliyyəti, hədəflər, elmi fəaliyyətin idarə olunması mexanizmləri öz əksini tapmışdır.

QKU-da magistrant və doktorantların tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif seminar və təlimlərin keçirilməsi, "Elmi tədqiqat metodları", "Molekulyar biologiyanın tədqiqat metodları", "Elmi tədqiqatın metodologiyası" fənlərin sillabuslarının təkmilləşdirilməsi və digər məsələlər nəzərdə tutulmuş və həyata keçirilməkdədir.

QKU elmi-tədqiqat işlərinin aparılması üçün təcrübə bazalarının, laboratoriyaların, infrastrukturun maddi-texniki bazası və texnoloji resurslarının təkmilləşməsi üçün büdcə vəsaitləri ayırmışdır. QKU-da elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması məqsədilə yaradılmış Gənc Tədqiqatçılar klubu Elm şöbəsinin, Doktorantura və Magistratura Şöbəsinin, Beynəlxalq Əlaqələr Şöbəsinin koordinasiyası ilə fəaliyyət göstərir.

Beynəlxalq elmi bazalara (SCOPUS, WoS bazalarına) girişin təmin edilməsi üçün korporativ E-meilləri təmin edilmiş və həmin tədqiqatçıların profilləri yaradılmışdır. Qərbi Kaspi Universitetinin Kitabxanası tələbə və müəllim heyətinə Oxford University Press nəşriyyatının onlayn lüğət, ensiklopediya, soraq-məlumat bazası və qısa xülasələr bazasına 3 aylıq giriş və istifadə imkanı təqdim edir: Oxford Reference, Oxford Research Encyclopedias, Oxford English Dictionary, Very Short Introductions, What everyone needs to know.

QKU 150-dən çox yerli və xarici ölkələrin universitetləri ilə elmi-tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq edir. Bununla bağlı memorandumlar, müqavilələr imzalanmış, görüşlər olmuşdur. QKU-da təşkil edilmiş elmi-tədqiqat xarakterli konfrans, seminar, görüş və s. tədbirlərdə ABŞ, Finlandiya, Türkiyə, Almaniya, İsveç, Böyük Britaniya, İsrail, Yaponiya, Rusiya, Çin və digər ölkələri təmsil edən tədqiqatçılar iştirak etmişdir.

QKU hər tədris ilinin sonunda tələbə, magistr və doktorantlar üçün multidissiplinar Respublika elmi-praktik konfransı keçirilir. QKU-da təşkil edilmiş elmi-tədqiqat xarakterli konfrans, seminar, görüş və s. tədbirlərdə, pandemiya dövrü istisna olmaqla, gənc tələbə-tədqiqatçılar iştirak etmişdir.

**IV istiqamət üzrə Təşkilat Komissiyası verdiyi tövsiyyələr:**

- Elmi-tədqiqat işlərinin kommersiyalaşması istiqamətində mexanizmin qurulması;

## *V istiqamət – İdarəetmə sistemi*

Qərbi Kaspi Universitetinin idarə olunması Azərbaycan Respublikası Konstitusiyasına, "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"na, digər Qanunlara, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Azərbaycan Respublikası Təhsil Nazirliyinin normativ-hüquqi aktlarına, universitetin Nizamnaməsinə və universitetin idarəetmə orqanlarının qərarlarına müvafiq olaraq həyata keçirilir.

Universitetin idarə olunmasında demokratikliyi və şəffaflığı təmin etmək məqsədilə aşağıdakı idarə və özünüidarə orqanları yaradılmışdır:

- Direktorlar Şurası
- Qəyyumlar Şurası
- Elmi Şura
- Elmi-metodik şura
- İcraçı Prorektor
- Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyəti

Universitetdə ali məşvərətçi orqan - Qəyyumlar Şurası fəaliyyət göstərir. Qəyyumlar Şurası Universitetin strateji fəaliyyəti və onun istiqamətləri barədə məsləhətlər verir. Qəyyumlar Şurasının yaradılması, tərkibi, səlahiyyətləri, fəaliyyət istiqamətləri və fəaliyyətinin təşkili qaydası Nizamnaməyə uyğun olaraq Təsisçilər Şurası tərəfindən təsdiq edilən Əsasnamə ilə müəyyən edilir. Qəyyumlar Şurasının tərkibinə maliyyə və digər yardımlar göstərən hüquqi və fiziki şəxslər, dövlət və qeyri-hökumət təşkilatları, ictimai təşkilatların (birliklərin) nümayəndələri və digər şəxslər daxil ola bilərlər.

Universitetin daxilində səlahiyyət və vəzifə bölgüləri Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən 23 may 2017-ci tarixli 1700370951 saylı qeydiyyatı ilə təsdiq edilmiş Nizamnaməyə uyğun olaraq tənzimlənir. Akademik heyətin işə qəbulu "Ali təhsil müəssisəsində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tətbiqi barədə Azərbaycan Respublikası Elm və Təhsil

Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 nömrəli əmri və Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 07.08.1996-cı il tarixli 401 nömrəli əmrinin 1 saylı Əlavəsi ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə və qeyri-akademik heyətin isə "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 29.06.2018-ci il tarixli 1196-V.Q. No-li Qanununa uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş Elektron Informasiya Sisteminin "Məşğulluq Alt Sistemi"ndə universitet tərəfindən verilmişelana uyğun olaraq vakansiyaya göndəriş əsasında həyata keçirilir.

QKU-nin Elmi Şurasının qərarı ilə Universitetdə tədrisin, elmi tədqiqatın səviyyəsinin yüksəldilməsi və işçilərin motivasiyasının gücləndirilməsi üçün differensiallaşmış əməkhaqqı sistemi formalaşdırılmışdır. QKU-un Nizamnaməsinin 7-ci bəndinə əsasən Universitetin əmlakı nizamnamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, o cümlədən, ödənişli təhsildən əldə edilən vəsaitdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan olunmayan digər vəsaitdən formalaşdırılır. Universitetin İnformasiya idarəetmə sistemini daxil olan Elektron jurnal, Elektron imtahan sistemi və tələbə kabineti proqram təminatı və verilənlər bazasında səviyyəsində hər il mütəmadi olaraq yenilənir. Proqram təminatı üzrə Backup alınır.Severdə yenilənmələr daxil edilir. Tələblərə uyğun olaraq mövcud olan elektron jurnal, tələbə kabineti və imtahan sisteminə əlavələr edilir. Hər yeni semestr üzrə sistemlərdə mövcud informasiya yenilənir. İnformasiya idarəetmə sisteminə əlçatanlığı tələbə və müəllimlər üçün yaradılmış kabinetlər vasitəsi ilə təmin edilir. Belə ki, tələbələr daim cədvəllərinə, onlayn və ya hibrid dərslərin linklərinə, həmin dərslərin video yazısına, dinlədiyi fənlər üzrə müəllimlər tərəfindən yüklənmiş tədris materiallarına, tədris zamanı müəllimlər tərəfindən verilmiş tapşırıqlara baxış imkanı və həmin tapşırıqların vaxtında müəllimə təqdim edilmə imkanı, müəllim, kommunikasiya modulu vasitəsilə tələbə və ya əməkdaşlarla rahat ünsiyyətə girmə imkanı, akademik fəaliyyətinin sistem tərəfindən qiymətləndirilməsinə daimi baxma imkanı, tələbələr tərəfindən müəllimlərin qiymətləndirməsi sorğusunda iştirak imkanı, ölkə daxili, həmçinin beynəlxalq tədbirlər barədə elanlara çıxış imkanı təmin edilir.

ATM barədə məlumatlar universitetin saytı ilə yanaşı, rəsmi social şəbəkələrimizdə - Facebook, İnstaqram, Teleqram, Youtube, Twitterdə paylaşılır. Eləcə də fakültə, inzibati struktur və tələbə təşkilatlarının sosial şəbəkələrində də paylaşılaraq geniş ictimaiyyətə çatdırılır. Eyni zamanda əməkdaşlıq etdiyimiz KİV-də işıqlandırılır.

**V istiqamət üzrə Təşkilat Komissiyası verdiyi tövsiyyələr:**

- İdarəetmənin optimallaşdırılması üçün əməkdaşların fəaliyyətinin qiymətləndirilməsi meyarlarının hazırlanması;

## *VI istiqamət – İnfrastruktur*

Universitetdə tədrisin təşkil olunduğu müxtəlif ünvanlarda yerləşən 5 binası və 9 təlim, tədris və istehsalat təcrübə bazaları vardır. Bu binalarda cəmi 145 auditoriya mövcuddur. Olardan 37-si mühazirə, 108-i isə məşğələ otağıdır. Mühazirə otaqlarının faydalı sahəsi 2682,5 m2 , məşğələ otaqlarının sahəsi isə 4306,3 m2-dir. İnzibati heyətin fəaliyyətini təmin edən zəruri otaqların sayı 45, sahəsi is 2320,5 m2-dir. Akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq sayı 22, sahəsi isə 1301,2 m2-dir. Elmi tədqiqatların aparılmasına imkan verən avadanlıqlarla təchiz olunmuş müasir və digər laboratoriyaların sayı 25, sahəsi isə 1151,5 m2-dir.

QKU-da geniş məlumat və biblioqrafik avadanlıqlarla təmin olunmuş zəngin Elmi kitabxana və Elektron kitabxana mövcuddur. Kitabxanada daimi qeydiyyatda olan oxucuları sayı akademik heyət 156, təhsil alanlar 4341-dir. Oxu zalında oxuyucular üçün ayrılmış yerlərin sayı 132-dir. Kitabxana vasitəsilə çıxışın mümkün olduğu beynəlxalq elmmetrik bazalar aşağıdakılardır:

- SCOPUS məlumat bazası
- PERLEGO onlayn kitab platforması
- EBSCO məlumat bazası

Eləcə də açıq olmayan informasiya resursları mövcuddur: DOAB, DOAJ, EconBiz, Poerperty, CORE, PubMED, Forced, Miqration.

QKU-da aşağıdakı istehsalat təcrübə bazaları mövcuddur:

1. “Qərbi Kaspi Universitetinin Xəzər Dənizi Problemləri Elmi Tədqiqat Mərkəzi”nin Təcrübə bazası-Salyan rayonu, Şirvan Milli Park ərazisi
2. “Qərbi Kaspi Universitetinin Davamlı İnsan İnkişafı İnstitutu”-nun Kənd Təsərrüfatı Məhsulların İstehsalı və Emalı Mərkəzi- Xızı rayonu, Giləzi qəsəbəsi
3. “Qərbi Kaspi Universitetinin Ekoloji Tədqiqat Mərkəzi”nin Ekoturizm və Davamlı İnkişaf Mərkəzi- Xızı rayonu, Giləzi qəsəbəsi
4. Qərbi Kaspi Universitetinin İnsan İnkişafı İnstitutunun Eksperimental Bağçılıq Landşaft Poliqonu-Quba rayonu, Quba şəhəri
5. Qərbi Kaspi Universitetinin və Beynəlxalq Dırmanma və Dağçılıq Federasiyası- Dağ Mədəniyyətləri və Landşaftları Tədqiqat İnstitutu/Dağ bazası – Quba rayonu, Buduq kəndi
6. Qərbi Kaspi Universitetinin İdman Bazası -Abşeron rayonu, Pirəkəşkül qəsəbəsi
7. Qərbi Kaspi Universitetinin Texnoparkın İstehsalat Təcrübə Bazası- Abşeron rayonu, Pirəkəşkül qəsəbəsi
8. Qərbi Kaspi Universitetinin Dağçılıq Bazası-Quba rayonu, Xınalıq kəndi

Həmçinin, Universitetdə 7 Elmi-tədqiqat mərkəzi fəaliyyət göstərir, yeməkxana, tibb, nəqliyyat, İT və distant xidmətlərə əlçatanlıq təmin olunmuşdur.

**VI istiqamət üzrə Təşkilat Komissiyası verdiyi tövsiyyələr:**

- Universitetin Kampusunun yaradılması imkanlarının araşdırılması;
- İnkluziv tədris infrastrukturunun təkmilləşdirilməsi.

## *VII istiqamət – Beynəlmiləlləşmə*

Universitetin beynəlmiləlləşmə siyasəti onun fəaliyyətində mühüm yer tutur. SİP-də qarşıya qoyulan hədəflər, öhdəliklər və strateji vəzifələrlə yanaşı, Qərbi Kaspi Universitetinin elm sahəsində əldə etdiyi nailiyyətlər də qeyd olunmuşdur. Universitetin Azərbaycan Respublikasının “Elm Haqqında” və “Təhsil Haqqında” qanunlara əsaslanaraq öz fəaliyyəti çərçivəsində elmin müxtəlif sahələri və istiqamətləri üzrə yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanmasını həyata keçirdiyi siyasətdə aydın görünür.

Universitet Erasmus, Mevlana, ikitərəfli müqavilələrə əsaslanan mübadilə proqramları ilə uzun illər məşğul olmuş, qazandığı təcrübələrini beynəlmiləlləşmə siyasətində əks etdirmişdir.

Universitet yarandığı ilk illərdən beynəlxalq təhsil şəbəkələrinə və təşkilatlarına üzv olmuşdur. Üzvlük çərçivəsində bir çox işlər görülmüş, layihə və tədbirlrdə iştirak etmişdir. Universitetin adı çəkilən qurumlara üzvlüyünü imzalanan müqavilələr təsdiq edir. Universitetin adları qeyd olunan beynəlxalq təhsil şəbəkələrinə və beynəlxalq təhsil təşkilatlarına üzv olması barədə məlumat qeyd olunmuşdur:

- Beynəlxalq Təhsil Administratorları Assosiasiyası (AIEA)
- Beynəlxalq Universitetlər Assosiasiyası (IAU)
- Açıq və Distant Təhsil üzrə Beynəlxalq Şura (ICDE)
- Kollec Biznes Məktəblərini İnkişaf etdirmə Assosiasiyası (AACSB)
- Avropa Elm Fəlsəfəsi Assosiasiyası (EPSA)
- Qara Dəniz Universitetləri Şəbəkəsi (BSUN)
- Siyasi Araşdırmalar Dərnəyi (PSA)
- Universitet Prezidentlərinin Beynəlxalq Assosiasiyası (IAUP)
- Qafqaz üzrə Avropa Araşdırmaları Assosiasiyası (AESC)
- Məsuliyyətli İdarəetmə Təhsili Prinsipləri (PRME)
- Avropa Universitetlər Birliyi (EUA)
- Beynəlxalq Dırmanma və Alpinizm Federasiyası (UIAA)

Universitetin ikili diplom proqramları üzrə fəaliyyəti son illər üzrə artmışdır. Amerika Birləşmiş Ştatlarının UBIS və Almaniya Federativ Respublikasının FOM Universitetləri ilə müqavilələr bağlanmışdır.

Qərbi Kaspi Universiteti dünya nüfüzlu reytinqlərdə aktiv iştirak edir və Universitet göstəricilərinə əsasən qabaqcıl ali təhsil müəssisələri arasında yer qazanmışdır.

1. Dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan Times Higher Education (THE) təşkilatının "THE Impact Ranking" 2023 üzrə dünyanın ən yaxşı 601–800 universiteti arasında yer almışdır. Times Higher Education World University 2023 və Ranking Young University Rankings 2023 reporter qismində iştirak etmişdir.

2. QS (Quacquarelli Symonds) Stars reytinqində 2021-ci il üçün yüksək nəticələr göstərib. Belə ki, universitet reytinqi təhsil keyfiyyəti üzrə mümkün 5 ulduz üzrə 5, onlayn tədris üzrə 4, məzunların iş tapması üzrə 4 və inklüzivlik üzrə 4 ulduzla qiymətləndirilib.

3. Avropa birliyi tərəfindən təsis edilən ən böyük beynəlxalq reytinq sistemlərindən biri olan "U-Multirank" beynəlxalq reytinq sisteminə daxil edilib və ən yaxşı 202 universitet arasında göstərilib.

4. UI GreenMetric World University Rankings 2022 Avropa üzrə 170-ci yer, UI GreenMetric World University Rankings 2021 Avropa üzrə 198-ci yer tutmuşdur.

5. AASHE Stars Reytinqi: "Gold Stars" - təhsil kateqoriyasındakı qiymətləndirmədə müəyyən edilmiş mümkün 40 baldan 33.52, elmi tədqiqat üzrə mümkün 18 baldan 16,33, ictimaiyyətlə əlaqələr üzrə mümkün 20 baldan 18,48 bal.

6. "Round University Ranking" 2022: təhsilin keyfiyyətinə görə ölkə üzrə 1-ci, dünya üzrə isə ilk 500-lükdə yer almışdır.

Beynəlmiləlləşmə siyasətinin icrasını keyfiyyətli və uğurlu həyata keçirilməsində müvafiq şöbələr ilə yanaşı, digər şöbələr, fakültələr və bölmələrdə yer alır. Siyasətinin icrasının effektiv şəkildə yerinə yetirilməsi məqsədi ilə şöbələrarası əlaqəli fəaliyyət aparılır. Bütün məlumatlar siyasətdə öz əksini tapır.

**VII istiqamət üzrə Təşkilat Komissiyası verdiyi tövsiyyələr:**

- Beynəlxalq qrant layihələrində iştirakın sayının artırılması.

# III.ÖZÜNÜTƏHLİL HESABATINA ƏLAVƏ OLUNAN SƏNƏDLƏR

1. Təhsil müəssisəsinin Nizamnaməsi;
2. Təhsil müəssisəsinin ötən beş və qarşıdan gələn beş il üzrə Strateji İnkişaf Programı;
3. Təhsil müəssisəsinin tədris ili üzrə iş planı;
4. Təhsil müəssisəsinin son beş il üzrə maliyyə hesabatı;
5. Təhsil müəssisəsində təhsil alan təhsilalanların beş il üzrə müvəfəqqiyət göstəriciləri (keyfiyyət göstəriciləri daxil olmaqla);
6. Son beş tədris ilində təhsilalan, akademik heyət və məzunlar arasında keçirilmiş sorğuların nəticələri;
7. Son 5 ildə elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti haqqında məlumat;
8. Elmi-tədqiqat fəaliyyətindəki gəlir və xərclər ilə bağlı hesabat;
9. Məzun olan təhsilalanların məşğulluq göstəriciləri;
10. Təlim resursları və tələbələrə dəstək xidmətləri;
11. Təhsil müəssisəsinin maddi-texniki bazası;
12. Təhsil müəssisəsinin sosial-məişət şəraiti;
13. Kitabxana fondunun (elektron daxil) vəziyyəti;
14. Müəssisədə çalışan professor-müəllim heyəti və digər əməkdaşların xarici ölkələrdə təcrübə və mübadilə proqramlarında iştirakı barədə məlumat;
15. Son 5 ildə müəssisəyə qəbul olunan əcnəbi tələbələr barədə məlumat;
16. Təhsil müəssisəsi tərəfindən daxili keyfiyyət təminatı siyasətini əks etdirən sənəd;
17. Təhsil müəssisəsi tərəfindən tərtib edilmiş müəssisənin elmi (pedaqoji) fəaliyyətinin və tədris prosesinin tənzimlənməsinə və təşkilinə dair tədris planları və digər müvafiq sənədlər;
18. Akkreditasiya olunan proqramlar üzrə tədris planına daxil olan fənlərin, dərs dənkənar məşğələlərin, proqramların, sillabusların (işçi tədris proqramları) və (və ya) modulların təsviri;
19. Akkreditasiya olunan proqramlar üzrə təhsilalanların sayı və təhsilalanların qəbulu, yerdəyişməsi, köçürülməsi, bərpası və xaric edilməsi haqqında əmrlərin surəti;
20. Akademik (pedaqoji) heyətin siyahısı, professor müəllim heyətinin şəxsi uçot məlumatları;
21. Tədris planında nəzərdə tutulmuş bütün növ təcrübələr üzrə proqramlar, təcrübənin keçirildiyi müəssisələrlə bağlanılmış müqavilələrin surəti və təcrübənin nəticəsi barədə hesabat;
22. Ümumtəhsil müəssisəsi üzrə buraxılış sinif şagirdlərinin yekun attestasiyasının nəticələri, proqramlar üzrə bütün imtahanların nəticələri, diplom işləri haqqında məlumat və təhsilalanların yekun tezislərinin siyahısı;
23. Əvvəlki akkreditasiya qiymətləndirmə nəticələrinin icmalı və müvafiq Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat;
24. Birgə təhsil proqramını təklif edən təhsil müəssisələri arasındakı razılaşma (əgər varsa);
25. Başa çatmış hər tədris ili üzrə sentyabr ayının 10-dək TMİS vasitəsilə təqdim olunmuş Akkreditasiya Meyarlarına dair müvafiq məlumatların məcmusu;
26. Akkreditasiyaya görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.